# Adımı sənə qoyum...

**Noyabrın 11-dən 22-dək paytaxtımızda keçiriləcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) yaxınlaşdıqca, Qərbin müxtəlif ölkələri və təsisatları tərəfindən Azərbaycana hücumlar intensivləşib.**

Demək olar ki, hər gün ayrı-ayrı media orqanlarında ölkəmizlə bağlı həqiqətə uyğun olmayan, qərəzli, yaxud təhrif edilmiş məqalələr dərc olunur.

*(ardı 5-ci səhifədə)*






Xalqın qəzeti!
# Xalq qəzeti
№ 240 (30644) 31 oktyabr 2024-cü il, cümə axşamı
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan paytaxtının “yaşıl” xəritəsində yeni ünvan



## Prezident İlham Əliyev Bakının Nəsimi rayonunda yeni salınan parkda

Səhifə ⇨ 2

## İrəvan “3+3”də həm var, həm də yox...



Səhifə ⇨ 4

## “Azərenerji” Bakı konfransı zamanı gücləndirilmiş iş rejimində çalışacaq



Səhifə ⇨ 10

## ABŞ: səsverməyə 5 gün qalır



Səhifə ⇨ 15

# Azad olunmuş ərazilərin su layihələri

**İşğaldan azad olunmuş ərazilərin su təchizatının yaxşılaşdırılması istiqamətində işlər sürətlə davam etdirilir. Hazırda Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi (ADSEA) tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan yaşayış məntəqələrində mühüm layihələr həyata keçirilir.**



Agentlikdən verilən məlumata görə, Cəbrayıl, Zəngilan və Füzuli şəhərlərində sakinlərin keyfiyyətli, dayanıqlı içməli su ilə təmin olunması üçün təxirəsalınmaz bərpa və tikinti işləri aparılır. Bildirilib ki, qurumun sifarişi ilə icra olunan Cəbrayıl şəhərinin xarici su təchizatı və kanalizasiya sistemlərinin tikintisi layihəsi 2040-cı ilədək perspektiv inkişaf nəzərə alınmaqla 15 min nəfərin tələbatının ödənilməsinə hesablanıb. 2023-cü ildə şəhərdə yeni geoloji kəşfiyyat quyusu qazılıb. Seçilmiş mənbənin məhsuldarlığı və suyun keyfiyyət göstəriciləri Cəbrayıl şəhərini və ətraf kəndləri içməli su ilə təmin etməyə imkan verir.

Ötən müddətdə Cəbrayıl şəhərinin şimalında, ümumilikdə, 9 subartezian quyusu layihələndirilib və artıq bu istiqamətdə işlərə başlanılıb. İlkin mərhələdə şəhər ərazisində məhsuldarlığı saniyədə 12 litr olan 3 quyunun qazılması nəzərdə tutulur. Şəhərdə məskunlaşacaq əhalinin sayı artdıqca yeni quyuların qazılması təmin ediləcək.

*(ardı 9-cu səhifədə)*

# Qərbin İberiya isteriyası – məğlubiyyətin “erməni karuseli”

*Qonşu ölkə ilə bağlı yaşananlar barədə bəzi qeydlər*



**Gürcüstan Prezidenti Salome Zurabişvili oktyabrın 26-da ölkədə keçirilmiş parlament seçkilərində saxtakarlıqların törədildiyinə dair xarici mediaya müsahibələr sıralamaqdadır. Hiss olunur ki, kollektiv Qərb, məsələyə ciddi şəkildə köklənib və heç bir halda, arxasını yerə qoymaq istəmir. Ancaq hər şeyin etikası olmalıdır. Çünki xanım Zurabişvilinin dilə gətirdikləri daşıdığı posta, qətiyyən, uyğun deyil, bu, öz yerində. Maraqlı məqam isə ondadır ki, dövlət başçısı vəzifəsini tutan şəxs təmsil olunduğu Qərb cəbhəsinin riyakarlığını ortaya qoyur.**

Bəli, qeyd etdiyimiz kimi, Qərb təslim olmaq istəmir. Təsəvvür edin ki, Gürcüstanda seçki müşahidəçiliyini həyata keçirən ayrı-ayrı qurumlar prosesin gedişində hansısa ciddi nöqsan və çatışmazlıq aşkarlamadıqları halda, ölkə hakimiyyətinə münasibətdə hədyanlar yağdırılır, hədə-qorxu tonu seçilir. Seçki pozuntularının araşdırılması yönündəki bəyanatlar bir-birini əvəzləyir. Məsələn, Fransanın Avropa məsələləri üzrə naziri Benjamin Haddad Gürcüstandakı seçki prosesində, guya, “seçicilərə qarşı təzyiq, hədə-qorxu və təhdidlər” olduğunu iddia edib. Kanada hökuməti seçkilərin nəticələrinə görə, Gürcüstan rəhbərliyi ilə münasibətlərinə yenidən baxmaq niyyətində olduğunu açıqlayıb...

*(ardı 6-cı səhifədə)*

# Prezident İlham Əliyev Bakının Nəsimi rayonunda yeni salınan parkda



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Bakının Nəsimi rayonunda Zərifə Əliyeva, Rixard Zorge küçələrinin və Neftçilər prospektinin əhatəsində yerləşən ərazidə aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yeni salınan parkda yaradılan şəraitlə tanış olub.**





Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına burada həyata keçirilən abadlıq və yenidənqurma işləri, yeni salınan parkda yaradılan şərait barədə məlumat verdi.

Paytaxtımızın daha da müasirləşdirilməsi, şəhərin abadlaşdırılması istiqamətində görülən işlər yaşıllıq zolaqlarının və parkların salınması ilə paralel şəkildə davam etdirilir. Belə istirahət məkanlarından daha biri Azərbaycan Prezidentinin göstərişinə əsasən Nəsimi rayonu ərazisində salınan yeni parkdır.

Bildirildi ki, yeni salınan parkda sakinlərin və qonaqların asudə vaxtlarının səmərəli təşkili üçün qısa müddətdə gözəl şərait yaradılıb. Ərazidə asfalt örtüyü ləğv edilərək müasir tələblərə cavab verən piyada yolları salınıb. Yeni parkda yaşıllaşdırma, işıqlandırma işləri görülüb, müasir oturacaqlar quraşdırılıb, uşaq əyləncə zonası yaradılıb.

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi daha da artmaqdadır. Paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni yaşıllıq zolaqlarının salınması, Bakının qədim tarixi memarlıq nümunələrinin bərpası və müasir binaların tikilib istifadəyə verilməsi ölkəmizdə həyata keçirilən quruculuq işlərinin daha da genişləndiyini göstərir. “Yaşıl dünya naminə həmrəylik İli”ndə də yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Nəsimi rayonu ərazisində yeni salınan park da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından əhəmiyyətlidir. Yeni parkın salınması gələn ay COP29-a ev sahibliyi edəcək ölkəmizdə elan olunan “Yaşıl dünya naminə həmrəylik İli” çərçivəsində həyata keçirilən işlərə də töhfə vermək baxımından xüsusi önəm daşıyır.

***AZƏRTAC***

# Tələbələrin antinarkotik dünyagörüşü müsabiqəsi



**Tələbələrin antinarkotik dünyagörüşünün formalaşdırılması məqsədilə Gənclər və İdman Nazirliyinin, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupunun birgə təşkilatçılığı ilə oktyabrın 29-da Sabunçu Gənclər Evində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı intellektual müsabiqə təşkil edilib.**

Təlimin nəticəsi olaraq, intellektual müsabiqə təşkil edilməsi üçün tələbələrin iştirakı ilə hər komanda üzrə 5 nəfər olmaqla 7 komanda formalaşdırılıb və 3 mərhələdən ibarət suallar təqdim olunub. Maraqlı mübarizə şəraitində keçən müsabiqədə “3.5 KH ÜST”, “Freydin Kreslosu”, “Aypara”, “Xarıbülbül”, “İrəli”, “Cosmo Vizyon” və “Dəmir Yumruq” adlı komandalar mübarizə aparıb, Xəzər Universitetinin tələbələri (“3.5 KH ÜST”) qalib olublar.

Sonda diplom və hədiyyələrlə mükafatlandırılıb, həmçinin digər iştirakçılara sertifikatlar təqdim edilib.

***XQ***

## “Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti” publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3382 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti” publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3382 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 794 (Cild I); 2024, № 4, maddə 400) 1-ci hissəsində “Sahib Məmmədov – Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini” sözləri “Elnur Əliyev – Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini” sözləri ilə əvəz edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 oktyabr 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 466** **Bakı şəhəri, 29 oktyabr 2024-cü il**

Cəbrayıl rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid torpaq sahəsinin bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında

“Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid 229,0 hektar torpaq sahəsi qoyuluş gücü ilkin mərhələdə 50 MVt olmaqla, ümumilikdə 100 MVt gücündə olan günəş elektrik stansiyasının tikintisi məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilsin (torpaq sahəsinin yerləşdiyi yeri, ölçülərini və sərhədlərini göstərən yerquruluşu xəritəsi əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Energetika Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə müəyyən edilmiş bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi ilə bağlı tədbirləri Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2285 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası”nın tələblərinə uyğun olaraq həyata keçirsin.

**3.** Bu Qərar qüvvəyə mindiyi tarixdən elektrik enerjisinin istehsalı məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş 229,0 hektar torpaq sahəsində günəş elektrik stansiyasının tikintisinə icazə “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikası Qanununun 6.7-ci maddəsində nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq alınır.

**4.** Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Qərarın 3-cü hissəsinə uyğun olaraq, tikintiyə icazə verildikdə həmin gündən, müəyyən edilmiş müddətdə tikintiyə icazə verilmədikdə isə müddət başa çatdığı gündən üç gün ərzində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**5.** Bu Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinə həvalə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Zakir Həsənov Mərakeş Krallığında



**Müdafiə naziri general-polkovnik Zakir Həsənov Mərakeş Krallığının Hökumət Başçısı yanında Milli Müdafiə Administrasiyası üzrə səlahiyyətli naziri Abdellatif Ludiyinin dəvəti ilə bu ölkədə işgüzar səfərdədir.**

Səfər çərçivəsində general-polkovnik Z.Həsənov mərakeşli həmkarı ilə görüşüb və “Mərakeş Aviaşou 2024” sərgisinə dəvətə görə həmkarına təşəkkür edib.

Görüşdə Azərbaycan ilə Mərakeş arasında hərbi, hərbi-texniki əlaqələrin inkişaf perspektivləri müzakirə edilib, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Sonda Azərbaycan Hökuməti adından müdafiə naziri mərakeşli həmkarı ilə “Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında müdafiə sahəsində hərbi əməkdaşlıq haqqında Saziş”i imzalayıb.

***XQ***

# COP29-a akkreditasiya kartları verilir




**Oktyabrın 28-dən etibarən COP29-da iştirak edəcək nümayəndələrin və digər qonaqların akkreditasiya kartlarının verilməsinə başlanılıb.**

Bu barədə COP29 Azərbaycan Əməliyyat Şirkətindən məlumat verilib.

Bildirilib ki, tədbir günlərində konfransda iştirakı təsdiqləyən sənədin təqdim olunması zamanı növbələrin və gözləmə vaxtının minimuma endirilməsi, eləcə də iştirakçıların rahatlığının təmin edilməsi məqsədilə akkreditasiya kartları hər gün səhər saat 09:00-dan axşam saat 18:00-a qədər konfrans məkanının əsas girişindəki qeydiyyat masalarından təhvil alına bilər.

İştirakçılardan COP29 konfransına qeydiyyatdan keçdiklərini təsdiqləyən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) rəsmi elektron məktubunun çap edilmiş nüsxəsini və qeydiyyat zamanı təqdim edilən fotoşəkilli şəxsiyyət sənədinin – pasportun və ya şəxsiyyət vəsiqəsinin əslini təqdim etmələri tələb olunur.

Təhlükəsizlik məqsədilə akkreditasiya kartı yalnız konfrans iştirakçısı tərəfindən şəxsən, qeydiyyat masasından təhvil alınmalıdır.

***XQ***

# Azərbaycan–Qırğızıstan dostluq salnaməsinin yeni səhifələri

**Türk dünyasının birlik, əməkdaşlıq və dostluq salnaməsi gündən-günə zənginləşir. Müstəqilliyini inamla möhkəmləndirən qardaş türk dövlətləri arasında tarixi əlaqələr üzərində çağdaş əməkdaşlıq davamlı olaraq intensivləşdirilir. Bu birliyi təmin edən dövlətlərarası ictimai-siyasi, elmi-mədəni münasibətlər dərinləşir və geniş miqyas alır.**



Bu baxımdan Azərbaycan–Qırğızıstan əlaqələrinin yüksələn xəttlə inkişafını xüsusi qeyd etmək lazımdır. Ortaq tarixi dəyərlərin birləşdirdiyi xalqlarımız, oxşar taleli dövlətlərimiz arasında qurulan bu dostluq və qardaşlıq münasibətlərinin formalaşdırılmasında ümummilli lider Heydər Əliyevin və Ulu öndərin ən layiqli davamçısı olan Prezident İlham Əliyev kimi dünya şöhrətli siyasətçilərin, eyni zamanda, Qırğızıstanın dövlət rəhbərlərinin xidmətləri misilsizdir.

Görkəmli elm və sənət xadimlərimiz, Bəxtiyar Vahabzadə, Çingiz Aytmatov kimi Türk dünyasının şöhrət çələngini yaratmış yaradıcı ziyalılarımız da ucaltdıqları türklük məfkurəsi ilə ölkələrimizi daha da yaxınlaşdırmış, gələcək Turanın təməllərini möhkəmləndirmişlər.

Azərbaycan–Qırğızıstan qardaşlığının davamlı rəngarəng olmasında bu türk dövlətindəki sayı 20 mini ötən Azərbaycan icmasının da önəmli iştirakı var. Bişkek, Karabalta, Oş, Sokukluk və digər şəhərlərində 3 elmlər doktoru, 22 elmlər namizədi, 9 əməkdar xadim, 3 nəfər "Şöhrət" ordenli ziyalımız yaşayır və ümumi dostluğumuza samballı töhfələr verirlər. Vaxtilə bir qismi sovet sürgünləri nəticəsində, bir çoxu da talenin hökmü ilə bu torpaqlara gəlmiş azərbyacanlılar Azərbaycan-Qırğızıstan əlaqələrinin daha da möhkəmlənməsində böyük rol oynayırlar.

Soydaşlarımıza isti qucaq açmış qırğız qardaşlarımızın dostluq münasibəti onları onillərdən bəri bu torpağa möhkəm bağlayıb. Bu illər ərzində azərbaycanlılar öz dillərini, adət-ənənələrini qoruyub saxlaya bilmiş və onu bu gün də davam etdirir, zənginləşdirirlər.

Azərbaycan–Qırğızıstan əlaqələrindən danışarkən, təbii olaraq, yaxın keçmişə qayıtmaq lazım gəlir. Sovet İttifaqının dağılması dövlət müstəqilliyini qazanmış ölkələrimiz qarşısında yeni üfüqlər açmışdır.

Müstəqil dövlətlərimiz arasında diplomatik əlaqələr 1993-cü il yanvarın 19-da yaranmışdır. İlk mərhələdə bu münasibətlərin inkişafı o qədər də yüksək səviyyədə olmamışdır. Lakin 2002-ci il aprelin 1-də Qırğızıstan Bakıda özünün fəxri konsulluğunu açmış, 2007-ci il mayın 6-da isə Azərbaycan Respublikasının Qırğızıstan Respublikasında səfirliyi fəaliyyətə başlamışdır. 2008-ci ildə Qırğızıstanın da Azərbaycanda səfirliyi açılmışdır. O vaxtdan diplomatik münasibətlər sürətlə inkişaf etməyə başlamışdır.

Qırğızıstanla Azərbaycanın həm diplomatik, həm mədəni, həm siyasi əlaqələrinin gücləndirilməsində ümummilli lider Heydər Əliyevin danılmaz rolunu və onun bu məsələyə böyük əhəmiyyət verdiyini xüsusi qeyd etməliyik. Azərbaycan–Qırğızıstan mədəni əlaqələrinin formalaşmasında və möhkəmlənməsində hələ sovet dövründən əsərlərini maraqla oxuduğumuz, yaradıcılığı ilə öyündüyümüz böyük yazıçı Çingiz Aytmatov fenomeni doğmalıq duyğularını yüksəltmişdir.

Çingiz Aytmatov böyük sənəti və estetik idealı ilə sovet və dünya, eləcə də Azərbaycan ədəbiyyatına güclü təsir edən qüdrətli qələm sahibi idi. Onun əsərləri Azərbaycan dilinə sevilə-sevilə tərcümə olunur, məhəbbətlə oxunurdu. O dövrün ədəbiyyatçıları, xüsusilə gənc yazarlar Aytmatov əsərlərinin humanist ruhu ilə yaşayır, onun verdiyi ədəbi yönün meyarları ilə yaradırdılar. Bu baxımdan onun yaradıcılığı Azərbaycan ədəbiyyatına xeyli yenilik gətirmişdir. Çingiz Aytmatovun 85 və 90 illik yubileylərinin Azərbaycanda təntənə ilə qeyd edilməsi ölkəmizdə qardaş xalqın söz dahisinə bəslənilən hörmət və məhəbbətin təzahürüdür.

Lakin Azərbaycan–Qırğızıstan əlaqələrinin indiki yüksək səviyyəyə çatması Ulu öndərin ümumtürk birliyini formalaşdırmaqla bağlı yeritdiyi mükəmməl siyasətdən qaynaqlanmışdır. Prezident Heydər Əliyevin 1995-ci ilin avqustunda ilk dəfə "Manas" dastanının 1000 illiyi münasibətilə Qırğızıstana etdiyi səfər böyük tarixi addım olmuşdur. "Manas" dastanı ilə bağlı Ulu öndərin söylədiyi parlaq nitq bu gün də öz əhəmiyyətini itirməmiş və zaman keçdikcə onun dəyəri daha da artır.

Ümummilli lider Heydər Əliyev bildirirdi ki, "Manas" Azərbaycanda da çox sevilir, oxunur, ondan parçalar sazla ifa olunur. Eyni zamanda, "Manas" elə bir əsərdir ki, o iki xalqın ümumi dilində yazılıb. Məhz bu fikirlər bu gün "Manas" dastanının tədqiqatçıları üçün əsas istiqamətlərdən biri olmuşdur.

Ulu öndər "Manas" dastanı haqqında danışarkən onun böyük tarixi, ictimai-siyasi əhəmiyyətə malik olduğunu qeyd etmiş, bu mənəvi xəzinənin Azərbaycan və qırğız xalqlarının mənəvi dünyasını bundan sonra da zənginləşdirəcəyini, taleyində böyük rol oynayacağını və dastanda müəyyən olunmuş prinsiplərə söykənən xalqlarımızının böyük nailiyyətlər əldə edəcəyini bildirmişdir. Türk xalqlarının böyük öğlu Heydər Əliyev deyirdi ki, ayrı-ayrı sözləri, ifadələri biz başa düşməsək də ürəyimizlə bir-birimizi başa düşür və bundan sonra da başa düşəcəyik.

Ölkələrimiz və xalqlarımız arasında əlaqələr sonrakı illərdə uğurla davam etdirilmiş və müxtəlif tədbirlərdə hər iki ölkənin elm xadimləri, ziyalıları, dövlət rəhbərləri yaxından iştirak etmişlər. 2000-ci il aprel ayının 8-9-da Qırğızıstan Respublikasının prezidenti "Dədə Qorqud" dastanının 1300 illik, 2000-ci ildə Azərbaycan nümayəndə heyəti Oş şəhərinin 3 min illik yubileylərində iştirak etmişlər. 2001-ci ilin yanvarında ulu öndər Heydər Əliyev TÜRKSOY-un Daimi Şurasının iclasında iştirak etmiş Qırğızıstan nümayəndələrini qəbul edilmişdir. 2005-ci ilin dekabrında Azərbaycan və Qırğızıstanın Milli kitabxanaları arasında əməkdaşlıq müqaviləsi, imzalanmışdır. 2012-ci ildə isə dövlətlərarası turizm və mədəniyyət əməkdaşlığına start verilmişdir. Ümumiyyətlə, bu əlaqələri tənzimləyən onlarla akt uğurla yerinə yetirilir.

Ulu öndər Heydər Əliyev Türk dünyasının böyük yazıçısı və ictimai xadimi Çingiz Aytmatova hər zaman xüsusi diqqət yetirirdi. Heydər Əliyev həm keçmiş Sovetlər İttifaqının rəhbərliyində olarkən, həm də Azərbaycan Respublikasına rəhbərliyi dövründə onunla bağlı ən yüksək səviyyəli tədbirlərin keçirilməsinin təşkilatçısı və iştirakçısı olmuşdur. Heydər Əliyev Çingiz Aytmatov haqqında böyük fəxrlə, qürurla danışırdı. O deyirdi ki, dünya ədəbiyyatı xəzinəsinə gözəl əsərlər bəxş edən Çingiz Aytmatov təkcə Qırğızıstanın deyil, bütün Türk dünyasının fəxridir. Ümummilli lider Heydər Əliyev Çingiz Aymatovun 75 illik yubileyini qeyd etmək barədə sərəncam vermişdir. Prezident İlham Əliyev 2008-ci ildə Azərbaycanın "Dostluq" ordeni ilə ilk dəfə Çingiz Aytmatovu təltif etmişdir.

Çingiz Aytmatov Azərbaycanda çox böyük hörmətlə anılan, xatirəsi əziz tutulan yazıçılardandır. Ulu öndər onu həm Qırğızıstanın, həm də Azərbaycanın qüruru adlandırmışdır. Təsadüfi deyil ki, 2024-cü il aprelin 26-da Bakıda Qırğızıstan Prezidenti Sadır Japarovun dövlət səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev onunla birlikdə Çingiz Aytmatovun heykəlinin açılışını etmişdir. Xalq rəssamı Natiq Əliyev onun mükəmməl obrazını yüksək sənətkarlıqla yaratmışdır. Bu orijinal sənət nümunəsi gözəl Bakımıza həmişə yaraşıq verəcəkdir.

Həmin günlərdə Azərbaycanda Qırğızıstan mədəniyyət günlərinə də yekun vurulmuşdur. Musiqili Teatrda keçirilən təntənəli mərasimdə iki qardaş ölkənin mədəniyyət nazirləri çıxış etmiş və ikitərəfli əlaqələrin inkişafında xidmətləri olan şəxslərə, o cümlədən, qırğızıstanlı nazir Altınbek Maxsutov Azərbaycan Dövlət Tərcümə Mərkəzinin əməkdaşı Nəriman Əbdülrəhmanlıya Qırğızıstanın medalını təqdim etmişdir.

Ümumiyyətlə, Çingiz Aytmatovun Bakıda həmişə böyük nüfuzu olub. Azərbaycan yazıçıları bu böyük sənətkarın əsərlərini Azərbaycan dilinə sevə-sevə tərcümə etmiş, onun yaradıcılığından həmişə bəhrələnmişlər. Yazıçının Bakıdakı dostları arasında İmran Qasımovun, Bəxtiyar Vahabzadənin, Nəbi Xəzrinin, Anarın, Elçinin, Şahmar Ələkbərzadənin, Cəmil Əlibəyovun, Hüseynbala Mirələmovun və başqalarının adları hörmətlə çəkilir. Çingiz Aytmatov haqqında bizdə bir çox dissertasiyalar yazılmış, onun yaradıcılığı hərtərəfli tədqiq olunmuşdur.

Azərbaycan–Qırğızıstan əlaqələrini möhkəmləndirilmədində tanınmış yazıçı, dramaturq, diplomat Hidayət Orucovun əməyini də vurğulamaq lazımdır. O, hələ sovet dövründən yaxından tanıdığı Çingiz Aytmatov və digər qırğız yazıçıları, şairləri, mədəniyyət xadimləri ilə səmimi münasibətlər quraraq, əlaqələrimizin gücləməsinə töhvə vermişdir.

Çingiz Aytmatovun yaxından ünsiyyət saxladığı bilavasitə əsərlərinin tərcüməsində iştirak etdiyi insanlardan biri də tanınmış yazıçımız Hüseynbala Mirələmov olmuşdur. Bakıda Qırğız Mədəniyyəti Günləri keçirilərkən Ulu öndərə məhəbbət rəmzi olaraq "Görkəmli insanların həyatı" seriyasından Hüseynbala Mirələmovun Viktor Andriyanovla onun haqqında birgə yazdığı kitabın qırğız dilinə tərcüməsi müzakirə olunmuşdur. Bu əsər 2005-ci ildə Rusiyanın "Molodaya Qvardiya" nəşriyyatında nəşr olunmuş və dünyada yayılan ən populyar nəşrlərdən biri olmuşdur. Qürurverici haldır ki, bu kitab hazırda dünyanın 49 dilinə tərcümə olunub. Xatırladaq ki, yazıçı H.Mirələmov Qırğızıstan Yazıçılar İttifaqının, həmçinin Asya-Afrika ölkələri Yazıçılar Birliyinin üzvüdür.

Bu ilin sentyabr ayında Azərbaycan Yazıçılar Birliyində keçirilən dəyirmi masadan sonrakı və digər görüşlərdə Ulu öndərin xatirəsinə ehtiram əlaməti olaraq, bu kitabın tezliklə tərcümə olunması və oxuculara çatdırılması nəzərdə tutulmuşdur. Kitabın tərcüməsini Qırğızıstan Yazıçılar Birliyinin sədri Xanıbek İmanəliyev həyata keçirəcəkdir. O, vaxtı ilə rəhbər vəzifələrdə çalışmışdır və hazırda Qırğızıstan Yazıçılar Birliyinə rəhbərlik edir. Yazıçı Azərbaycan ədəbiyyatının öyrənilməsində, təbliğində, eyni zamanda qırğız dilinə tərcümə olunmasında böyük işlər görmüşdür.

Bu ilin aprel ayında Bakıda Qırğızıstan prezidentinin dövlət səfəri zamanı və sonra davam edən tədbirlərdə iki dövlətin elm, mədəniyyət xadimləri, yaradıcı ziyalıları qarşılıqlı əlaqələri geniş müzakirə etmiş, ortaq dəyərləri qorumaq və inkişaf etdirmək barədə razılığa gəlmişlər. Bunlardan biri də "Divanü lüğat-it-Türk" abidəsinin 950 illik yubiliyenin UNESCO səviyyəsində keçiriməsində yaxından iştirak etməkdir.

Çingiz Aytmatovun yaradıcılığı ilə yanaşı, Qırğız ədəbiyyatının digər nümunələri də Azərbaycan dilinə tərcümə olunub, yayılmaqdadır. Bütün bunlar Azərbaycan–Qırğızıstan əlaqələrinin daha da genişlənməsinə kömək edir. Azərbaycan ortaq Türk mədəniyyətlərinin formalaşmasında aparıcı rol oynayan türk dövlətlərindən biridir.

Çingiz Aytmatovun "XXI əsrin lider etalonu" adlandırırdığı Azərbaycan Prezidenti İlham Əliyevin səyləri ilə, onun tapşırıq və tövsiyələrinə uyğun olaraq Qırğızıstan–Azərbaycan əlaqələri bundan sonra da dinamik inkişaf edəcək və xalqlarımız arasındakı qardaşlıq münasibətləri gündən-günə möhkəmlənəcəkdir.

***İsrafil QURBANOV,***
***Rövşən AĞAYEV***

## Qərbi Azərbaycan İcmasında görüş



**Qərbi Azərbaycan İcmasında ABŞ-nin Dinlərarası Qonşuluq Şəbəkəsinin həmtəsisçisi, Qlobal Məsələlər İnstitutunun prezidenti və Texasdakı "Northwood" kilsəsinin baş pastoru Bob Roberts, Qlobal Məsələlər İnstitutunun vitse-prezidenti Ceyms Çen və İcma rəsmiləri arasında görüş keçirilib.**

QAİ-nin Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı bildirib ki, deportasiyalardan sonra Qərbi azərbaycanlıların doğma yurdlarında qalan zəngin maddi-mədəni irsi, o cümlədən, 300-dən çox məscid, saraylar, qala və karvansaralar, o cümlədən, 500-ə yaxın qəbiristanlıq da yerlə-yeksan edilib.

İcmanın Gənclər Şurasının sədr müavini, deputat Kamal Cəfərov qonaqlara məscid və məzarlıqların dağıdılmasının dini baxımdan da heç bir ölçüyə sığmadığını, Ermənistanın bu cür davranışlarına dərhal son verməsinin vacib olduğunu vurğulayıb.

Pastor Bob Roberts isə bildirib ki, Qərbi Azərbaycanla bağlı daha əvvəl Qərb mediasından eşitmiş olsa da, indi məsələnin əsl mahiyyəti ilə bağlı daha təfsilatlı və doğru məlumata malik oldu. Əvvəllər Qərbi Azərbaycan mövzusunu yalnız Qərb mediasından eşidib, lakin indi bu məsələnin əsl mahiyyətini daha təfsilatlı və doğru məlumatlarla öyrənmiş olub. O, Azərbaycandakı yüksək tolerantlıq səviyyəsini qeyd edərək, sülh və barışıq naminə bu modelin hər iki ölkədə tətbiq olunmasının vacibliyini vurğulayıb.

***XQ***

## Bakı Kənar Dairəvi yolunda təhlükə aradan qaldırılıb

**Bakı şəhəri, Səbail rayonu, Badamdar qəsəbəsi ərazisində qaya parçalarının Bakı Kənar Dairəvi yoluna doğru uçqun təhlükəsi aradan qaldırılıb.**

Fövqəladə Hallar Nazirliyindən XQ-yə bildirilib ki, aidiyyəti qurumlarla koordinasiyalı şəkildə həyata keçirilmiş təxirəsalınmaz tədbirlər nəticəsində uçqun riski olan qaya parçaları ərazidən götürülərək, yaranmış təhlükə aradan qaldırılıb və avtomobil yolunda nəqliyyat vasitələrinin təhlükəsiz hərəkəti bərpa olunub.

***XQ***



## Hərbi attaşelər Bakı Beynəlxalq Dəniz Limanında



**Xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş hərbi attaşeləri Bakı Beynəlxalq Dəniz Ticarət Limanını ziyarət ediblər.**

Müdafiə Nazirliyinin məlumatına görə, tədbirdə 12 ölkədən 15 hərbi attaşelik aparatının nümayəndəsi iştirak edib.

Ziyarətçilər üçün təşkil olunan brifinqdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tarixi, cari fəaliyyət istiqamətləri, əməkdaşlıq sahələri və perspektiv planları barədə məlumatlar verilib, qonaqları maraqlandıran suallar cavablandırılıb.

***XQ***

**Araik Arutyunyan. Yox, söhbət Bakıda həbxsana həyatı yaşayan Qarabağdakı keçmiş separatçı rejimin rəhbəri olmuş Araikdən getmir. Bu, Arutyunyan Ermənistan baş naziri aparatının rəhbəri olan Arutyunyandır və Azərbaycanla sülh prosesi ilə bağlı fikirlərini yerli jurnalistlərlə bölüşüb.**

A.Arutyunyan bildirib ki, rəsmi İrəvan rəsmi Bakı ilə dialoqun davam etdirilməsi baxımından bütün təmasları müsbət qiymətləndirir. Aparat rəhbəri Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla Kazanda BRICS Sammiti çərçivəsində keçirdiyi görüşün yekunlarını şərh edərkən belə deyib: “Biz proseslərin davam etdirilməsini və sülh müqaviləsinin imzalanmasını təmin etməkdə qərarlıyıq. Bu baxımdan belə təmaslar faydalıdır”.

A.Arutyunyan Kazan görüşünün irəliyə doğru atılmış addım olub-olmadığına dair suala cavab verməkdə çətinlik çəkib. O, eyni zamanda, deyib ki, Rusiyadakı müzakirələr həm təkbətək, həm də geniş formatda aparılıb, bunları yayılan fotoşəkillər də təsdiqləyir. Erməni tərəfi burada sülh müqaviləsinin indiyədək razılaşdırılmamış bütün bəndləri üzrə razılığa gəlmək imkanını görür. O, həmçinin bildirib ki, istənilən sülh müqaviləsi güzəştlər olduqda yaxşıdır. “Ancaq güzəştlərə gəlincə, onlardan danışmaq səmərəsizdir”, – deyən erməni rəsminin sözlərindən belə anlaşılıb ki, tərəflər, bir qayda olaraq, kompromislərə maraqlı olmurlar.

Göründüyü kimi, A.Arutyunyan prosesə sırf nəzəri baxımdan qiymət verir. Sanki hər şeydən danışır, amma heç nə demir. Aparat rəhbəri onu da bildirib ki, hazırda sülh sazişinin redaktə edilmiş versiyaları tərəflərdədir və yeni düzəlişlər olanda variantlar tapılacaq, fikir mübadiləsi aparılacaq və görüşə ehtiyac olarsa, bu, baş tutacaq. O, sülh müqaviləsi çərçivəsində ciddi irəliləyişin olduğunu da diqqətə çatdırıb. Ancaq söhbət hansı irəliləyişlərdən gedir, məsələnin təfərrüatlarına varmayıb.

Ermənistan rəhbərliyinin mövqeyi budur ki, Bakı – İrəvan sülh sazişi üzrə razılaşdırılmış bəndlər əsasında sülh müqaviləsi imzalansın, razılaşdırılmayan məsələlərin həlli isə sonraya saxlanılsın. Ölkəmiz isə bunu məqbul saymır. Prezident İlham Əliyev oktyabrın 14-də Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Julyen de Freponun etimadnaməsini qəbul edərkən deyib ki, indiki şəraitdə diqqət daha çox ikitərəfli danışıqlar müstəvisinə cəmlənib. Dövlətimizin başçısının səsləndirdiyi ən mühüm mesaj isə budur: Sülh müqaviləsinin bütün bəndləri eyni dəyərə malikdir, birini digərindən ayırmaq olmaz. Prezident İlham Əliyev Ermənistan hökumətinin “bu vaxtadək nə barədə razılaşdırılıbsa, ona imza atılsın, razılaşdırılmamış müddəalar növbəti mərhələlərə saxlanılsın” qəribə təklifini tamamilə reallıqdan kənar hesab etdiyini bildirib və bu cür yanaşma presedentinin ona məlum olmadığını vurğulayıb.

Maraqlı məqam odur ki, ABŞ başda olmaqla, kollektiv Qərbin yaratdığı görüntü Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin tezliklə imzalanması ilə bağlı olsa da, prosesə qüsurlu münasibət var. Çünki bir sıra konseptual məqamların üzərindən keçilir, onlar nəzərə alınmır. Belə yanaşma, eyni zamanda, İrəvanın üzərinə götürdüyü öhdəliklərin icrasından yayınmasına dəstəkdir.

Qərb sülh müqaviləsinin ancaq regional əməkdaşlıq üçün geniş imkanlar yaradacağı ideyasını tirajlayır. ABŞ Prezidentinin xüsusi köməkçisi və Milli Təhlükəsizlik Şurasının Avropa üzrə baş direktoru Maykl Karpenter də bu fikirdədir. O, oktyabrın 21-də Bakıda Prezident İlham Əliyev tərəfindən qəbul edilərkən ABŞ Dövlət Departamenti rəhbərinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynın bir müddət əvvəlki fikirləri üzərində dayanıb.

Yeri gəlmişkən, C.O'Brayn Bakı – İrəvan sülh sazişinə dair xeyli təfərrüatlı danışaraq, konkret konturları sadalamış və Cənubi Qafqazın qlobal kommunikasiya xəttinin mərkəzinə çevrilməsi perspektivini qabartmışdı. Ən əsası isə o, ölkəsinin başlıca məqsədinin regionun Rusiyadan asılılığını aradan qaldırmaq olduğunu dilə gətirmişdi. Nəticədə belə qənaət hasil olmuşdu ki, ABŞ Azərbaycan – Ermənistan sülh sazişini geosiyasi rəqabət kontekstində təsəvvürə gətirir. Bu yanaşmanın isə təhlükəli olduğunun sübuta ehtiyacı yoxdur və Azərbaycan hadisələrin bu səmtə doğru inkişafına razı olmayacaq. Çünki Bakı özünün balanslı siyasət xəttinə sadiqdir və region ölkələri ilə bölgədə tarixi maraqları olan dövlətlərin mənafelərinin uzlaşdırılması ritorikasını rəhbər tutur. Azərbaycan heç bir kənar dövlətə qarşı plasdarm olmayıb və olmayacaq. Bu mənada sülh müqaviləsinin də tam səmimiyyətə əsaslanması şərtdir.

Ermənistan rəhbərliyi isə səmimi deyil və mövqeyini, az qala, hər addımında nümayiş etdirməkdədir. Prezident İlham Əliyev də ABŞ rəsmisi M.Karpenterin diqqətinə, faktiki olaraq, məhz bunu çatdırıb. Dövlətimizin başçısının vurğuladığı kimi, Ermənistan sülh müqaviləsinin mətni üzrə son təkliflərini 70 gündən sonra göndərirsə, deməli, ölkənin real məqsədi sülh deyil, imitasiyadır. Hazırda A.Arutyunyanın, bir növ, ehtiyatlı diplomatik tonu da onu deməyə əsas verir ki, rəsmi İrəvan hər an sülh sazişi ilə bağlı hansısa məqamda, indiyədək əldə edilmiş razılaşmaları pozmaq potensialındadır.

Bəli, Qərb Azərbaycanla Ermənistan arasında barış müqaviləsinin yarımçıq şəkildə, prinsipial məqamlara aydınlıq gətirilmədən imzalanmasına səy göstərir. Bu, İrəvana sərfəlidir. Birincisi, səs-küylü natamam sülh sazişi ona gələcəkdə spekulyasiyalarını və təxribatlarını davam etdirmək üçün vacibdir. Azərbaycanın ehtimal edilən adekvat cavab tədbirləri görsə, bu, işğalçılıq kimi qiymətləndiriləcək. Hazırda Ermənistan və havadarları suverenliyimizin tam bərpasını, Qarabağı geri qaytarmağımızı təzavüz qismində qiymətləndirirlərsə, Avropa Parlamentində və digər qurumlarda bunun vurğulandığı qətnamələrin, bəyanatların qəbuluna çalışırlarla, deməli, onlardan hər şey gözləmək mümkündür. Elə A.Arutyunyanın mövqeyi də bunu deyir.

# Paşinyanın aparat rəhbəri hər şeydən danışır, amma heç nə demir





***R.ƏVƏZ***
***XQ***

# İrəvan “3+3”də həm var, həm də yox...

## *Ermənistan hakimiyyəti danışıqlar prosesini özünə sərfəli dalana dirəmək niyyətindən əl çəkmir*



**Avantürizm və populizm. Ermənistan baş naziri nüfuzlu beynəlxalq təşkilatların tribunalarından, guya, Azərbaycanla sülhə hazır olması barədə bəyanatlar səsləndirməsinə baxmayaraq, reallıqda bunun tam əksini nümayiş etdirir. Nikol Paşinyan və onun komandası beynəlxalq ictimaiyyəti özünün “sülh sevdası”nın cazibəsinə salmaq cəhdlərindən hələ də əl çəkmir.**

Hayların baş nazırı Kazanda BRICS-in XVI Sammitində çıxışı zamanı bir daha bəyan etdi ki, İrəvan və Bakı sülh sazişinin mətnini 80 faiz razılaşdırıblar. O, hətta bu ay sülhə imza atmağa hazır olduğunu deməkdən də çəkinmədi: “Biz təklif edirik ki, Azərbaycan artıq razılaşdırılmış mətni imzalasın və beləliklə, təkcə “de-fakto” deyil, həm də “de-yure” sülh əldə edilsin və bütün digər məsələlər üzərində işləməyə davam edək. Regionda sülh şəraitində digər məsələlərin həlli də xeyli asanlaşacaq”.

Paşinyanın ifasında belə “bayatıları” birinci dəfə deyil eşidirk. İrəvanın ikiüzlü və populist siyasətini nəzərə alsaq, hayların baş nazirinin belə “şirin” təkliflərinin Bakıda xoş bir reaksiya yaratmadığını deyə bilərik. Axı, İrəvanda Bakının sülh müqaviləsi üzrə təklif olunan sxemlə razılaşmayacağını yaxşı anlayırlar. Onlar məhz bu amildən yararlanaraq, danışıqlar prosesini özünə sərfəli dalana dirəmək üçün israrla “təkliflərini” təkrarlayırlar. Burada təəccüblü bir şey yoxdur. Məgər Azərbaycan ərazilərini otuz il işğalda saxlayan, ən müxtəlif üsullarla sülh danışıqlarını “minalamaq” üçün bütün səylərini əsirgəməyən Ermənistan tərəfi deyildimi?

Göründüyü kimi, İrəvanın yaxın keçmişə söykənən riyakar və ikibaşlı diplomatik taktikası o qədər də dəyişikliyə uğramayıb. Bunun bariz nümunəsinə diqqət yetirək. Ermənistan Azərbaycanla danışıqlar platforması kimi regional “3+3” formatında iştirakdan qəti şəkildə imtina edib. Oxuculara xatırladaq ki, bu yaxınlarda Rusiyanın Xarici işlər naziri Sergey Lavrov “3+3” platformasında növbəti toplantıdan sonra sülh müqaviləsi üzərində işi başa çatdırmaq üçün bu formatdan istifadənin səmərəliliyini ayrıca qeyd etmişdi: “Həm biz, həm türklər, həm də iranlılar İrəvandakı və Bakıdakı həmkarlarımıza sülh müqaviləsi üzərində işi başa çatdırmaq üçün “3+3” platformasından istifadə etməyi təklif etmişdik”.

Gözlənildiyi kimi, Ermənistan bu təklifə qəti imtina ilə cavab verdi. “Danışıqlar masasında belə bir təklif yoxdur. Əgər olsa belə, biz buna müsbət cavab verməyi məqsədəuyğun hesab etmirik. Çünki bizim Azərbaycanla həm sülh müqaviləsi, həm də delimitasiya üzrə ikitərəfli danışıqlar formatımız var”, – deyə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan bildirib. Elə bu fakta əsaslanaraq deyə bilərik ki, erməni tərəfi sülhdən danışmağa üstünlük verir, amma ona nail olamaq üçün konkret addımlar atmır.

İrəvanın qərbli kuratorlarını nəzərə alsaq, sonuncuların “3+3” regional formatda istənilən təşəbbüsləri rədd etməkdə, bəzi zəmanətlərini təkrarlamaqda, bununla da sülh gündəmini “torpedalamaqda” davam edəcəklərini proqnozlaşdırmaq çətin deyil. Amma onlara xatırlatmağa ehtiyac var ki, Azərbaycanın heç bir kənar zaminə ehtiyacı yoxdur. Bakı sülh danışıqlarını ikitərəfli formatda davam etdirməyin tərəfdarıdır. İkincisi, sülh müqaviləsinin əsas şərti Ermənistanın konstitusiyasını dəyişdirməsi və ondan Azərbaycana qarşı ərazi iddiaları müddəalarını çıxarmasıdır. Bu şərt yerinə yetirilməyənə qədər sülh müqaviləsi imzalanmayacaq. Rəsmi Bakı bunu ən yüksək səviyyədə bəyan edib.

Bakı İrəvana bundan fərqli variant təklif etməyəcək. Yəni bu o deməkdir ki, Ermənistan gec-tez Azərbaycanın şərtlərini qəbul etməli olacaq. Bu, nə qədər tez baş versə, onun özü üçün faydalı olar. Amma reallıq onu deməyə əsas verir ki, İrəvan Qərblə Şərq arasında “ikicəbhəli” oyunlarını, diplomatik, ideoloji fırıldaqlarını davam etdirdiyinə görə, onun tezliklə ağıllanacağını gözləməyə dəyməz...

Cənubi Qafqazda sülh, təhlükəsizlik, əməkdaşlıq həm də regionda marağı olan başqa güclərin də mənafeyinə zidd deyil. Doğrudur, Azərbaycan və Türkiyə istisna olmaqla, “3+3” formatının digər iştirakçıları heç də eyni mövqeni təmsil etmirlər. Ancaq beynəlxalq arenadakı mövcud vəziyyət tərəflərin müzakirələr aparmasını zəruri edir. Odur ki, bu platformada görüşlərdən qaçmaq, ona qıcıqlanmaq Cənubi Qafqazda sabitliyə, əməkdaşlığa, təhlükəsizliyə yalnız ziyan vurar.

P.S. “İrəvan və Bakı sülh sazişi layihəsinin qalan bəndlərini razılaşdıra biləcəklər”. Bu barədə Ermənistan hökumətinin aparat rəhbəri Araik Arutyunyan dünən parlamentdə keçirdiyi brifinqdə bildirib. “Ermənistanın baş naziri Nikol Paşinyan və Azərbaycan Prezidenti İlham Əliyevin təmasları faydalıdır. Biz hələ razılaşdırılmamış bəndlərin razılaşdırılması imkanını görürük”, – deyə, o vurğulayıb.

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyləri

**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq:**



– Bakının irəli sürdüyü “3+3” platforması ideyası bir məqsədə və xoş niyyətə xidmət edir: bölgə dövlətləri arasında müəyyən razılığın əldə edilməsi, sabitliyə aparacaq qərarların qəbul olunması və xüsusilə də mövcud problemlərin həlli yollarının birgə axtarıb tapılması bu formatın əsas prioritetləridir. Hələlik bu platformadan kənarda qalmış Gürcüstanı başa düşürük. Onun Rusiya ilə münasibətləri tənzimləməyə ehtiyacı var. Güman edirəm ki, Tbilisi də bu formata qatılacaq.

Qərbin müəyyən dairələrinin Ermənistana təsir etdiklərini, konkret təlimatlar verdiklərini bilirik. Bu, o deməkdir ki, həmin qüvvələr Cənubi Qafqazda sabitliyin bərqərar olmasının tərəfdarı deyil, bölgədə möhkəm sülhün əldə edilməsinə qarşıdırlar. Əgər onlar Azərbaycan, İran, Türkiyə və Rusiya ilə münasibətləri indiki səviyyədə saxlamağa çalışırlarsa, deməli, açıq-aşkar gərginliyin tərəfdarıdırlar. Onların atdıqları siyasi addımlar həm şübhə, həm də təəccüb doğurur. İrəvanın bir tərəfdən Avropa İttifaqına daxil olacağı barədə bəyanatları, digər tərəfdən Rusiya ilə hərbi-texniki əməkdaşlığı davam etdirməsi, KTMT-dən çıxmaması, bununla paralel olaraq Türkiyə ilə danışıqlar aparması maraqlı suallara yol açır. Əlbəttə ki, Ermənistanın “3+3” formatına bu cür yanaşması onun xarici siyasət prioritetlərinin hələ də cızılmadığının, yaxud əməkdaşlıqdan düşünülmüş şəkildə imtina etməsinin göstəricisidir.

Bütün hallarda İrəvan region ölkələrini və onların maraqlarını yaddan çıxarmamalıdır. Ona məsləhət verənlər, yönəldənlər isə başqa bölgədə, uzaq coğrafiyada yerləşirlər. Kənar təlimatlarla hərəkət etmək isə heç vaxt müsbət nəticə verməyib.

**Elxan ŞAHİNOĞLU,**
**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı:**



– “3+3” Cənubi Qafqaz ölkələri və üç qonşu dövlət arasında əməkdaşlığı nəzərdə tutan formatdır. Bu format çərçivəsində ildə bir və ya iki dəfə keçirilən görüşləri faydalı saymaq olar. Cənubi Qafqazda sülh və əməkdaşlıq məsələlərində, ilk növbədə, bölgə ölkələri özləri maraqlı olmalıdırlar. Məlum səbəblərə görə Gürcüstan bu görüşlərə qatılmır. Çünki Abxaziya və Osetiya Rusiyanın nəzarəti altındadır. Bunu başa düşmək mümkündür. Ermənistan həmin görüşlərdə iştirak edir. Baxmayaraq ki, orada bəziləri bu formata tənqidi yanaşır. Misal üçün, erməni spiker Alen Simonyan bu formatın əhəmiyyətini anlamadığını bildirib. Amma İrəvan görüşlərdə iştirakdan imtina etmir. Ona görə ki, bu formatdan imtina Ermənistanın üç qonşu ölkə ilə əməkdaşlıqda maraqlı olmadığı qənaətini yarada bilər. Axı, onun İranla sıx əlaqələri var, hələ də Rusiyanın təsiri altındadır. Paşinyanın sözlərinə görə, ölkəsi Türkiyə ilə əməkdaşlığa başlamaq istəyir.

Sülh sazişi ilə bağlı danışıqlarda qonşu dövlətlərin iştirakı fərqli təklifdir. Faktiki olaraq, İrəvan və Bakı arasında vasitəçisiz, birbaşa danışıqlar aparılır. Bəli, biz çox istərdik ki, Türkiyə bu posesdə vasitəçi olsun, amma Ermənistan bunu qəbul etməz. İranın vasitəçiliyi bizim üçün məqbul deyil. Rusiyanın isə Cənubi Qafqazda özəl maraqları olduğunu hamı bilir. Bizə görə, ən uğurlu və faydalı yol birbaşa danışıqlardır. Bu proses davam edir. BRICS-in Kazan toplantısında Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan üzbəüz əyləşib fikir mübadiləsi apardılar. Ortaq qərar birbaşa danışıqların davam etdirilməsi barədə oldu.

Bu baxımdan, tərəflər “3+3” formatının sülhün əldə olunmasında vasitəçi rolunda çıxış etməsinə ehtiyac duymurlar. Əlbəttə ki, Ermənistanla Azərbaycan arasında imzalanacaq sülh müqaviləsi qonşu ölkələrin də maraqlarına cavab verməlidir. Çünki ondan sonra əməkdaşlıq və birgə layihələrin reallaşması prosesi gəlir.

**Tofiq ABBASOV,**
**siyasi şərhçi:**



– İrəvan hazırda olduqca anormal mövqe nümayiş etdirir. O, sülhü həm istəyir, həm də istəmir. Bundan ötrü həm çalışır, həm də çalışmır. Dünən verdiyi bəyanatı bu gün təkzib edir. Bir növ qeyri-sabit əqli duruma malik şəxs, qrup kimi davranır. Yəni bir yandan qurur, o biri yandan vurub dağıdır. Ermənistan həmin bipolyar sindromun əsirinə çevrilib. Bəli, İrəvan sözdə sülhdən çox danışır, amma əməldə buna tərs mütənasib formada hərəkət edir. Hayların silahlandığını, Fransanın, ABŞ-nin, Hindistanın fitvasına getdiklərini görürük. Qonşumuzu, onun arxasında duran qüvvələri yaxşı tanıyırıq, niyyətlərindən də xəbərdarıq.

O ki qaldı “3+3” formatına, rasional düşüncəyə malik siyasətçilər xırda bir təsadüfdən belə yararlanaraq, dolaşıq məsələlərlə bağlı tərəf müqabilləri ilə müzakirə aparmağa çalışırlar. Amma Ermənistanın timsalında bunun əksini görürük. Ortada platforma var, görüşlər keçirilir, fəqət, baş nazir, xarici işlər nazırı həmin formatda danışıqlardan yayınırlar. Bu, ona dəlalət edir ki, onlar müstəqil siyasət yürütmək səlahiyyətinə malik deyillər. Əgər Ermənistan, doğrudan da, müstəqil dövlət olsaydı çoxdan Azərbaycanla razılığa gəlmişdi. Yüyənləri başqalarının əlindədir. Hesab edirəm ki, biz hələ “3+3” formatının kulminasiya nöqtəsinə çatmamışıq. Ən yaxın zamanlarda bunun şahidi olacağıq. Bu formatdan imtina etmək sadəlövhlükdür. “3+3” bölgənin altı ölkəsinin mövcud problemləri öz aralarında məşvərət yolu həllini nəzərdə tutur. Gürcüstanda vəziyyət tam sabitləşəndən sonra bu formatın tam gücü ilə işləyəcəyinə əminəm. Tbilisinin də bu görüşlərə qatılması zaman məsələsidir. İrəvan isə bu faydalı, perspektivli ideyaya nə hə deyir, nə də yox. Ona Qərbdən Rusiyanın bu platformada moderatorluğuna mane olmaq təlimatları verilir. Uğursuz manevrlər fayda verməyəcək, sonda İrəvan Bakının şərtləri ilə sülhə gəlməyə məcbur olacaq.

# “Vaşinqton Post” reytinqini nəyin naminə itirir?

## *Hikmət Hacıyevin maraqlı müqayisəsi*



**“Dünya ağla qaranı yaxşı ayırd edir. Çirkin təbliğat dünyada yalnız ikrah və inamsızlıq yaradır”. Bu barədə Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün “X” platformasında milyarder Ceff Bezosun “Vaşinqton Post“ qəzetində dərc edilmiş məqaləsinə münasibət bildirərkən qeyd edib.**

ABŞ-dəki erməni lobbisinin sifarişlərini yerinə yetirən bəzi media qurumları son vaxtlar anti-Azərbaycan fəaliyyətlərinə yeni nəfəs veriblər. Prezidentin köməkçisi, xüsusilə COP29 ərəfəsində Azərbaycana qarşı “Vaşinqton Post“ və Konqresin müəyyən üzvləri tərəfindən çirkin təbliğat kampaniyasının aparıldığını, Ceff Bezosun məqaləsinin bu cür media orqanlarına etimadın qalmadığını üzə çıxardığını qeyd edib.

Hikmət Hacıyev bildirib ki, mən xüsusilə COP29 ərəfəsində Azərbaycana qarşı çirkin təbliğat kampaniyası aparan “Vaşinqton Post”un, eləcə də Konqres nümayəndələrinin diqqətini Ceff Bezosun oxucuların media orqanlarına etibar səviyyəsinin nə qədər aşağı düşdüyünü əks etdirən məqaləsinə cəlb etmək istərdim.

Qeyd edək ki, Bezos sahibi olduğu “Vaşinqton Post” və digər media orqanlarının timsalında göstərir ki, illik ictimai etimad və reputasiya sorğularında media qurumları və jurnalistlər müntəzəm şəkildə, demək olar ki, ən aşağı reytinqdə, çox vaxt Konqresdən bir qədər yuxarıda olurlar.

Lakin “Gallup” təşkilatının sorğusuna əsasən, bu il biz daha aşağıya, hətta Konqresdən də aşağı səviyyəyə düşməyi bacarmışıq. Bizim peşəmiz indi ən az inam və etibara malik peşədir”, – deyən C.Bezos sözlərinə onu da əlavə edib ki, etibardan düşən təkcə ona məxsus olan “Vaşinqton Post” deyil: “Vaşinqton Post” və “Nyu York Tayms” mükafatlar alırlar, intəhası biz getdikcə yalnız müəyyən elita ilə ünsiyyətdə oluruq, daha çox özümüz özümüzlə danışırıq”.

Prezidentin köməkçisi deyib: “Mən həmişə Azərbaycana qarşı çirkin təbliğat kampaniyası aparan “Vaşinqton Post” qəzetinin və bəzi Konqres rəsmilərinin diqqətini Ceff Bezosun bu məqaləsinə cəlb etmək istərdim. Milyarder Ceff Bezosun ABŞ mətbuatının vəziyyətinə reaksiyası bu ölkədə mediaya etimadın nə qədər azaldığını bir daha nümayiş etdirir”. Onun sözlərinə görə, C.Bezosun məqaləsi problemlərə milli səviyyədə toxunur, qlobal miqyasda isə etimad daha da aşağıdır.

H.Hacıyev daha sonra üzünü Qərbin muzdlu mirzələrinə tutaraq yazır: “Vaşinqton Post”dakı “yoldaşlar”! Sizin üslubunuz və iş metodologiyanız mənə SSRİ-nin son dönəmindəki “Komsomolskaya pravda”nı xatırladır”.

***XQ***

# Muxtar Babayevin Kolumbiya XİN başçısı ilə görüşü

**COP29-un müəyyən edilmiş prezidenti, Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev Kolumbiyanın Xarici İşlər naziri Luis Gilberto Murillo ilə görüşüb.**




Bu barədə COP29-un "X" sosial şəbəkəsindəki rəsmi səhifəsində məlumat verilib: “COP16 çərçivəsində Muxtar Babayev və Gilberto Murillo arasında baş tutan görüşdə iqlimə davamlılığın təmin edilməsi üçün qlobal tərəfdaşlığın gücləndirilməsi məsələləri müzakirə olunub.

Kolumbiya COP16-nın ev sahibi kimi ölkələri “təbiətlə sülh”ə nail olmaq və planetimizin gələcəyini qorumaq üçün biomüxtəlifliyin qorunub saxlanılması ilə bağlı öz milli strategiyaları və fəaliyyət planları ətrafında birləşdirməkdə əsas rol oynayır”.

# Astanada Türk Akademiyasının kitab təqdimatı



**Astanadakı Qumilyov adına Avrasiya Milli Universitetində Türk Akademiyasının (TA) nəşr etdirdiyi kitabların təqdimatı olub.**

Tədbirdə TA-nın vitse-prezidenti Asxat Kesikbayev, Azərbaycan, Qırğızıstan və Türkmənistanın bu ölkədəki səfirləri Ağalar Atamoğlanov, Dastan Dyuşekeyev, Batır Rəcəbov, Türkiyə və digər ölkələrin diplomatları, alimlər, mədəniyyət xadimləri iştirak ediblər.

Təqdim olunan əsərlər arasında Krım tatarlarının şairi Bəkir Çobanzadənin qazax dilinə ilk dəfə tərcümə olunan “Tiltutka” adlı seçilmiş əsərlərindən ibarət topluya xüsusi diqqət yetirilib. Kitabda müəllifin türkologiya sahəsində əhəmiyyətli olan tədqiqatları yer alıb.

Tədbirdə “Türk dillərinin terminoloji lüğətləri”nin yaradılması layihəsi də təqdim olunub. Kitab iqtisadiyyat, tibb və hərbi sahələri əhatə edir.

Nəşrlər arasında Əhməd Buranın böyük türkmən şairi Məhtimquli Fəraqinin 300 illik yubileyinə həsr olunmuş “Məhtumquli” monoqrafiyası və Azərbaycan alimi Azər Turanın türk dünyasının görkəmli simalarından biri olan “Əli bəy Hüseynzadə” kitabı vardır.

Şairlər Məhəmməd Hüseyn Şəhriyar və Bulud Qaraçorlu Səhədin yaradıcılığının yer aldığı “Özləm tərənnümləri” adlı Azərbaycan poeziya toplusu marağa səbəb olub.

Asxat Kesikbayev çıxışında TA-nın prezidenti Şahin Mustafayevin təbrikini çatdıraraq qeyd edib ki, akademiyanın hər bir yeni nəşri təkcə elmi iş deyil, həm də elmin möhkəmləndirilməsinə mühüm töhfədir.

Tədbir iştirakçıları Türk Akademiyasına türk xalqlarının mədəni irsinin qorunub saxlanması və inkişafına verdiyi mühüm töhfəyə görə minnətdarlıqlarını bildirib, belə nəşrlərin vahid elmi məkanın yaradılmasına səbəb olduğunu və türk dövlətləri arasında bilik mübadiləsi imkanlarını genişləndirdiyini vurğulayıblar.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

Astana

# Adımı sənə qoyum...

**(əvvəli 1-ci səhifədə)**

Bu məqalələrdə, bir qayda olaraq, ölkəmiz hədəfə alınır, onun dünyanın üzləşdiyi qlobal çağırışların, o cümlədən ekoloji problemlərin aradan qaldırılması sahəsindəki xidmətləri danılır, yanlış fikirlər əsasında dünya ictimaiyyətinin çaşdırılmasına cəhdlər edilir. Daha bir yalan isə 2023-cü ilin sentyabrında erməni əhalinin Qarabağın dağlıq hissəsindən könüllü şəkildə çıxıb getməsinin “etnik təmizləmə” kimi qələmə verilməsi ilə bağlıdır. Halbuki, erməni əhali Birinci və İkinci Qarabağ müharibəsində törətdikləri əməllərə görə cavab verməkdən qorxurdular. Hərçənd ki, ədalət mühakiməsi yalnız sülh və insanlıq əleyhinə cinayət törədənləri gözləyirdi. Eyni zamanda, ermənilər Azərbaycanın qayda-qanunlarını qəbul etmək istəmədikləri üçün Ermənistana çıxıb getdilər.

Azərbaycan tərəfi bu qərəzli yazılara özünün etiraz səsini həm media orqanları, həm vətəndaş cəmiyyəti nümayəndələri, həm də dövlət qurumları səviyyəsində dəfələrlə ucaldıb. ABŞ-nin “Vaşinqton Post”, “Nyu-York Tayms”, “Politico”, Fransanın “Fiqaro”, “Le Monde” qəzetləri, həmçinin bir sıra digər media orqanları ölkəmizə qarşı qarayaxma kampaniyasının önündə gedirlər. Prezident İlham Əliyev hələ 2024-cü il iyulun 20-də “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda II Şuşa Qlobal Media Forumunun açılış mərasimindəki çıxışında demişdi: “Təəssüf ki, bu, bizim artıq həyat tərzimizin bir hissəsinə çevrilib. Bəzən biz təəccüblənirik ki, Azərbaycan haqqında beynəlxalq mediada yayılan məlumatlar həqiqətə uyğun olmur – yəni, faktların manipulyasiyası, yanlış narrativlər. Biz uzun illər ərzində bunun qurbanı olmuşuq, əlbəttə ki, onlardan biri Ermənistan və Azərbaycan arasındakı münaqişə idi və bütün erməni diasporunun səfərbər olması idi. Ermənipərəst siyasətçilər, media nümayəndələri Azərbaycana qarşı hücum edirdilər, Azərbaycan haqqında yanlış narrativlər yayırdılar və Azərbaycanı reallıqdan çox uzaq olan bir şəkildə təqdim edirdilər. Mən xatırlayıram ki, müxtəlif xarici qonaqlarla görüşlərimdə, səmimi söhbətlərdə, mütləq hallarda mənə ötürülən mesaj olur ki, biz Azərbaycanın bu dərəcədə inkişaf etmiş ölkə olduğunu gözləmirdik və ona görə də bu narrativlər çox zərərvericidir. Bu, təkcə ölkənin nüfuzunu ləkələmir. Bu, ölkənin biznes potensialını, sərmayə imkanlarını azaldır. Bu, beynəlxalq ictimaiyyətin əsas məsələlərdən diqqətini yayındırır və tamamilə qeyri-realist ssenarilər üzərinə yönəldir”.

Bu kontekstdə qeyd etmək yerinə düşər ki, Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “X” platformasında Ceff Bezosun “Vaşinqton Post”da dərc edilmiş məqaləsinə münasibət bildirib.

Ermənistanla Azərbaycan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsinin imzalanması üçün danışıqların aparılmasına baxmayaraq xaricdəki – əsasən ABŞ və Fransadakı ermənilər ölkəmizə qarşı bir an da olsun dayanmırlar. Onlar Azərbaycanın imicini



ləkələmək üçün əllərindən gələni əsirgəmirlər. Bugünlərdə ABŞ-dəki “Responsible Statecraft” nəşrində dərc olunan “Azərbaycan lobbiçilərin ABŞ qanunlarını pozaraq onunla işləməsini istəyir” sərlövhəli məqalə də bu qəbildəndir. Qeyd edilib ki, ABŞ Ədliyyə Nazirliyi may ayında Texas ştatından olan konqresmen Henri Kuelyar və onun həyat yoldaşı İmelda Kuelyarı rüşvət almaqda və Azərbaycan üçün qeydiyyatdan keçməmiş xarici agent kimi fəaliyyət göstərməkdə ittiham edib. Bildirilib ki, konqresmen digər şeylərlə yanaşı, “Dağlıq Qarabağdakı erməniləri dəstəkləmək səylərinin qarşısını almaq və Azərbaycan nümayəndələrinə Birləşmiş Ştatlar hökumətinə lobbiçilik etmək səyləri barədə məsləhət vermək” müqabilində Azərbaycanın nəzarətində olan şirkətlərdən (?) ən azı 360 min dollar alıb.

Kuelyarın ittiham olunmasına baxmayaraq, guya, Azərbaycan hələ də xarici təsir qanunu olan Xarici Agentlərin Qeydiyyatı Aktından (FARA) yan keçməyə çalışır. Bu akt lobbiçilərin qeydiyyatdan keçməsini və xarici agentlərin xeyrinə gördükləri işlərini açıqlamasını tələb edir.

“Politico” nəşri isə daha əvvəl iddia etmişdi ki, Azərbaycanı təmsil edən şəxslər, guya, bu yaxınlarda Vaşinqtondakı lobbiçilərdən FARA çərçivəsində qeydiyyatdan keçmədən işləmək fikrində olub-olmadığını soruşublarmış: “Dost və ya düşmən, heç bir ölkə qanundan üstün deyil. İsrail hökuməti də FARA-ya tabe olmaqdan yayınmağa çalışır. İsrail Ədliyyə Nazirliyinin hüquqi strategiya memorandumu, rəsmi şəxslərin FARA-nın ABŞ-də Tel-Əvivi tənqid edənlərə qarşı yönəlmiş 8,6 milyon dollarlıq piar kampaniyasını açıqlamasının qarşısını almağın yollarını müzakirə etdiyini ortaya qoyub. Memorandumda bildirilir ki, qeydiyyatın aparılması İsraildən maliyyə və təlimat alan bir neçə ABŞ qrupunun reputasiyasına xələl gətirəcək və onları şəffaflıq tələblərini yerinə yetirməyə məcbur edəcək”.

Guya, ötən ilin avqustunda Bakı Qarabağda etnik təmizləmə ittihamlarına qarşı Azərbaycanın mövqeyini müdafiə edən hesabat dərc etmək üçün beynəlxalq hüquq eksperti Rodni Diksonla əlaqə yaradıb. Dikson hesabatı ABŞ mediasında təbliğ edib və “Friedlander Group”un baş direktoru Ezra Fridlenderin rəhbərliyi altında 6 ABŞ nümayəndəsi və onlarca Konqres əməkdaşı ilə görüşüb. İddia edilib ki, onların heç biri xarici agent kimi qeydiyyatdan keçməyib: “Bəzi firmalar federal qanunlardan yan keçmək üçün təzyiqləri əsas gətirərək Azərbaycanla işləməkdən imtina etsələr də, digərləri neftlə zəngin Qafqaz ölkəsindən çeklər almaq üçün növbəyə dururlar. İyun ayında Azərbaycanın maraqlarını təmsil etmək üçün daha iki firma qeydiyyatdan keçib”.

Qeyd edək ki, ABŞ Konqresində ən çox lobbiçiyə malik olan erməni xalqıdır. Onlar uzun illərdir ki, bu işlə məşğul olurlar. Nəticədə ABŞ qanunverici orqanının hər iki palatasında, yəni həm Senatda, həm də Nümayəndələr Palatasında hələ 1992-ci ildə Azadlığa dəstək Aktına 907-ci düzəlişi qəbul etməyə nail olublar. Erməni lobbisinin təşəbbüsü ilə qəbul edilmiş bu qadağa Azərbaycanı iqtisadi və siyasi sabitliyi asanlaşdırmaq üçün ABŞ hökumətindən birbaşa yardım almayan yeganə postsovet ölkəsinə çevirib. İndi isə onlar öz gözlərində tiri görməyərək, özgə gözündə tük axtarırlar. Öz əməllərini bizim adımıza çıxırlar. Belə yerdə “Adımı sənə qoyum, səni də yana-yana” atalar sözü yada düşür.

Mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşən **Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri, politoloq Zaur Məmmədov** bildirdi ki, əslində, burada söhbət Azərbaycana yaxın, yaxud ölkəmizlə işləmək istəyən şəxslərin təqsirləndirilməsindən, onların şantaj olunmasından və ləkələnməsindən gedir. Onun sözlərinə görə, biz ABŞ-də lobbi təşkilatlarının olduğunu, onların tamamilə leqal, qanuni fəaliyyət göstərdiyini bilirik: “Lobbi təşkilatlara sifariş verənlər maraq qrupu adlanır. Bu maraq qrupu dövlət, iqtisadi təşkilat, yəni firma, kompaniya və sair ola bilər. Lobbi təşkilatları bu və ya digər şəkildə fəaliyyət göstərir, konqresmenlərlə, senatorlarla münasibət qururlar. Elə ermənilər də bir sıra lobbi təşkilatlarından istifadə edirlər. Əgər onlar kimlərisə federal qanunları pozmaqda, yaxud



korrupsiyada ittiham etmək istəyirlərsə, o zaman elə ilk növbədə ermənilər üçün işləyən şəxsləri ittiham etməlidirlər.

Bilirsiniz ki, ermənilər üçün işləyən senator Robert Menendes bu yaxınlarda yol verdiyi qanunsuzluqlarla bağlı məhkəmə önünə çıxarıldı. Onlar bunu unutmamalıdırlar. Ola bilsin ki, bu, bəzi media orqanlarında işıqlandırılsın, bəzilərində işıqlandırılmasın. Amma Azərbaycanla bağlı yayılmış bu material siyasi sifarişdir. Bu sifarişin arxasında elə erməni lobbisi dayanır. Çünki onlar müəyyən çətinliklərlə üzləşiblər və bu çətinliklərdən yaxa qurtarmaq üçün Azərbaycana hücumlar edirlər”.

Politoloq qeyd etdi ki, bu gün ABŞ qanunverici orqanında Azərbaycana olan bütün hücumların, təzyiqlərin, Qarabağ ermənilərinin, guya, etnik təmizləməyə məruz qalması iddiasının arxasında bilavasitə ermənilər və onların maraqları dayanır.

Z.Məmmədovun fikrincə, “Responsible Statecraft” nəşrinin məqaləsində İsrailin adının çəkilməsi də təsadüfi deyil. Çünki Amerikadakı yəhudi lobbisi də erməni diaspor və lobbisinə kifayət qədər ciddi şəkildə mane olur: “Buna görə də onlar həm Azərbaycan, həm də İsrail kimi dövlətləri ləkələmək, bu dövlətlərin hansısa şəxslərini qanundankənar, qanunu pozaraq fəaliyyət göstərməkdə, kimlərləsə işbirliyində təqsirləndirmək istəyirlər. Bu, birmənalı olaraq erməni siyasətinə xidmət edən, tamamilə qərəzli yazıdır”.

***Səxavət HƏMİD***
***XQ***

# Gürcüstanda parlament seçkiləri və regional geosiyasət

**II MƏQALƏ**

**Siyasət fizikadan daha mürəkkəbdir.**

**Albert EYNŞTEYN**




## Gürcüstanı rahat buraxmırlar

Seçkidən sonra Gürcüstanda mümkün ssenarilərlə bağlı verilən bir sıra proqnozlar özünü doğruldur. Gürcüstanda seçki prioritetlərinin, bütövlükdə, ölkədə siyasi ab-havanın təhlili və böyük geosiyasi güclərin regionda getdikcə daha da kəskinləşən mübarizəsinin xüsusiyyətləri göstərirdi ki, hakim "Gürcü Arzusu–Demokratik Gürcüstan" Partiyasının şansı daha çoxdur. Ehtimal olunurdu ki, Gürcüstan cəmiyyəti sabitlik, ölkənin bütövlüyü və təhlükəsizliyin təminatı naminə məhz bu siyasi qüvvəyə səs verəcək. Bilirdilər ki, Gürcüstanda parlament idarəetmə forması mövcud olduğundan, burada dövlətçiliyin taleyindən bəhs edilir. Hansısa dəyərin, məsələn, sözdə demokratiya, liberalizm və yaxud hansısa geosiyasi böyük gücün mövqeyinə uyğun qərar qəbul etmək ciddi risklər meydana çıxara bilərdi.

Maraqlı və əhəmiyyətlidir ki, Gürcüstan prezidenti S.Zurabişvilinin, sabiq prezident M.Saakaşvilinin, indi fəaliyyətdə olan bir sıra müxalif siyasətçilərin dəfələrlə müraciətinə baxmayaraq, seçicilər bir sıra dairələrin gözlədiyi kimi etiraz prosesinə yüksək enerji ilə cavab vermədilər. İlk mitinq cəmi 2 saatdan bir az çox çəkdi və müxalif liderlər belə sakitcə meydanı tərk etdilər. Bu, nəyin əlaməti ola bilər?

## Latentlik və mötədillik

"Siyasi latentlik" həm də seçicinin hər hansı siyasi olaya bir "qədər gizli", hansısa səbəbdən radikal münasibət nümayiş etdirmək istəməməsi halını nəzərdə tutur. Mötədillik isə seçicinin mövcud vəziyyətə yüksək radikal deyil, bir qədər "yumşaq" reaksiya verməsi kontekstində anlaşıla bilər. İndi Grücüstanda müxalifətə dəstək verən seçicilərin xeyli hissəsində belə bir əhval-ruhiyyə müşahidə edilir. Yəni əksər müxalif seçici kontingenti bir sıra dairələrin gözlədiyi dağıdıcı, çox radikal, cəmiyyətdə xaosa aparan reaksiyasını vermədi. Ekspertlər vurğulayırlar ki, hətta, adətən, çox enerjili kimi görünən Tbilisinin gəncləri ilk mitinqdə xeyli mötədil təsiri bağışladılar.

Doğrudur, sonra tələbələrin etiraz aksiyası başladı. Onlar seçkidəki pozuntuların araşdırılmasını və səslərin yenidən sayılmasını tələb edirlər. Bir sıra KİV orqanları "gürcülər yatmırlar, mitinq edirlər" kimi obrazlı ifadələr işlədirlər.

Lakin hiss olunur ki, gürcü müxalif seçici kütləsi müəyyən radikal davranış səddini keçmək istəmir. Yəni bu halda da cəmiyyətin nə nizamının pozulmasını arzulayır, nə dövlətçiliyə ziyan dəyməsini istəyir, nə də demokratiya və liberallıq kimi şirin vədlərdən imtina edir. Belə alınır ki, hazırda Gürcüstanda siyasi səhnədə latentlik, mötədillik özünü göstərir və siyasi mövqelər arasında açıq və ya pərdəarxası mübarizə gedir. Bu mübarizənin getdikcə daha da konkretləşəcək məzmunu Gürcüstan cəmiyyətinin nə dərəcədə yetkin olduğunun və dövlətçiliyə həssaslığının siyasi-ideoloji və geosiyasi barometri olacaq.

Ancaq ittifaq qonşu və dost ölkədə, bütövlükdə, daxili siyasi dinamikanın vurğulanan məqamlarla tam müəyyən olunduğunu da demək çox çətindir. Çünki müxtəlif istiqamətlərdən yayılan informasiyalar durumun daha da radikallaşması və proses olaraq kəskinləşməsi ehtimalının yüksək olaraq qaldığını göstərir. Biz, konkret olaraq, Qərbdən və Rusiyadan qaynaqlanan informasiyaları nəzərdə tuturuq. Ayrıca, Türkiyənin mövqeyi də çox önəmlidir. Regionda isə əsas faktor Azərbaycanın münasibətidir. Bütövlükdə, kompleks halında vurğulanan faktorların təsiri Gürcüstanda siyasi mənzərəyə ciddi təsir edə bilər.

## Tbilisidə "havalar soyuyur"

ABŞ və kollektiv Avropa (Macarıstan istisna olmaqla) Gürcüstanda "Gürcü Arzusu"nun seçkidə qalib gəlməsinə kifayət qədər yüksək etirazla reaksiya verirlər. ABŞ Administrasiyası, Dövlət Departamenti, Avropa İttifaqı, Avropa Şurası, Avropa Parlamenti bu və ya digər kontekstlərdə seçkilərin nəticələrini tanımadıqlarını ifadə etmişlər. Bundan başqa, artıq 13 Avropa ölkəsi bu barədə birgə bəyanat yaymışdır və hətta Gürcüstanla əlaqələrə yenidən baxılmasını mümkün sayırlar. Baltikyanı dövlətlər də eyni mövqedədirlər.

ABŞ-nin rəsmi nümayəndələri isə həm seçkilərin nəticələrini qəbul etmədiklərini, həm də "Gürcüstan yolundan dönməsə, onun mümkün mənfi nəticələrini görəcəyini" (Dövlət Departamentinin yüksək vəzifəli rəsmisi M.Miller) bəyan edirlər. Burada "yolundan dönmə" dedikdə amerikalılar Tbilisinin öncəki kimi geosiyasi seçimdə birtərəfli qaydada Qərb yönünə üstünlük verməsini nəzərdə tuturlar. Prezident C.Bayden isə Gürcüstan hakimiyyətinə müraciət edərək, "bütün pozuntuları şəffaf araşdırmağa və dərhal müxalif siyasi qüvvələrlə dialoqa keçməyə" səsləmişdir.

Avropa Şurasının prezidenti Şarl Mişel isə bəyan etmişdir ki, Avropa İttifaqının Budapeştdə olacaq qeyri-formal sammitində Gürcüstan məsələsini gündəmə salmaq niyyətindədir. O, tələb etmişdir ki, ATƏT-in qiymətləndirməsində göstərilən pozuntuları MSK "çevik, ciddi və şəffaf araşdırsın". Bundan başqa, Grücüstan hakimiyyəti ölkənin Aİ-yə üstünlük verdiyinə möhkəm bağlılığını nümayiş etdirsin və Avropa Şurasının iyun və oktyabr xəbərdarlıqlarını nəzərə alsın. Xatırladaq ki, həmin xəbərdarlıqlarda əsas olaraq, Aİ-nin Gürcüstana münasibətinə yenidən baxa biləcəyi yer tutur.

Bu, açıq-aşkar sistemli və davamlı şəkildə Gürcüstan iqtidarının üstünə getməkdir. Hiss olunur ki, Qərb bu psoesdə Gürcüstan vətəndaşlarının taleyinə fikir vermək niyyətində deyildir – əsas məqsəd öz geosiyasi maraqlarını təmin etməkdən ibarətdir.

Gürcüstandakı seçkilərə fərqli münasibət bildirən Rusiya da kifayət qədər sərt ritorikadan istifadə edir. Onu ümumiləşdirsək, Moskvanın mövqeyi belədir: "Gürcüstandakı seçkilərin nəticələrinə hər hansı ciddi hüquqi müdaxilə olsa və o, nəticə verməyə başlasa, hətta "kimlərisə öldürmək" variantı belə istisna deyildir. Etiraf edək ki, Avropanın özü də xeyli əvvəl uyğun ritorikada Baş nazir İ.Kobaxidzeni hədələmişdi.

Bu faktiki münasibətlər onu göstərir ki, Qərb və Rusiya Gürcüstanda ümumi səviyyədə son dərəcə sərt, güzəştsiz və amansız geosiyasi mübarizəyə hazır vəziyyətdədirlər. Təəssüf ki, həm də bu cür yanaşmalar, bütövlükdə, Cənubi Qafqazda geosiyasi dinamikaya ciddi təsir edir. Bununla yanaşı, fərqli yanaşmaları da arxa plana atmaq olmaz.

## Avropada fərqli münasibət

Macarıstan iqtidarının Gürcüstandakı seçkilərin nəticəsinə münasibəti çoxlarını təəccübləndirdi. Baş nazir V.Orban oktyabrın 28-də Tbilisiyə səfər etmişdir. O, "Gürcüstan xalqının hansı seçimi etmək lazım gəldiyini daha yaxşı bilir" demişdir. Ancaq Brüssel dərhal "Orban təşkilatı təmsil etmir" bəyanatını vermişdir. Buna baxmayaraq, V.Orban Avropada yerləşən dövlətin Baş naziridir və onun mövqeyi əhəmiyyət daşıyır. Bunun fonunda xarici işlər naziri P.Siyartonun Gürcüstanda seçkilərin legitimliyinə şübhə etməyin "demokratiya üçün alçaldıcı olduğunu" deməsi, Budapeştin məsələyə ciddi yanaşmasının göstəricisi kimi qiymətləndirilir.

## Region dövlətləri

Qərb və Rusiyadan olan münasibətlərin fonunda region dövlətlərinin də münasibəti çox əhəmiyyətlidir. Əlbəttə, Rusiya da həmin qrupa daxildir və onun münasibəti aydındır. Türkiyə Prezidenti R.T.Ərdoğan Gürcüstandakı seçkiləri tanıdıqlarını və Gürcüstan cəmiyyətini uğurlu seçki keçirmək münasibətilə təbrik etdiyini demişdir.

İran hələ açıq şəkildə seçkilərin nəticəsinə münasibət bildirməmişdir. Ancaq Tehranın anti-Qərb mövqeyində olduğunu diqqətə alsaq və Cənubi Qafqazda region dövlətlərinin roluna üstünlük verdiyini xatırlasaq, Tehranın faktiki olaraq indiki hakimiyyəti dəstəklədiyi aydın olar.

Düşünmürəm ki, Ermənistan şəffaf şəkildə və real olaraq Gürcüstandakı seçkilərin nəticəsini dəstəkləsin. Lakin rəsmi İrəvanın Gürcüstanın indiki hakimiyyətinə qarşı da duracağı gözlənilən deyildir. Cavaxetiyada seçkilərin nəticəsi bunu təsdiq edən faktlardandır. Buna baxmayaraq, aydındır ki, Ermənistan indi Qərbin regionda əsas dayağıdır. Bəlkə də buna görə, rəsmi İrəvan Gürcüstanda hakimiyyətin qələbəsini daha çox arzulayırdı. Bunlarla yanaşı, məsələ regional kontekstə dayananda Ermənistanın sürüşkən və qeyri-müəyyən geosiyasi mövqeyi risk faktoruna çevrilir. O cümlədən, seçki məsələsində.

Bunlar regonal təhlükəsizlik kontekstində yeni və maraqlı bir gedişatı ortaya qoyur.

## Azərbaycanın regional statusu və yeni şərtlər

Yuxarıdakı qısa müqayisələr göstərir ki, bütövlükdə, regionun və ayrıca Gürcüstanın geosiyasi təhlükəsizliyi Azərbaycanın regional lider kimi statusuna yeni önəm verir. İndi Azərbaycandan başqa, Gürcüstanın müstəqilliyi və təhlükəsizliyi məsələsində obyektiv və ədalətli mövqe tutan ölkə (Türkiyə istisnadır) yoxdur.

Digər maraqlı məqam ondan ibarətdir ki, Ankaranın qiymətləndirməsi Bakı ilə tam uyğunluq təşkil edir və belə görünür ki, Türkiyə regiona öncə Azərbaycanın maraqları kontekstində baxmaqda israrla davam edir. Deməli, yeni şərtlər daxilində Azərbaycan–Türkiyə tandeminin regional təhlükəsizlik kontekstində geosiyasi statusunun daha da yüksəldiyi nəticəsini ala bilərik. Bu, Şuşa Bəyannaməsi və Qarabağ Bəyannaməsindən sonra müstəqil Azərbaycanın regional nüfuzu və əhəmiyyətini yüksəltməsini təsdiq edən əsas faktlardan biridir.

İndi əsas məsələ ondan ibarətdir ki, Bakı öz dostu, qonşusu və strateji tərəfdaşı olan Gürcüstanı böyük güclərin təzyiq və təhrikindən hansı səviyyəyə qədər sığortalaya biləcək. Bəlkə də bir çoxları üçün inandırıcı deyildir, lakin tam əminəm ki, Azərbaycan–Türkiyə tandemi bütövlükdə situasiyanı nəzarətdə saxlaya biləcək. Bu işdə onlara Rusiyanın və bəlkə də qismən İranın dəstək verəcəyi yüksək ehtimallıdır. Çünki məhz Azərbaycan–Türkiyə xətti müəyyən səbəblərdən Rusiya üçün Gürcüstandakı vəziyyətə qanuni çərçivədə təsir etmək imkanı yarada bilər. İrana gəldikdə isə Tehran indiki durumunda mütləq Azərbaycan və Türkiyə faktorunu nəzərə almalıdır. Artıq Tehran–Ankara işbirliyi Yaxın Şərqdə konkret məzmun almışdır.

Belə nəticə çıxarmaq olar ki, Gürcüstan seçkilərdən sonra geosiyasi və siyasi turbulentlik vəziyyətinə düşmüşdür və oranı tərk edə bilməsi hələlik mümkün olmur. Əksinə, vəziyyət getdikcə daha dərində və əhatədə gərginliyə doğru gedir. İndi Gürcüstanda regionun maraqları birləşir. Burada hansı qüvvələrin üstün olacağından Cənubi Qafqazın taleyi asılıdır. Bu nöqtədən baxanda Tbilisidə siyasi ab-havanın "soyuması"ndan sonra "bahar"ın, yoxsa "dondurucu qışın" gələcəyini təxmin etmək asan deyildir.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

# Qərbin İberiya isteriyası – məğlubiyyətin "erməni karuseli"

**(əvvəli 1-ci səhifədə)**



Bundan başqa, heç bir fakt olmadığı halda, Qərbin və ABŞ-nin proksiləri sayılan Estoniya, Litva, Latviya kimi ölkələr Gürcüstan xalqının seçiminə kölgə salmaq üçün ölkəyə qarşı, faktiki olaraq, hibrid müharibəyə başlayıblar. Hesab edirik ki, mövcud ritorikada, belə demək mümkünsə, ən "səmimi" mövqe ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Millerə məxsusdur. Cənab Miller ölkəsinin, ümumən, kollektiv Qərbin nə istədiyini tam şəkildə ortaya qoyub: "Gürcüstan öz siyasi kursunu dəyişməsə, ölkəni ciddi nəticələr gözləyir".

Deməli, ayının min oyunu bir armudun başında imiş. Seçki pozuntularının araşdırılması və sair bu sayaq fikirlərin səsləndirilməsindən də, paytaxt Tbilisidə təşkil olunmuş etiraz nümayişlərindən də məqsəd bu imiş. Qərb istəyir ki, Gürcüstan Ermənistan kimi marionet olsun, hər an onun köməyi ilə regiona təsir imkanları əldə etsin. Axı hazırda rəsmi İrəvanın alət kimi istifadəsində məhz bu motiv aşkar duyulmaqdadır.

Ermənistan rəhbərliyi çalışır ki, Azərbaycanla sülh gündəliyi fonunda Qərbin maraqlarını təmin etsin. Maraqlar isə aydındır: 1. Cənubi Qafqazda üstünlük qazanmaq, "Region region ölkələri üçündür!" prinsipini kənara ataraq, Rusiyanın bölgəyə tarixi bağlılığını inkar etmək, geosiyasi rəqabət aparmaq və Moskvanı sıxışdırmaq. 2. Azərbaycana təzyiq rıçaqları qazanmaq. Bunun üçün erməni avantürizmini diri saxlamaq, Ermənistanı regional kommunikasiyaların açar fiquruna çevirmək. 3. Türkiyənin Qərbə açılımının qarşısını almaq. Ölkənin nəhəng kommunikasiya habındakı mövqeyini şübhələndirmək. 4. İranı təcrid və təzyiq altında saxlamaq.

Bəli, Ermənistan Qərbə hazırda məhz bu vəzifələrin icrası baxımından vacibdir. Əgər Gürcüstanda uğur qazanılsaydı, o zaman yuxarıda qeyd etdiklərimizin reallaşması məsələsində daha münbit şərait formalaşacaqdı. Məhz buna görə qonşu ölkədə gerçəkləşmiş parlament seçkilərində hakim partiyanın qələbəsinin Azərbaycan üçün önəmi böyükdür. Elə Rusiya, Türkiyə və İran üçün də eyni fikri söyləmək mümkündür.

Gürcüstan xalqı və onun tərkib hissəsi olan Borçalıdakı soydaşlarımız mənfur planların reallaşmasına imkan vermədilər. Onlar özlərinin əzmkarlıqları və qətiyyətləri ilə dövlətçiliyin kənar qüvvələrin əlində oyuncağa çevrilməsinə yol qoymadılar. Hesab edirik ki, bu, eyni zamanda, Azərbaycan dövlətinin rəhbər tutduğu prinsiplərin qorunması idi. Ona görə də əminliklə deyə bilərik ki, Azərbaycan və Gürcüstan sınaqdan üzüağ, alnıaçıq çıxdı. Bu, həm də o deməkdir ki, hər iki ölkə Qərbə iradə nümayişi göstərdi.

Özlüyündə Gürcüstan hakimiyyəti də iradə nümayiş etdirib. Məlum olduğu kimi, son illər ölkədə Qərb şəbəkəsinin ifşası istiqamətində qanunlar qəbul olunub. Həmçinin, Gürcüstanın gələcək taleyininin təhlükəyə atılmaması amili əsas götürülüb. Bu mənada Qərbin əlaltıları şəbəkəsinin təmizlənməsini vurğulamaq mümkündür və proses davamlıdır. Bir sözlə, Gürcüstanda dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, idarəçilikdə çevikliyin təmin olunması istiqamətində zəruri tədbirlər görülüb. Əlbəttə ki, xalq rifahı başlıca amildir. Gürcü iqtidarının parlament seçkilərində uğur qazanmasının ən başlıca səbəbi məhz budur. Nəzərə alaq ki, sadə insanlar – seçicilər hər şeyi yaxşı görür, haqqı nahaqdan ayıra bilirlər.

İndi isə gələk, Gürcüstan Prezidenti Salome Zurabişvilinin hansı fikirləri səsləndirməsinə. Onun təmsil olunduğu Qərb cəbhəsinin riyakarlığını vurğuladıq. Zurabişvili bəlkə özü də fərqinə varmadan bununla bağlı çox vacib məqamı dilə gətirib. O, "Associated Press" agentliyinə müsahibəsində deyib ki, Gürcüstandakı seçkilərdə "erməni karuseli"ndən istifadə olunub: "Nədənsə biz buna "erməni karuseli" deyirik. Bilmirəm, bəlkə də Ermənistanda buna "gürcü karuseli" deyirlər... Bu o deməkdir ki, seçkilərdən bir müddət əvvəl müxtəlif bəhanələrlə sosial cəhətdən həssas insanlardan, məhbus ailələrindən şəxsiyyət vəsiqələri götürülüb, sonra səsvermə üçün istifadə edilib. Bu, bir şəxsiyyət vəsiqəsi və müxtəlif elektron cihazlarla (səsvermə - red.), hətta 17 dəfə mümkün olub. Onların ixtiyarında çoxlu sayda şəxsiyyət vəsiqəsi və şəxsi nömrələr olub".

Maraqlıdır ki, Ermənistanda keçirilən son iki seçkilərdə Qərbyönümlü Nikol Paşinyan qalib olmuş və dünyada bu proses demokratiyanın təntənəsi kimi qiymətləndirilmişdi. Əlbəttə, sırf mövcud məqama söykənərək sual vermək istəmirik ki, nə üçün hazırda həmin Qərb Gürcüstandakı seçkiləri demokratik adlandırmır? Yaxud, anti-demokratik qələmə verir? Niyyətimiz əsla bu deyil. O qənaətdəyik ki, ümumən, hansı yolla törədilməsindən asılı olmayaraq, seçki saxtakarlığı, xalqın iradəsinə qarşı çıxmaq yolverilməzdir. Başlıca məqam sırf riyakarlıqla bağlıdır.

Bəli, Zurabişvilinin dilə gətirdikləri onu deməyə əsas verir ki, Qərb özünə lazım olanda, hər cür saxtakarlığa leqal don geyindirə bilir. Ən pisi isə budur ki, hazırda o, Zurabişvilinin dili ilə özünün vaxtilə Ermənistanda yol verdiyi seçki "metodunun" incəliyini açıqlayır, həmin metodu Gürcüstan üzərinə tranformasiya etmək yolunu tutur. Bu, yaxşı halda özünü faşdır, pis halda isə siyasi əxlaqsızlıq.

Sonda Qərbin siyasi əxlaqsızlıq elementləri ilə zəngin ikili yanaşmasına dair daha iki məqamın üzərində dayanaq. Məlum olduğu kimi, bir neçə ay əvvəl Ermənistanda və Gürcüstanda hakimiyyət əleyhinə etiraz mitinqləri düzənlənmişdi. Ermənistanda arxiyepiskop Baqrat Qalstanyanın tərəfdarları və onlara qoşulmuş Rusiyayönümlü müxalifət aktiv idi, Gürcüstanda isə ölkədə xarici agentlər haqqında qanuna narazılığını bildirən Qərbpərəstlər. Hər iki ölkədə baş vermiş iğtişaşlar və hüquq-mühafizə orqanlarının təmsilçiləri ilə toqquşmalar fonunda Qərb Gürcüstanda yaşananları demokratik hərəkat, Ermənistandakı prosesləri isə qanuni hakimiyyət əleyhinə qəsd, onu devirmək cəhdi adlandırdı. Güman edirik, əlavə şərhə və ikili standarlar siyasətinin ayrı-ayrı elementləri ilə bağlı digər məqamları qabartmağa ehtiyac yoxdur. Hərçənd, bununla əlaqədar Azərbaycana yanaşmalardakı yarıtmaz meyilləri də diqqətə çatdıra bilərik. Amma hələlik bu qədər.

***Ə.CAHANGİROĞLU***
***XQ***

Dostlarımız – düşmənlərimiz

# Zəfər yürüşümüzün xarici mediada əks-sədası

**2020-ci il sentyabrın 27-də 30 ildən artıq müddətdə gözlədiyimiz haqq savaşı məqamı gəlib çatdı. Düşməni döyüş meydanında 44 günə məğlub edən Azərbaycan Ordusu Qarabağı işğaldan azad edib illər boyu əyilmiş başlarımızı dikəltdi.**



Lakin ədalətli Vətən müharibəsi aparan xalqımızın qazandığı davamlı qələbələr o günlərdə dünyanın xarici ölkələrinin ermənipərəst dairələrində qəzəb və düşmənçiliklə qarşılanmışdı. Azərbaycan Prezidenti İlham Əliyevin o zaman dünya media qurumlarına verdiyi çoxsaylı açıqlamalarda bu qərəzli münasibət ifşa olunmuş, erməni işğalının və azadlıq davamızın mahiyyəti açılıb göstərilmişdi.

Xeyli erməni yazarın çalışdığı Rusiya mediasında da Zəfər yürüşümüz birmənalı qarşılanmamışdı. 44 günlük Vətən müharibəsi günlərində ermənilər istər mətbuat səhifələrində, televiziya kanallarında, istərsə də sosial şəbəkələrdə həm özləri, həm də ələ aldıqları ermənipərəst qüvvələr Azərbaycana qarşı olmazın böhtanlarını yayırdılar. Acı məğlubiyyətdən 4 il keçsə də ağlını başına yığa bilməyən erməni yazarlar indinin özündə də bu böhtanları, yalanları yaymaqda davam edirlər. Onların havadarları isə rüsvayçı “ikili standartlar”a sadiqliklərini davam etdirirlər.

Gəlin 4 il əvvəlin xarici mediasında yazılanlara yenidən nəzər salaq. Ölkəmizə məsafəcə ən yaxın olan Rusiyada o günlərdə düşmən mövqeli yazarlarla yanaşı, Azərbaycana rəğbəti olan, haqqı, ədaləti müdafiə edənlər də az deyildi. Onlar İkinci Qarabağ müharibəsi zamanı və ondan sonra Azərbaycanın haqq işini müdafiə edir, ermənilərin vəhşiliyini, qəddarlığını, faşizmə xas olan terrorçuluq siyasətini mediadakı çıxışlarında tənqid edirdilər.

Rusiya məkanında Azərbaycana dəstək olan şəxslər, əsasən, bunlar idi: jurnalist, hərbi ekspert, "Natsionalnaya oborona" ("Milli müdafiə") jurnalının baş redaktoru İqor Korotçenko, rusiyalı jurnalist, televiziya aparıcısı Maksim Şevçenko, Rusiya Dövlət Dumasının MDB ölkələri ilə iş üzrə komitəsinin sədri Leonid Kalaşnikov, Rusiya Dövlət Dumasının deputatı, "Vətən" partiyasının sədri Aleksey Juravlyov, ictimai xadim, politoloq Sergey Markov, jurnalist, "qazeta.ru"nun siyasi icmalçısı Mixail Xodarenko, siyasi analitik, tarix elmləri doktoru Oleq Kuznetsov və başqaları.

4 il əvvəl – Azərbaycan Ordusu əks-hücum əməliyyatlarına start verdiyi günlərdən başlayaraq başda baş nazir Nikol Paşinyan olmaqla Ermənistanın yüksək vəzifəli şəxsləri bir-birinin ardınca yalan dolu məlumatlar yaymağa, fikirlər səsləndirməyə başladılar. Döyüş meydanında uduzan düşmən öz xalqına guya üstünlüyün onların tərəfində olması barədə yalan məlumatlar verirdi. Amma çox keçmədi, sabiq baş nazir Qrant Baqratyan etiraf etməyə məcbur oldu ki, Ermənistan ordusunun 80 faizi yoxdur.

Həmin günlər Azərbaycanın mövqeyini müdafiə edən Maksim Şevçenko ermənilərə müraciətdə anladırdı ki, Qarabağ Azərbaycan torpağıdır və erməni hərbi birləşmələri o əraziləri tərk etməlidirlər.

Düşmən Rusiyanı müharibəyə cəlb etmək üçün döyüş meydanından yüz kilometrlərlə aralıda yerləşən Gəncə, Mingəçevir şəhərlərini, Bərdə, Goranboy rayonlarını raket atəşinə tutur. Maksim Şevçenkoya görə, Gəncəyə atılan raket Xocalının davamı idi. Rusiya müharibənin Azərbaycan ərazisində getdiyini əsas gətirərək erməniləri məyus edir. Söz yox ki, Ermənistanda Dağlıq Qarabağda Rusiya ilə Azərbaycanın toqquşmasında maraqlı olan qüvvələr var.

Müharibə zamanı ermənilər dünyaya hay salırdılar ki, Azərbaycan tərəfindən türklər, suriyalı muzdlular vuruşurlar. "Dojd" TV kanalının Qarabağda olmuş xüsusi müxbiri Vasili Polonski "Qovorim na çistotu" verilişində ermənilərin yalan danışdığını dedi. O bildirdi ki, müharibə vaxtı Qarabağda olub, hansısa muzdlu əsgər görməyib.



Noyabrın 8-də Qarabağın döyünən ürəyi, Azərbaycanın musiqi beşiyi Şuşanın işğaldan azad olunması müharibənin taleyini həll etdi. Elə buradaca Ermənistanın baş naziri Paşinyanın Şuşada separatçı rejimin andiçmə mərasimindəki "yeni müharibə baş verərsə, Azərbaycan ərazilərinin xeyli hissəsini itirəcək" bəyanatını xatırladım. "Dəmir yumruq" əməliyyatı baş nazirin də, müdafiə nazirinin də arzularını ürəklərində qoydu. Əli hər yerdən üzülən düşmən məğlub olduğunu görüb ağ bayraq qaldırdı. Noyabrın 10-da Rusiya, Azərbaycan və Ermənistanın dövlət başçıları arasında üçtərəfli Bəyanat imzalandı, Qarabağda hərbi əməliyyatlar dayandırıldı. Bu sənəd Ermənistan üçün kapitulyasiya aktı idi.

Rusiyalı politoloq Maksim Şevçenko o günlər Azərbaycanın qələbəsinə sevincini belə dilə gətirirdi: "Azərbaycanın Qarabağdakı qələbəsi mənim üçün həm siyasi, həm də geosiyasi mənada qələbədir. Qəlbim sizinlədir. Azərbaycana tarixi dəyişdiyinə görə təşəkkür edirəm. Bu qələbəni tam mənada anlamaq üçün hələ bir neçə ay düşünmək lazımdır. Noyabrın 8-nə qədər bağlı olan qapılar qəflətən açıldı. Mümkünsüz olan mümkün oldu".

Rusiyanın istefada olan general-leytenantı, 1991-ci ildə Füzuli şəhərinin komendantı olmuş Aleksandr Volox “Modern.az” saytına verdiyi müsahibədə Qarabağdakı qələbə münasibətilə Azərbaycan Ordusunu, Ali Baş Komandanı və Azərbaycan xalqını təbrik etdi. Xüsusilə Füzulinin azad edilməsinə sevinən A.Volox "İşğalın başa çatması çox sevindirici xəbərdir. Haqq-ədalət sonda qalib gəldi. Prezident İlham Əliyevin uzaqgörənliyini və qətiyyətini də alqışlayıram" fikri ilə Azərbaycana olan rəğbətini bildirdi.

Azərbaycan 10 noyabr bəyanatının bütün şərtlərinə əməl etsə də, Ermənistandakı bəyanatdan narazı olan separatçı qüvvələr sənədin dəyişdirilməsini istəyirlər. Bu məsələyə toxunan Leonid Kalaşnikov çox haqlı olaraq yazıb ki, "şovinist ermənilər Rusiyaya minnətdar olmaq əvəzinə, razılaşmaya yenidən baxılması üçün çağırışlar edirlər".

2020-ci il dekabrın 10-da Azadlıq meydanında böyük qələbəmizə həsr olunmuş Zəfər paradı keçirildi. Sergey Markovun təbirincə desək, bu, sadəcə bir Zəfər paradı deyildi, bir millətin yenidən doğulması idi. Düşmənə göz dağı olan Zəfər paradını Rusiya Dövlət Dumasının komitə sədrinin müavini Konstantin Zatulin çox qısqancıqla qarşıladı. Dekabrın 11-də İrəvan–Moskva videokörpüsü zamanı "Bu parad yalnız Ermənistanı deyil, Rusiyanı da aşağılamaq cəhdidir" – deməklə erməniyə olan məhəbbətini gizlətmədi.

Bununla kifayətlənməyən K.Zatulin paradda İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın çıxışlarına tənqidi münasibət bildirərək, Azərbaycan–Türkiyə qardaşlığına olan qısqanclığını açıq büruzə verdi. Onun bu canfəşanlığı səbəbsiz deyildi – Zatulin Adler ermənilərinin səsləri sayəsində deputat seçilib.

Rusiya parlamentarilərinin işğaldan azad olunmuş Ağdama, Füzuliyə səfərləri onlarda acı təəssürat doğurdu. Rusiya Dövlət Dumasının deputatı Aleksey Juravlyov Ağdama səfəri zamanı gördüyü erməni vəhşiliyindən "şoka" düşmüşdü: "Sovet İttifaqında tanınan bir şəhər – Ağdam, demək olar ki, yoxdur. Ancaq məscid qismən salamat qalıb. O da deyilənə görə, atəşin korreksiyası üçün saxlanılıb".

Digər rusiyalı hərbi ekspert İqor Korotçenko təəssüratını jurnalistlərlə bölüşərkən belə dedi: "Mən Füzulidə və Ağdamda oldum. Bu şəhərlər tamamilə yer üzündən silinib. Adamda təəssürat yaranır ki, elə bil, orada atom bombası partlayıb. Binalar məhv edilib, evlərin özülləri belə dağıdılıb, yerlə-yeksan edilib. Bir sözlə, daş üstündə daş qalmayıb".

Nümayəndə heyətinin digər üzvü Kalaşnikov Ağdamda Xurşidbanu Natəvanın qəbrinin dağıldığını görəndən sonra "21-ci əsrdə barbarlıq təzahürləri qəbuledilməzdir" – dedi.

Bu vəhşilikdən sonra ermənilərlə bir yerdə yaşamaq çox çətindir, qərtmək bağlamış yaralarımız hələ sağalmayıb. Hərbi ekspert Oleq Kuznetsov da bir yerdə yaşamağın mümkün olmadığını deyir: ermənilərin barbarlığından sonra Kreml azərbaycanlıların və ermənilərin Qarabağda münaqişəsiz və dinc yaşamaq perspektivini necə düşünə bilər?

Son vaxtlar Ermənistanda bəzi qüvvələr "Yeni müharibə gözləyin", "Müharibə hələ bitməyib, diqqətli olun!" kimi çaşqın fikirlər səsləndirirlər. Bu məsələyə toxunan Maksim Şevçenko bildirib ki, ermənilər 3-cü Qarabağ müharibəsinə hazırlaşır, onlar dünyanın siyasi gücləri ilə elə bir hiyləgər planın hazırlığındadır ki, Azərbaycan–Türkiyə və bütün dünya yenidən Qarabağ müharibəsinin başlanmasına görə Rusiyanı ittiham etsinlər. Buna görə də Rusiya Qarabağ ərazisindən ordusunu geri çəkdi. Azərbaycan Xankəndi başda olmaqla digər rayonları da işğaldan azad etdi.

Sonda yeni müharibə arzulayan erməni separatçılarına məsləhət görərdik ki, İqor Korotçenkonun xəbərdarlığını unutmasınlar: "Ermənistan qisas yolunu tutsa, birdəfəlik dünya xəritəsindən silinəcək".

***Akif RÜSTƏMOV,***
***BDU-nun professoru***

## Mədəniyyət naziri vətəndaşlarla görüşüb



**Mədəniyyət naziri Adil Kərimli oktyabrın 30-da Ağcabədi Rayon Tarix-Diyarşünaslıq Muzeyində vətəndaşlarla görüşüb. Qəbulda Ağcabədi, Ağdam, Bərdə, Tərtər və Laçın rayonlarından olan vətəndaşlar iştirak ediblər.**

Vətəndaşlar, əsasən işlə təmin olunma, mədəniyyət sahəsi ilə bağlı təkliflər, təşəbbüslər, əməyin qiymətləndirilməsi və digər məsələlərlə bağlı müraciətlərini diqqətə çatdırıblar. Naziri hər bir müraciət üzrə məsələlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli ilə bağlı nazirliyin məsul nümayəndələrinə tapşırıqlar verib.

Görüşdə şəhid ailələri üzvlərinin və qazilərin qeyd etdikləri məsələlərə diqqətlə yanaşılması, vaxtında və obyektiv baxılması məqsədilə qeydiyyata alınaraq nəzarətə götürülüb.

***XQ***

“T-FİNANS LTD “MMC-nin rəhbərliyi və kollektivi qardaş Türkiyə xalqını **“Respublika Günü”** münasibətilə səmimi-qəlbdən təbrik edir, onlara cansağlığı və ölkəyə əmin-amanlıq arzulayır.

Zəfər marafonunun 35-ci günü



# Vətən müharibəsinin xronikası: 31 oktyabr

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Şanlı Vətən müharibəsi otuzillik işğala son qoyan parlaq Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

• Müdafiə Nazirliyinin yaydığı məlumata görə, oktyabrın 30-u gün ərzində və 31-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən, artilleriya və raketlərdən atəşə tutub.

Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. İşğalçı ordunun xeyli sayda canlı qüvvəsi, iki ədəd T-72 tankı, üç ədəd piyada döyüş maşını, iki ədəd “Smerç” və iki ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemləri, 12 ədəd müxtəlif tipli topu, bir ədəd “Osa” zenit-raket kompleksi, bir ədəd radioelektron mübarizə stansiyası, iki ədəd avtomobil texnikası sıradan çıxarılıb.

Cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında ölən və yaralananlar var.

• Prezident İlham Əliyev Almaniyanın ARD televiziya kanalına müsahibə verib. Müsahibədə dövlətimizin başçısı jurnalistin – “Kim birinci atəş açdı?” sualına cavabında deyib: “Ermənistandır və bizim sübutlarımız var. Çünki mülki şəxslər və hərbçilər arasında ilk qurbanlar azərbaycanlılar idi. Bu, bizə qarşı ardıcıl surətdə üçüncü hərbi təxribat idi. Birinci, iyul ayında törədildi. O zaman onlar Ermənistan–Azərbaycan sərhədinə hücum etdilər. Bizim mülki şəxslər və hərbi qulluqçular arasında itkilərimiz olmuşdur. İkinci cəhd avqust ayında baş vermişdir. Ermənistan diversiya qrupu göndərmişdir, onun başçısı tərəfimizdən saxlanılmışdır və o, ifadə vermişdir ki, mülki şəxslərə hücum etmək üçün göndərilmişdir. Üçüncü dəfə sentyabrın 27-də onlar təmas xəttinə yaxın yerləşən bəzi şəhər və kəndləri ağır artilleriya bombardmanına tutdular. Biz cavab verdik və bu, belə başlamışdır”.

Ali Baş Komandanın İsrail və Türkiyə dronlarına görə Azərbaycan Ordusunun üstün qüvvəyə malik olması ilə bağlı qərəzli fikrinə cavabı da diqqət çəkib. Prezident İlham Əliyev bildirib ki, İsrail dronları Azərbaycanda artıq uzun illərdir ki, var. Onların bəziləri Ermənistanın işğalındakı torpaqlarımızın azad edilməsi zamanı qəsbkarın başladığı təxribata qarşı 2016-cı ildə istifadə olunub. Lakin o toqquşma Ermənistan dayandığına görə bir neçə gün davam edib: “Onlar bu dəfə də dayansaydılar, biz də dayanardıq. Lakin onlar dayanmadılar. Onlar bizə böyük ziyan vurmaq istəyirdilər. Onlar təmas xəttindən çox uzaqda yerləşən şəhərlərə raket atmağa başladılar və bizim mülki şəxslər arasında çoxlu qurbanlarımız var – bu vaxtadək 69 nəfər. Odur ki, biz özümüzü, xalqımızı müdafiə etməli və cavab verməli idik. Bizim cavabımız sərt idi, amma onlar buna layiq idilər”.

Prezident İlham Əliyev müsahibədə “Human Rights Watch” və “Amnesty International” təşkilatlarının ölkəmizə qarşı ədalətsiz, qərəzli mövqeləri barədə də fikirlərini diqqətə çatdıraraq adları çəkilən qurumların Azərbaycana daim şər-böhtan atdıqlarını, Azərbaycan həqiqətlərini söyləmədiklərini, qarayaxma kampaniyası apardıqlarını vurğulayıb. Ölkə rəhbəri əlavə edib ki, bu təşkilatlar heç vaxt Ermənistanda insan haqlarının pozulması ilə bağlı heç bir şərh verməyiblər. Ermənistan həbsxanasında jurnalist öləndə onlar sakit dayanıblar. Ermənistanın əsas müxalifət partiyasının rəhbəri həbs edildikdə onlar səslərini çıxarmayıblar. Sabiq prezidentlərin məhkəmə işi gedəndə onlar susublar. Çünki onların təşkilatlarında erməni əsilli insanlar var və bu təşkilatlardan əsasən Azərbaycanın imicinə xələl gətirmək üçün istifadə olunur.



Azərbaycan Prezidenti müsahibədə Ermənistanın işğalçılıq siyasətindən əl çəkmək istəmədiyi, torpaqlarımızı azad etmək fikrində olmadığı barədə də fikirlərini diqqətə çatdırıb: “Əraziləri azad etdikdən sonra döyüş meydanında gördüklərimiz, orada qurulmuş istehkam qurğuları, – onlar bəlkə də bu qurğulara yüz milyonlarla dollar xərcləyiblər, – göstərir ki, onlar bu ərazilərdən çıxmağı planlaşdırmayıblar. Çünki əgər ərazilərdən çıxmağı planlaşdırsaydılar, bu qədər çox sərmayə yatırmazdılar. Müasir avadanlıq, müasir silahlar, müasir istehkam texnologiyası ilə təchiz olunmuş bir neçə müdafiə səddi var idi. Buna görə danışıqlar masasında onların bütün davranışı vasitəçiləri və bizi aldatmaq cəhdindən ibarət idi. Onlar danışıqları sonsuz edirdilər və vaxt qazanmaq istəyirdilər, onlar 27 il ərzində buna nail ola bildilər. Buna görə, biz əsas prinsiplərə sadiqik. Yeddi rayon bizə qaytarılmalıdır. Ermənilər heç vaxt bu rayonlarda yaşamayıblar. Üstəgəl, Dağlıq Qarabağdan qovulmuş azərbaycanlılar, müharibədən əvvəl Dağlıq Qarabağda Azərbaycan əsilli 40 min insan var idi, – oraya qayıtmalıdır və plan belə icra olunmalıdır”.

• Qubadlını artilleriya atəşinə tutan düşmənə cavab zərbələri endirilib.

• Ermənistan ordusunun döyüş texnikası və xeyli sayda canlı qüvvəsi, kəşfiyyat-diversiya qrupu məhv edilib və iki hərbi nəqliyyat vasitəsi sıradan çıxarılıb.

• Azərbaycanın Baş Prokurorluğunun məlumatına əsasən, Ermənistan Silahlı Qüvvələrinin təxribatları nəticəsində sentyabrın 27-dən oktyabrın 31-i saat 13:00-dək 91 mülki şəxs həlak olub, 404 nəfər yaralanıb, 2465 ev, 97 çoxmənzilli yaşayış binası və 455 mülki obyekt yararsız vəziyyətə düşüb.

***XQ***

# Zəngilanı azad edən, Şuşaya yol açan qəhrəman

**Dostoyevskinin gözəl bir deyimi var: "Yer kürəsində ən nadir tapıntı–ədalətli insandır". Anar məhz belə insan idi. Qayğıkeş ailə başçısı, bacarıqlı zabit, Vətən sevdalı komandir, sadiq dost, qədirbilən övlad – bir sözlə, bütün gözəl keyfiyyətlərə malik idi. Bu fikirləri igid şəhidin həyat yoldaşı Vüsalə Əliyeva söyləyir.**



Söhbət Vətən Müharibəsi Qəhrəmanı, Zəngilanın işğaldan azad olunmasını Azərbaycan Prezidentinə məruzə edən polkovnik-leytenant Anar Əliyevdən gedir. O Anar Əliyevdən ki, Naxçıvandan başlayan döyüş yolu Xocavəndin Tuğ kəndindən Şuşaya açdığı yolda şəhidlik məqamına ucalmaqla bitmişdi. Anar Azərbaycan Silahlı Qüvvələrinin "Usta" məharət dərəcəli hərbi qulluqçusu, Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun Xüsusi Təyinatlı Bölməsinin komandiri idi.

## Ömürlüyünə nəzər

Qəhrəmanımız 1980-ci ilin avqustunda Kəlbəcər rayonunun Boyaqlı kəndində Xarici Dillər İnstitutunun məzunları–ingilis dili müəllimləri Vaqif Əliyevlə Səkinə Bayramovanın ailəsində dünyaya göz açıb. Valideynlərin təyinatı ilə bağlı Ağdərə rayonunun Levonarx ( indiki Göyarx) kəndində yaşayan ailə 1988-ci ildə Ağdərə terrorundan sonra Tərtər rayonunun Bəyimsarov kəndində, daha sonra müvəqqəti Şəmkir rayonunun Çaykənd kəndinə köçüb orada yaşayıblar. Anar 1-ci sinfə Ağdərənin Göyarx kəndində gedib. Yaşayış yerlərini dəyişdiklərinə görə, Bəyimsarovda, sonra Çaykənddə təhsil alıb. 1995-ci ildə Çaykənd kənd tam orta məktəbin 9-cu sinfini bitirib.

## Ali təhsil arxasınca...

...Və onun hərbçi olmaq üçün seçdiyi yol bundan sonra, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsillə başlayır. 1995-ci ildə liseyə, 1997-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə daxil olur. 2001-ci ildə ali hərbi məktəbi qoşun kəşfiyyatı ixtisası üzrə bitirir və həmin il xidmətini davam etdirmək üçün Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində zabit ixtisas kursunun dinləyicisi olur. 2012–2014-cü illərdə Silahlı Qüvvələrin Hərbi Akademiyasında təhsilini davam etdirir.

## Döyüş bacarığını mükəmməlləşdirdiyi təlim və kurslar

Ali təhsilini bitirdikdən sonra öncə Bakıdakı "N" saylı hərbi hissədə, sonra Salyanda, ardınca Naxçıvanda xidmət edir. 2008-ci ilin yanvar ayında kapitan, 2012-ci ilin iyununda mayor, 35 yaşında – 2015-ci ilin iyununda vaxtından əvvəl polkovnik-leytenant rütbəsi alır. Azərbaycan, türk, ingilis, rus, erməni dillərini bilən Azərbaycan Ordusunun yüksək rütbəli zabiti 2003–2019-cu illərdə mütəmadi olaraq xarici ölkələrdə müxtəlif təlimlərdə iştirak edir. Türkiyədə "təməl paraşüt", Macarıstanda "ingilis dili", Çexiyada "sülhməramlı əməliyyatlar üçün təlimatçı", İsveçrədə "qış-dağ", Rumıniyada "hərbi əməkdaşlıq və təcrübə mübadiləsi", həmin ildə Türkiyədə keçirilən "sərbəst paraşüt", Sloveniyada "təkmilləşdirilmiş qış-dağ" kurslarında və İordaniya Krallığında baş tutan SOFEX–2010 Xüsusi Əməliyyat Qüvvələri Sərgisində iştirak edir. O, sonuncu dəfə Pakistanda 2019-cu ilin iyulundan 2020-ci ilin yanvarınadək davam edən 5 aylıq kurs keçir. 2019-cu ildə ordumuzun nümayəndələri Beynəlxalq Qars təlimində Anar Əliyevin rəhbərliyi ilə birincilik əldə edirlər. O, təlimlərdə əldə etdiyi təcrübələrdən kəşfiyyata aid dərslik yazmaq istəyirdi. Qismət oldu.



## İlk döyüş – Günnüt əməliyyatı

2018-ci il mayın 20-dən 27-nə qədər Naxçıvan Muxtar Respublikasında Azərbaycan və Ermənistan arasında Günnüt kəndi uğrunda döyüşlər baş verib. Bu döyüşlər Azərbaycan–Ermənistan münaqişəsi tarixinə Günnüt əməliyyatı kimi düşdü. Anar Əliyev həmin vaxt Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun təcrübəli zabiti idi və özü bu döyüşlərdə yaxından iştirak edirdi. 7 gün davam edən döyüşlər və Əlahiddə Ümumqoşun Ordusunun əks-həmləsi nəticəsində Şərur rayonunun Günnüt kəndi, "Ağbulaq" yüksəkliyi, Qızılqaya dağı və Qaraqaya dağı azad olundu, Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan ordusunun atəş nəzarəti altına keçdi. Həmin döyüşlərdə fərqləndiyinə görə, o, "Şücaətə görə" medalı ilə təltif edildi.

## Zəfər tarixi yazılır: Dövlət başçısına məruzə

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı tərəfindən cəbhəboyu zonada əks-hücum əməliyyatlarının başlaması barədə qərar veriləndə Anar Əliyev Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlı briqada komandiri idi. O, müharibənin ilk 13 günü Naxçıvanda, oktyabrın 11- dən isə Qarabağda – düşmənlə üzbəüz döyüşlərdə olur.

Müharibənin Füzuli, Cəbrayıl, Zəngilan və Xocavənd cəbhəsində fərqlənir. Xocavənd ərazisində 10 gündən çox davam edən döyüşlərin nəticəsi olaraq strateji əhəmiyyətə malik Hadrut qəsəbəsi azad edilir. Komandiri olduğu xüsusi təyinatlı briqadanın fərqlənməsi nəticəsində oktyabrın 14-də Füzuli rayonunun Qaradağlı, Xatınbulaq, Qarakollu və Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Qırmızıqaya, Dağdöşü, Tağaser kəndləri azad olunur. Günbəgün azad edilən ərazilər çoxalır. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun da iştirak etdiyi əməliyyatlarla oktyabrın 15-də Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavəndin Edişə, Düdükçü, Edilli, Ciraquz kəndləri yağı tapdağından xilas olur. Oktyabrın 16-da Xocavəndin Ağbulaq, Axullu və Xırmancıq kəndləri, 17-də Füzuli rayonunun Qoçəhmədli, Çimən, Musabəyli, Pirəhmədli, Dədəli, İşıqlı, Cuvarlı kəndləri və Füzuli şəhərinin işğaldan tam azad edildiyi açıqlanır. Həmin gün Anar Əliyev "N" saylı hərbi hissənin komandiri vəzifəsinə təyin olunur. Anar Əliyevin qrupu Füzuli rayonunda yerləşən Məngələnata dağı və Qacar kəndində yerləşən Şaqriven dağı istiqamətində irəliləyərək Tehran Mənsimovun xüsusi təyinatlılarına yol açır. Oktyabrın 20-də Xocavəndin Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli, Çinarlı kəndləri işğaldan azad edilir. Anar Əliyev Zəngilanın azad edilməsi üçün həyata keçirilən hərbi əməliyyatların rəhbərlərindən biri olaraq Zəngilan şəhərinin azad edilməsini Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun bir qrup hərbi qulluqçusu ilə birlikdə Ali Baş Komandan İlham Əliyevə məruzə edir.



## Şəhidliyə aparan "772 metr" yüksəkliyi

Anar Əliyev sonuncu dəfə Füzuli– Xocavənd istiqamətində vuruşub. Oktyabrın 21-də briqadasının iştirak etdiyi son əməliyyatlarda Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri azad edilir.

Həmin gün Xüsusi Təyinatlı Qüvvələrin Komandan müavini Zaur Cavanşir və keçmiş komandan müavini Kənan Seyidov tərəfindən Anar Əliyevə ciddi tapşırıq həvalə edilir. Xocavənd–Şuşa istiqamətində Azərbaycan Ordusunun Şuşaya daxil olmasında böyük rol oynayacaq strateji yüksəkliklər, xüsusilə, "772 metr" yüksəkliyi və Xocavəndin Tuğ kəndi azad edilməli idi.

Döyüş yoldaşlarının dediklərinə görə, o, aramsız atəş nəticəsində qəfildən əvvəlcə, sağ qolundan, sonra isə gözündən vurulur. Ona ilk tibbi yardım edən leytenant Adil Əfəndiyev olur. Əsasnaməyə görə, yaralı zabiti ərazidən feldşer və ya sanitar çıxarmalı olsa da, Adil Əfəndiyev israrla qabağa atılır. Anar Əliyevin gözünə iynə vurur, lakin yaxınlıqda olan qarşı tərəfin açdığı atəş Adil Əfəndiyevin ürəyini tutur, həmçinin, düşmənin atdığı əl qumbarası onların yaxınlığında partlayır. Açılan intensiv atəşdən və əl qumbarası partlayışından ağır yaralanan polkovnik-leytenant Anar Əliyev və leytenant Adil Əfəndiyev oktyabrın 21-də şəhidlik məqamına ucalırlar.

Oktyabrın 23-də onun nəşi mühasirədən çıxarılaraq Füzulidə yerləşən diaqnostika mərkəzinə, 1 gün sonra isə boya-başa çatdığı Tərtər rayonunun Bəyimsarov kəndinə son vida mərasimi üçün gətirilir. 1 gün sonra, 2020-ci il oktyabrın 25-də izdihamla, yaylım atəşləri və Azərbaycanın Dövlət himninin sədaları altında II Fəxri Xiyabanda dəfn olunur.

## İrsi və xatirəsi

Azərbaycan dövləti və hökuməti şəhidlərimizin xatirəsini əziz tutur. Şəhid Anar Əliyevə məxsus materiallar ailəsi tərəfindən Milli Azərbaycan Tarixi Muzeyinin İkinci Qarabağ müharibəsi fonduna təhvil verilmişdir. Müvəqqəti olaraq Gəncə şəhərinin Gülüstan qəsəbəsində yerləşən Kəlbəcər rayonu 2 nömrəli tam orta məktəbə Anar Əliyevin adı verilmişdir. Real Təhlil və İnformasiya Mərkəzi "Vətən haqqı" verilişinin 1 bölümü Anar Əliyevə həsr olunmuşdur. Tərtər şəhərinin küçələrindən biri şəhidimizin adını daşıyır. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən, Anar Əliyevə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmişdir. Bundan başqa o, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və digər medallarla təltif edilmişdir. Ailəsi mənzil və Prezident təqaüdü ilə təmin olunub.

## Anarsız günlər, aylar, illər...

Polkovnik-leytenantın iki övladı yadigar qalıb. Şəhid xanımlarını dindirmək, onların müharibəyə qədər və ondan sonrakı talelərini dinləmək ağırdır. Onların kədər dolu gözlərinə "sənsizlik" deyilən acı həyatın kölgəsi lövbər salıb. Anar Əliyevin həyat yoldaşı Vüsalə Əliyevanın xatirələri ilə baş-başayam:

– Anar olduqca mərhəmətli, xeyirxah, mehriban, şərəfi, namusu, mənliyi olan əsl insan, qəlbində Vətənə böyük sevgisi olan zabit idi. Ailəsi, qohumları, iş yoldaşları, dostları onunla qürur duyuruq. Anar danışırdı ki, əslində, onun arzusu hüquqşünas olmaq imiş. Amma zalım düşmənin torpaqlarımızı işğal etməsini, yanmış evləri, o zaman Tərtərə gələn yaralıları görəndən sonra düşmənə nifrətdən hərbçi olmağı seçir və 1995-ci ildə Cəmçid Naxçıvanski adına hərbi liseyə daxil olur. Həmin vaxt onlar Şəmkirdə yaşayırdılar. Şəmkirin kəndinə gün ərzində bir dəfə avtobus işlədiyindən, gediş-gəliş çətin olub. Buna görə, Anargilin ailəsi 2002-ci ilin yayında yenidən Tərtərə qayıdıb.



Mən bərdəliyəm. Ana tərəfim laçınlıdı. Babamgil də o vaxt Tərtərin Bəyimsarov kəndində məskən salıblar. Mən babamgildə məktəbə getmişəm. Yəni Anarın vaxtilə oxuduğu məktəbdə təhsil almışam. 11-ci sinifdə (2002-2003) oxuyanda məktəbə yeni müəllimlər gəldi. Anarın atası Vaqif müəllim mənə ingilis dili fənnindən dərs deyib. Xətrimi çox istəyirdi. Vaqif müəllimə çox böyük hörmətim vardı. O hərdən dərsdə oğlan uşaqlarına örnək olaraq oğlu Anardan danışardı. Görürdük ki, həmişə oğlundan qürurla danışır. Biz Anarı görməsək də müəllimin söhbətlərindən qiyabi olaraq onu ucaboylu, idmançı, ciddi xarakterə malik əsl hərbçi kimi tanıyırdıq. O zamanlar nə bilərdim ki, Anar mənim həyatımın qəhrəmanı olacaq?

**– Tanışlığınız necə oldu?**

– Nə tanışlıq? Mən 3-cü kursda oxuyurdum. Bayram tətilinə babamgilə gəlmişdim. Eşitdik ki, Vaqif müəllimgil mənə elçi gəlir. Düzü, bir az həyəcan keçirdim, həm də utandım. Çünki o vaxt müəllim mənim için əlçatmaz, müqəddəs şəxs idi. Əvvəlcə ailəm razı olmadı, çünki bir-birlərini tanımırdılar. Mənim fikrimi soruşanda razı oldum. Dedilər ki, "Axı sən oğlanı görməmisən, tanımırsan". Dedim: "Atası yaxşı insandır, yəqin ki, oğlu da atası kimidir." Daha demədim ki, onu atasının söhbətlərindən qiyabi tanıyıram.

2006-cı il sentyabrın 15-də toyumuz Anarın anası Səkinə xanımın doğum günündə oldu. Həmin gün Səkinə ana dedi: "Kimin oğlu anasına belə hədiyyə edər?"

**– Tanımadığın insan... Tez uyğunlaşdınız?**



– Əlbəttə. 14 il Anarla həyat yaşadım. Kəşfiyyat briqadası Bakıdan Salyana köçəndə 8 il orada yaşadıq. Elə bilirdim ki, "şah sarayında" yaşayıram. İndi o illərə baxanda görürəm ki, hərbi şəhərcikdə ("qorodok") təmirsiz– qaz gəlməyən, işıq olmayan, qışda su donan evdə yaşamışıq. Kür çayının bulanıq suyunu süzüb istifadə edirdik. Amma çox xoşbəxt idik. Yüksək şəraiti, təmin olunmuş ailələrdə olmayan xoşbəxtlik vardı bizdə! Amma Naxçıvanda komandanlıq çox yaxşı şəraiti olan 3 otaqlı ev vermişdi bizə. Anar bəzən istirahət günləri evdə olanda səhər yerindən qalxıb pəncərəni açır və deyirdi: "Şükür bu günümüzə ki, belə şəraiti olan evdə qalırıq".

2007-ci il dekabrın 13-də ilk övladımız Nigar dünyaya gəldi. Anarın sevinci yerəgöyə sığmırdı. Nigarı hədsiz çox istəyirdi. Adını özü qoydu. Qızına ilk 8 mart hədiyyəsi çəhrayı rəngdə yumşaq tüklü dovşan oldu. Nigar indi də hər axşam onu qucaqlayıb yatır… 2012-ci il sentyabrın 27-də Əli doğuldu. Həmin il bizim üçün uğurlu il idi. Anar mayor rütbəsi almışdı, Ali Hərbi Akademiyaya daxil olmuşdu. O, çox qayğıkeş ata idi. İşdən yorğun, gərgin gəlsə də bizə onu çox hiss etdirmirdi.

Nigarın çox xarakteri atasına oxşayır. Qorxmaz, məqsədli və ciddidir. Əli isə görünüş olaraq atasına çox bənzəyir, bəzi xüsusiyyətləri də atasınınkı ilə eynidir. Atası kimi rəqs etməyi, şəkil çəkdirməyi sevmir. Anar çox istəyirdi ki, uşaqlar ingilis–rus dillərini öyrənsinlər. İndi Nigar ingilis dilini yaxşı bilir. Keçən il Almaniyada 15 günlük yay, sonra Türkiyədə qış düşərgəsində oldu. Bu il qəbul imtahanı verəcək. İnşallah, istədiyi universitetə, arzuladığı ixtisasa yüksək nəticə ilə daxil olar, hamımızı sevindirər, atasının ruhunu şad edər. Arzusu hakim olmaqdır. Deyir: "Atam ədalətli, mərhəmətli idi və hər kəsə yaxşılıqlar edib. Mən də onun kimi yaxşı insan olacağam. Məhkəmədə ədaləti bərpa edən hakim olmaq istəyirəm". Əli hələ 7-ci sinifdə oxuyur. İdmanı çox sevir. Futbolla məşğul olur. Hələ hansı peşədə olmaq istəyini qərarlaşdırmayıb. Əminəm ki, uşaqlar atalarının adına layiq olacaqlar.

**– Atalar yaxşı deyiblər: "Ot kökü üstündə bitər".**

– Mən Dövlət Gömrük Komitəsinin Hava Nəqliyyatı Baş Gömrük İdarəsində çalışıram. Mənim üçün dövlət işində işləmək, iki övlad böyütmək, ev işləri və bunlarla yanaşı, Anar adlı bir dərdi daşımaq çox çətindir. Amma öhdəsindən gəlməyə çalışıram. Üstəlik, həm də tələbəyəm. Bu il yenidən imtahan verdim. Azərbaycan Turizm və Menecment Universitetinin sosial iş fakültəsinə qəbul oldum.

Bu dörd ildə nə qədər çətin olsa da Anarın adına layiq addımlamağa çalışırıq. Anarın adına kitablar nəşr etdirmişik. Keçən il anım günü ilə bağlı Muğam Mərkəzində "Vətən Qəhrəmanı" adlı mahnı-klip təqdimatı etdik. Görülən işlər, atılan addımlar Anar Əliyevin adınadır. Məqsədim onu tanıtmaq və yaşatmaqdır.

**Söhbətimiz bitir. Yolboyu Vüsalənin Anarın şəkillərini necə əzizlədiyi, adını necə ehtiram və ehtiyatla çəkdiyi fikrimdən çıxmır. Onun söylədikləri xəyalımda yenidən canlanır:**

– Hərdən deyirlər: "Siz güclü qadınsınız". Biz şəhid xanımları güclü durmaq məcburiyyətindəyik. Amma deyim ki, heç bir qadına bu cür güclü olmağı arzulamıram. Qadın nə qədər yüksək mənsəb qazansa da, onun hər zaman güclü ailəyə ehtiyacı var.

Deyirlər, dərd zamanla unudulur. Xeyr, dərd yaddan çıxmır, sadəcə elə dərinləşir ki, oradakı fəryadı ancaq sən eşidirsən. Mənə bu gücü verən Allahın verdiyi səbir, Anarın ruhu və qoyub getdiyi adıdır. Biz onunla qürur duyuruq.

**Vüsalə doğru deyir. Dərd unudulmur. İnsan dərdə alışır, onunla yaşayır və yaşlanır. Dərdi yaşayan bilər. Bir də, dərdi bilən anlayar.**

*Zərifə HÜSEYNOVA*
*XQ*

# Bu il Orta Dəhlizdən 300 Çin qatarı keçəcək

**2024-cü ilin ötən dövründə Çindən Orta Dəhlizlə yola salınan 210-dan çox blok qatarı qəbul edilib. İlin sonunadək isə blok qatarlarının sayının 300-ü keçəcəyi gözlənilir. Bu barədə “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətindən (QSC) məlumat verilib.**



Bildirilib ki, “Azərbaycan Dəmir Yolları” QSC və Çin şirkətləri arasında Çin mənşəli yüklərin konteyner blok qatarlarla Bakı–Tbilisi¬–Qars (BTQ) dəmir yolu xətti üzərindən daşınması barədə razılaşma əldə edilib. Məlumatda, həmçinin 7 il əvvəl istifadəyə verilmiş BTQ dəmir yolu xəttinin ötən illər ərzində regional və qlobal yükdaşımalarda Azərbaycanın rolunu əhəmiyyətli dərəcədə gücləndirdiyi vurğulanıb.

Xatırladaq ki, BTQ-nin tikintisinə 2008-ci ildə başlanılıb və dəmir yolu xətti 2017-ci il oktyabrın 30-dan istismara verilib. 2023-cü il mayın 16-dan yolun Gürcüstan hissəsi təmir-bərpa işləri ilə əlaqədar bağlanılıb. Bu il mayın 20-dən isə dəmir yolu ilə yükdaşıma bərpa edilib. Həmin gün 20 konteynerdən ibarət ilk yük qatarı Abşeron Logistika Mərkəzindən Gürcüstan istiqamətində hərəkətə başlayıb.

BTQ-nin Gürcüstan hissəsinin təmiri nəticəsində yükdaşımaların həcminin ildə 5 milyon tona çatması, dəmir yolu xəttinin Orta Dəhlizin ən cəlbedici hissəsindən birinə çevirməsi planlaşdırılır.

Qeyd edək ki, BTQ dəmir yolu Asiya və Avropanın dəmir yolu şəbəkələrinin birləşdirilməsini gerçəkləşdirməklə bərabər, həm də 3 ölkə (Azərbaycan–Gürcüstan–Türkiyə), eləcə də Asiya ilə Avropa arasında yüklərin daşınmasına sərf edilən vaxtı 2 dəfədən çox qısaltmağa imkan verir, Mərkəzi Asiya ölkələrinin – Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır.

Ümumi uzunluğu 846 kilometr olan xəttin 504 kilometrlik hissəsi Azərbaycan, 263 kilometrlik hissəsi Gürcüstan, 79 kilometrlik hissəsi isə Türkiyə ərazisindədir. Bu yol vasitəsilə birinci mərhələdə 5 milyon ton, sonrakı mərhələdə 17 milyon ton, bundan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur. Xatırladaq ki, 2023-cü ildə bu marşrutla 2 milyon 750 min ton yük daşınıb ki, bu da 2022-ci illə müqayisədə 64 faiz çoxdur.

BTQ magistralı boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu getdikcə artır, əməkdaşlıq dərinləşir. Beləliklə, sözügedən marşrut sabitliyə və təhlükəsizliyə xidmət göstərir, ən başlıcası isə Azərbaycanın geosiyasi əhəmiyyətini artırır və respublikamızın inkişafı üçün əlavə imkanlar yaradır.

Hazırda Orta Dəhlizin ən vacib seqmentlərindən olan BTQ dəmir yolunun modernləşdirilməsi diqqət çərkəzindədir. Bu, Prezident İlham Əliyevin tapşırığına əsasən həyata keçirilir. Dövlət başçısının uzaqgörən siyasəti nəticəsində tikilən BTQ dəmir yolu xətti getdikcə beynəlxalq nəqliyyat şəbəkəsində cəlbediciliyini artırır, Şərqdən Qərbə və əks istiqamətdə yükdaşımalarda bu marşrutdan istifadəyə tələbat davamlı olarq yüksəlir.

Dəmir yolu xəttinin modernləşdirilməsinin əsas məqsədi Orta Dəhlizin rəqabət qabiliyyətinin artırılması və yüklərin əhəmiyyətli hissəsinin BTQ dəmir yoluna cəlb edilməsidir. Çünki Çin və Mərkəzi Asiya ölkələrindən quru yolla daşınan yüklərin ən qısa müddətdə Avropaya çatdırılmasında adıçəkilən polad magistralın əhəmiyyəti olduqca böyükdür. Asiyadan gələn yüklərin Azərbaycan üzərindən biraşırımlı əməliyyatla Avropaya daha sürətli çatdırılması həmin xəttin regional nəqliyyat sistemində önəmini daha da gücləndirir.

Həm geosiyasi, həm də iqtisadi anlamda Azərbaycanın mövqeyinin gücləndirilməsinə xidmət edən bu layihənin əhəmiyyəti hazırkı beynəlxalq şəraitdə özünü daha qabarıq büruzə verir. Ukraynada davam edən müharibə fonunda Qərbin Moskvaya tətbiq etdiyi sanskiyaları və Rusiya ərazisindən yan keçən yeni dəhlizlər axtarışına çıxması Orta Dəhlizin və bu marşrut üzərində yerləşən Azərbaycanın nəqliyyat və logistika imkanlarını getdikcə genişləndirir.

Yeni qlobal çağırışlar respublikamızın avtomobil yollarının, dəmir yolu infrastrukturunun, eləcə də BTQ marşrutunun əhəmiyyətini artırır. Ötən illərdə həyata keçirilən infrastruktur layihələri sayəsində Azərbaycan hazırda bu çağırışlara ən çox hazır olan ölkələr sırasındadır.

# 141 yaşlı yük stansiyası əsaslı təmir edilib



**Bakı yük stansiyasının Əhmədli hissəsində əsaslı təmir və yenidənqurma işləri aparılıb. Dəmir yolu ilə yükdaşımalar üçün strateji əhəmiyyət daşıyan bu stansiya 1883-cü ildə ilk neft qatarının yola salınması ilə fəaliyyətə başlayıb. Hazırda burada ölkə üzrə daşınan neft və neft məhsullarının 40 faizi qəbul edilərək təyinat məntəqələrinə yönləndirilir.**

“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətininin məlumatına görə, stansiyada aparılmış təmir-bərpa işləri çərçivəsində infrastrukturun yenilənməsi ilə yanaşı, yüklərin kağız əsaslı sənədləşmə olmadan rəqəmsal qaydada göndərilməsi sınaqdan keçirilib. Bildirilib ki, stansiyanın 70 il bundan öncə tikilmiş inzibati binasında 9 ədəd köhnə istehsalat otağı yenidən qurulub və yeniləri inşa olunub. Həmçinin istismara yararsız texniki xidmət məntəqələri tam təchiz edilmiş 4 ədəd modul tipli konteynerlə əvəzlənib. Bura daxil olan avtomobil yolu və stansiyanın 400 kvadratmetr ərazisinə asfalt örtük çəkilib, iki mərtəbəli post binası təmir olunub.

Bundan əlavə, işçilərin sosial rifahının yaxşılaşdırılması məqsədilə yeni mətbəx və sanitar qovşaqlar, soyunub-geyinmə otağı, namaz otağı və digər lazımi infrastruktur məntəqələri yaradılıb. Stansiyanın işçi heyəti yeni uniforma və fərdi mühafizə vasitələri ilə təchiz edilib. Eyni zamanda, “Yaşıl dünya naminə həmrəylik” ilinin çağırışına uyğun olaraq stansiya ərazisində yaşıllaşdırma işləri görülüb.

Qeyd edək ki, yüklərin qəbulu və göndərilməsi üçün stansiya ərazisində mövcud 9 yolun yenilənməsi, yeni yolların salınması və ümumi infrastrukturun daha da təkmilləşdirilməsi planlaşdırılır.

# Azad olunmuş ərazilərin su layihələri



**(əvvəli 1-ci səhifədə)**

Ərazidə hər birinin tutumu 1000 kubmetr olan 2 anbarın inşası nəzərdə tutulur. Artıq tikintisi başa çatdırılmış 1-ci anbar test sınağından keçirilərək istismara verilib. 2-ci anbarın isə 1000 kubmetr hissəsinin dəmir-beton işləri yekunlaşdırılıb. Hazırda burada izoliasiya işləri davam etdirilir. Artıq 280 diametrlik boru ilə şəhərin giriş nöqtəsinə qədər çəkilmiş 1177 metr magistral xətt də istismara tam hazırdır. Layihə çərçivəsində şəhərin çıxışından 600 diametrlik boru ilə 5300 metr məsafədə kanalizasiya xətti çəkilib. Müasir standartlara cavab verən modul tipli tullantı sutəmizləyici qurğu quraşdırılıb. Bütün bu işlər isə Cəbrayıla köçürülən sakinlərin fasiləsiz, dayanıqlı və keyfiyyətli içməli su ilə təmin olunmasına imkan yaradır.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Zəngilan şəhərində 2020-ci il oktyabr ayından etibarən sakinlərin məskunlaşdığı ərazilərdə idarə və təşkilatlar, mənzillər, fərdi yaşayış evləri 24 saat su ilə təmin olunur. Hazırda isə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən Zəngilan şəhərinə fasiləsiz və dayanıqlı suyun verilməsi məqsədilə hər birinin tutumu 4 min kubmetr olmaqla 2 su anbarının inşası davam etdirilir. Bundan əlavə, yaxın gələcəkdə hər birinin tutumu 100 kubmetr olan daha 2 su anbarı tikiləcək. Layihəyə əsasən yağış sularının idarə olunması üçün 1 kilometr uzunluğunda xətt çəkiləcək.

Qarşıda duran perspektiv plana uyğun olaraq rayon ərazisində 9 subartezian quyusu və 1 nasosxananın inşası nəzərdə tutulub. Layihə çərçivəsində inşası nəzərdə tutulmuş 2046 metr magistral su xəttinin 1352 metri, eləcə də artezianlararası 1837 metrlik xəttin 1143 metrinin çəkilişi başa çatdırılıb. Bununla yanaşı, layihəyə əsasən 9 kilometrlik çirkab su kollektorunun tikintisi də yekunlaşmaq üzrədir. Artıq işlərin 83 faizi tamamlanıb.

İşğaldan azad olunmuş Füzuli şəhərində məskunlaşma sürətlə artır. Artıq şəhərdə 648 keçmiş məcburi köçkün ailəsi məskunlaşıb. Hazırda burada əhalinin, eləcə də dövlət və özəl sektora aid binaların və obyektlərin içməli su ilə təmin edilməsi məqsədilə layihələr həyata keçirilir. Şəhəri içməli su ilə təmin etmək üçün hər birinin tutumu 8500 kubmetr olan 2 ədəd və hər birinin tutumu 2500 kubmetr olan eyni sayda su anbarı inşa edilir. Artıq anbarların idarəetmə və gözətçi otaqlarının tikinti-quraşdırma işləri yekunlaşıb.

Hazırda mövcud Gövşad kəndindəki mənbədən müvəqqəti olaraq 100 kubmetrlik anbara su vurulur və oradan da Füzuli şəhərinə su verilir. Bununla da, şəhər 24 saatlıq dayanıqlı içməli su ilə təmin olunur. Tikilən 17 min və 2500 kubmetrlik anbarlarda da işlər yekunlaşmaq üzrədir. Ümumilikdə isə, layihə çərçivəsində Füzuli şəhərində 10 min 330 metr magistral su xətti, 5 min 807 metr artezianlar və anbarlararası su xətti, 1 ədəd tullantı sutəmizləyici qurğu, 1816 metrlik kanalizasiya kollektoru inşa olunub. Bundan əlavə, 15 subartezian quyusu qazılaraq istismara verilib.

# Şri-Lanka və Hindistana ixrac layihəsi

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu “Azexport” portalı və “MeetUp Networking Club” Azərbaycan mallarının Şri-Lanka və Hindistan bazarına ixracı layihəsinə başlayıb.**

Mərkəzdə XQ-yə bildirilib ki, bu məqsədlə Şri-Lankada fəaliyyət göstərən idxalçı şirkətin nümayəndəsi Tani Shyen ilə keçirilən görüşdə Azərbaycanda istehsal olunan bir qrup aqrar sənaye və qida məhsullarının Şri-Lanka və Hindistanda marketlər şəbəkəsinə çıxarılması istiqamətində danışıqlar aparılıb. Tani Shyenə ixrac prosedurları üzrə zəruri sertifikatlaşdırma, gömrük, logistika və sığorta kimi əməliyyatlar barədə qanunvericiliyin tələbləri izah olunub.



“Azexport” portalının rəhbəri Ayxan Qədəşov Azərbaycan mallarının onlayn təqdimatını keçirib. Daha sonra ölkəmizdə yetişdirilən aqrar məhsulların dequstasiyası aparılaraq Şri-Lanka və Hindistan bazarında satış imkanları müzakirə olunub.

İdxalçı şirkət nümayəndəsi Tani Shyenin görüşlərinin aqrar sektorda fəaliyyət göstərən şirkətlərin bağlarında və qida məhsullarının istehsalı ilə məşğul olan müəssisələrində davam etdirilməsi nəzərdə tutulub.

Qeyd edək ki, ilkin mərhələdə müxtəlif meyvə şirələri, kompot, tomat pastası, fındıq, faraş formada nar, xurma, heyva, gavalı və armud, eyni zamanda, qurudulmuş meyvə məhsullarının Şri-Lanka və Hindistan bazarındakı satış şəbəkələrinə çıxarılması nəzərdə tutulub.

# Türkiyə şirkəti Ağdamda

**İqtisadiyyat Nazirliyinin məlumatına əsasən, Türkiyə kapitallı “Birlik Deri” MMC-yə İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Ağdam Sənaye Parkının rezidenti statusu verilib. Bununla da rezidentlərin sayı 28-ə yüksəlib.**

Şirkətin sənaye parkının 3,5 hektar ərazisində dəri və dəri məmulatlarının istehsalı layihəsinin icrası nəzərdə tutulub. Eyni zamanda, investisiya dəyəri 20,8 milyon manat olan layihə çərçivəsində 250-dən çox yeni iş yerinin yaradılması planlaşdırılıb. İtaliya, Türkiyə, Cənubi Koreya kimi qabaqcıl ölkələrin texnologiyalarından istifadə ediləcək müəssisədə istehsal olunacaq məhsulların daxili bazara satılması ilə yanaşı, ixracı da nəzərdə tutulub.

Qeyd edək ki, Ağdam Sənaye Parkında ümumi investisiyalarının həcmi 260 milyon manat olan 28 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib.

İndiyədək parka 92 milyon manatdan çox investisiya yatırılıb, 370-dən artıq iş yeri yaradılıb, 2300-ə yaxın iş yerinin açılması isə qarşıya mühüm vəzifə kimi qoyulub.



Azərbaycan Prezidentinin 28 may 2021-ci il tarixli fərmanı ilə yaradılan və 190 hektar ərazini əhatə edən sənaye parkında tikinti materiallarının hazırlanması, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, soyuducu kameraların istehsalı müəyyənləşdirilib.

# Neftçala Sənaye Məhəlləsi genişləndirilir

*Burada indiyədək 180 milyon manatlıq məhsul buraxılıb*




**Neftçala Sənaye Məhəlləsinə 46,12 milyon manat investisiya yatırılıb, mövcud layihələr üzrə əlavə olaraq 14,4 milyon manat sərmayənin qoyulması da nəzərdə tutulub.**

İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına əsasən, sənaye məhəlləsində indiyədək 180 milyon manatdan çox məhsul istehsal edilib, bunun da 1 milyon manatlıq hissəsi ixraca yönəldilib. Cari ilin 9 ayında isə burada 30 milyon manatlıq məhsul satışı həyata keçirilib.

Neftçala Sənaye Məhəlləsinə indiyədək 290-a yaxın daimi iş yeri yaradılıb. Növbəti mərhələdə mövcud layihələr üzrə əlavə olaraq 200-dən artıq iş yerinin yaradılması planlaşdırılıb.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*




# "Yaşıl" texnologiyalar və qlobal davamlı inkişafa keçid



**Azkarbonlu iqtisadiyyat və təbii ehtiyatlardan səmərəli istifadə prinsiplərinə əsaslanan davamlı inkişafa qlobal keçid artıq XXI əsrin imperativinə çevrilib. İqlim dəyişikliyi, təbii ehtiyatların tükənməsi, ətraf mühitin çirklənməsi –bütün bu çağırışlar təcili və qətiyyətli tədbirlərin həyata keçirilməsini tələb edir. Məhz "yaşıl" texnologiyalar, yəni ətraf mühitə antropogen təsirin azaldılmasına hesablanmış texnologiyalar bu problemlərin aradan qaldırılması üçün əsas vasitəyə çevrilib.**

Qlobal istiləşmə gündən-günə sürətlənməkdə və bəşəriyyətin iqlim böhranının qarşısını almaq qabiliyyətinə meydan oxumaqdadır. Ümumdünya Meteorologiya Təşkilatının hesabatına görə, 2023-cü il qlobal orta temperaturun sənayeləşmədən əvvəlki dövrlərin səviyyəsindən 1,45°C yuxarı olduğundan ən isti il olub. Aydın görünür ki, iqlim sistemi yeni trayektoriyaya qədəm qoyub və burada təbii dalğalanmalar artıq istixana qazlarının rekord konsentrasiyası fonunda yüksələn temperaturun qarşısını ala bilməyəcək.

Dünya ictimaiyyəti artıq bəşəriyyətin iqlim böhranının artan təhlükəsi qarşısında durduğunu və təmiz enerjiyə sürətli keçidin zəruriliyini aydın dərk edir. Hazırda dünyada karbon emissiyasının yarısından çoxunda pay sahibi olan BRİKS ölkələri qlobal enerjinin "yaşıl" texnologiyalara keçidinə rəhbərlik etmək və iqlim böhranı ilə mübarizədə hərəkətverici qüvvəyə çevrilmək üçün unikal imkana malikdir. Bu dinamik inkişaf edən iqtisadiyyatlara təmiz innovasiyaların geniş miqyasda tətbiqi dekarbonizasiyanı sürətləndirə və bütün dünyada davamlı inkişaf üçün yeni standartlar müəyyən edə bilər, lakin bu, milli və beynəlxalq səviyyələrdə qətiyyətli tədbirlər tələb edir.

Beynəlxalq Enerji Agentliyinin (BEA) məlumatına görə, təmiz enerjiyə qlobal sərmayə 2024-cü ildə ilk dəfə olaraq 2 trilyon dolları keçəcək ki, bu da mədən yanacaqlarına yatırılan investisiyalardan, təxminən, iki dəfə çox olacaq. Ekoloji cəhətdən təmiz texnologiyalara doğru bu keçid daha çox BRİKS ölkələrinin, xüsusən də Çin və Hindistanın fəal mövqeyi ilə bağlıdır. Çin bu gün BRİKS ölkələri və bütün dünya arasında təmiz enerjiyə investisiyalar baxımından şəksiz liderdir. 2024-cü ildə Çin bərpaolunan enerji mənbələrinin, enerji saxlama sistemlərinin və elektrik nəqliyyat vasitələrinin inkişafına, təxminən, 680 milyard dollar xərcləməyi planlaşdırıb. Əlbəttə, buna dövlətin fəal dəstəyi və böyük istehsal güclərinin mövcudluğu kömək edir.

Hindistanın da 2020-ci ildən bəri təmiz enerji sərmayəsi 40 faiz artaraq böyüyür və bu sahədə güclü artım nəzərə çarpır. Braziliya və Cənubi Afrika kimi digər BRICS ölkələri də aşağı karbonlu texnologiyalara investisiyanı Hindistana nisbətən zəif olsa da artırır. Maraqlıdır ki, BEA-nın məlumatına görə, Braziliyada son 2 ildə elektrik şəbəkəsinə investisiyalar 2 dəfə artıb və bu da bərpaolunan mənbələrin şəbəkəyə inteqrasiyası üçün əsas amildir. Qonşu Rusiya hidrogen enerjisi sahəsində təsirli potensiala malikdir və 2030-cu ilə qədər qlobal aşağı karbonlu hidrogen bazarının 20 faizini tutmağı planlaşdırır.

## "Yaşıl" texnologiyalar: milli strategiyalardan birgə layihələrə

Son illərdə "yaşıl" gündəm BRİKS-in əsas prioritetlərindən biri kimi güclü şəkildə özünü büruzə verməkdədir. Assosiasiyanın yekun bəyannamələrində dayanıqlı inkişafın təmin edilməsi, iqlim dəyişikliyi ilə mübarizə və yoxsulluğun aradan qaldırılması arasında ayrılmaz əlaqənin tanınması qırmızı xətlə keçir. BRİKS ölkələri ildən-ilə iqtisadi artım, sosial inklüzivlik və ekoloji davamlılıq imperativlərini balanslaşdıran inteqrasiya olunmuş yanaşmanın zəruriliyini vurğulayır.

## Çin – təmiz texnologiya bazarının lideri

2024-cü ilə qədər Çin qlobal təmiz texnologiya bazarlarında dünya lideri kimi artıq özünü təsdiq edib. Hələ 2023-cü ildə təmiz enerji sektoru əvvəlki ilin iqtisadi artımının 40 faizini təşkil edərək ölkənin ÜDM artımının əsas lokomativi oldu. Hazırda Çin dünyadakı günəş panellərinin 80 faizini, elektrik nəqliyyat vasitələrinin, külək turbinlərinin və litium-ion batareyalarının, təxminən, üçdə ikisini istehsal edir. Güclü dövlət dəstəyi, o cümlədən subsidiyalar və vergi güzəştləri bərpaolunan enerji sənayesində üstünlük təşkil edən onlarla böyük konqlomeratın yaradılmasına gətirib çıxarıb. "Bir kəmər, bir yol" təşəbbüsü vasitəsilə Çin tərəfdaş ölkələrdə infrastrukturun inkişafına və potensialın artırılmasına dəstək verir.

Çin nəinki yaşıl texnologiyaların inkişafı və tətbiqində liderlik edir, həm də bütün mərhələlərdə – onların tədqiqatdan kommersiyalaşdırılmasına qədər maliyyələşdirilməsinin yeni yollarını fəal şəkildə inkişaf etdirir. XIV beşillik plan çərçivəsində ölkə iqlim və rəqəmsal iqtisadiyyatla bağlı layihələrə, təxminən, 6 trilyon dollar investisiya yatırmaq niyyətindədir.

"Yaşıl" texnologiyaların inkişafının hər bir mərhələsi öz maliyyə alətlərini tələb edir. Tədqiqat və təkmilləşdirmənin ilkin mərhələlərində dövlət investisiyaları və xeyriyyə fondları mühüm rol oynayır. Artıq kommersiya tətbiqinə yaxın olan texnologiyalar "yaşıl" kreditlər, istiqrazlar və səhmlər kimi başqa mənbələr tələb edir.

Çin bankları "yaşıl" layihələri dəstəkləmək üçün xüsusi məhsullar təklif edir. Məsələn, "Alibaba"nın iştirakı ilə yaradılmış onlayn "MYbank" "yaşıl" təchizat zəncirlərində iştirak edən 420 mindən çox kiçik və orta müəssisəyə güzəştli kreditlər verib. Çində "yaşıl" texnologiyaların maliyyələşdirilməsi üçün innovativ mexanizmlərin gələcək inkişafı vahid standartların və qaydaların yaradılmasına, yeni dövlət və özəl kapital mənbələrinin cəlb edilməsinə, habelə vəsaitlərin cəlb olunması xərclərini azaldan maliyyə alətlərinin inkişafına əsaslanacaq. Bu, Çinə "yaşıl" innovasiyanı genişləndirməyə və inkişaf etməkdə olan ölkələr də daxil olmaqla, həm daxilində, həm də xaricdə daha geniş davamlı inkişaf ekosistemini genişləndirməyə kömək edəcək.

## Hindistan – sürətlə böyüyən enerji bazarı

2024-cü ildə dünya Hindistanda təmiz enerji sektorunun görünməmiş artımının şahidi olub və nəticədə ölkədə enerji səhmlərinin qiymətləri sürətlə yüksəlib. Bu, dövlətin fəal dəstəyi sayəsində irimiqyaslı külək və günəş enerjisi layihələrinin uğurla həyata keçirilməsi ilə bağlı olub. Bərpaolunan enerji indi Hindistanın ümumi quraşdırılmış elektrik gücünün, təxminən, üçdə birini təşkil edir və kömürün payı ilk dəfə olaraq 50 faizdən aşağı düşüb. Hindistanın bərpaolunan enerji bazarı dünyada ən böyük və ən sürətlə böyüyən bazarlardan birinə çevrilib.

Bu ölkədə 2032-ci ilə qədər bərpaolunan enerji həcminin 2023-cü illə müqayisədə demək olar ki, iki dəfə artacağı gözlənilir. Günəş enerjisi ən böyük bazar payına malikdir, ondan sonra külək, su və bioenerji gəlir. Bazar liderlərindən biri olan "Adani Green Energy"şirkəti Qucarat əyalətində dəyəri, təxminən, 20 milyard dollar olan və 16 milyon hindistanlının evinə elektrik enerjisi verəcək günəş-külək enerji kompleksinin böyük layihəsini həyata keçirir.

Hindistan 2070-ci ilə qədər karbon neytrallığına nail olmaq üçün 10,1 trilyon dollar həcmində məcmu sərmayəyə ehtiyac duyacaq. Bununla belə, bu cari maliyyə vəsaiti iqlim dəyişikliyinin azaldılması tədbirləri üçün tələbatın yalnız 25 faizini təşkil edir. Maliyyələşməni səfərbər etmək üçün həm real iqtisadiyyatda, həm də maliyyə sektorunda problemləri həll etmək lazımdır. Real sektora siyasi dəstəyin də daxil olduğu əlverişli ekosistem, tənzimləyici yardım və bazar innovasiyası tələb olunur. Maliyyə sektorunda standartlaşdırılmış taksonomiyanın (təsnifat prinsipləri–İ.R.) olmaması, qeyri-kafi tənzimləmə, səlahiyyətlərin zəif inkişafı, innovasiyalar və güzəştli kapitalın təmin edilməsi üçün kifayət qədər stimulların yaradılmaması əsas çağırışlar olaraq qalmaqdadır.

**(ardı növbəti sayımızda)**

***İlqar RÜSTƏMOV***
***XQ***

# "Yaşıl" patentlərə yaşıl işıq

**İqlim konfransı ərəfəsində Əqli Mülkiyyət Agentliyi "Əqli mülkiyyət və innovasiyalar yaşıl gələcək naminə (COP29-a doğru)" mövzusunda "dəyirmi masa"keçirilib. Açılış mərasimində qurumun sədri Kamran İmanov əqli mülkiyyətə əsaslanan innovasiyaların "yaşıl" gələcəkdəki rolu və innovasiyalara bu həyati məsələdə dəstək vermək barədə bəhs edib, kollektiv təcrübəyə, ixtiraçılığa və kreativliyə əsaslanaraq insan cəmiyyətinin "yaşıl" gələcək yaratmağa qadir olduğunu bildirib. Müasir dünyada "yaşıl" innovasiya, "yaşıl" texnologiya, "yaşıl" patent, "yaşıl" enerji məsələlərinin önəminə diqqət çəkən agentlik rəhbəri "Qlobal İnnovasiya İndeksi" üzrə hesabatlarda innovasiyaların enerji mənbəyi kimi vacib rolunun vurğulanmasının təsadüfi olmadığını vurğulayıb. Eyni zamanda, dünyada getdikcə güclənən iqlim dəyişikliklərinin, o cümlədən qasırğaların, daşqınların, quraqlıqların, meşə yanğınlarının təsirinin çox aydın hiss olunduğunu diqqətə çatdırıb.**



Kamran İmanov deyib: "Yaşıl" gələcəyi arzulayan bəşər cəmiyyətini quranların ilk sıralarında ixtiraçılar və müəlliflər durur. Onlar ənənəvi texnologiyalara daha təmiz alternativlər yaratmaq üzərində çalışan insanlardır. Bu isə onu göstərir ki, davamlı milli innovasiya sistemlərinin yaradılmasına və səmərəli milli əqli mülkiyyət sistemlərinə əlçatanlığın təmin edilməsinə yönəlmiş səylər bundan sonra da davam etdirilməlidir".

Natiq vurğulayıb ki, COP29-un keçirilməsi və urumun enerji transformasiyasındakı uğurları Azərbaycan Prezidentinin uzaqgörən siyasətinin nəticəsidir: "COP29-un Bakıda keçirilməsi qərarı Azərbaycanın "yaşıl" enerji siyasətinə qlobal dəstəyi ifadə edir, "yaşıl" enerji növlərinin yaradılmasını və "yaşıl" enerjinin dünya bazarlarına nəqlini enerji siyasətinin yeni prioritet istiqaməti kimi göstərir".

"Dəyirmi masa"nın davamında Kamran İmanovun "Əqli mülkiyyət və innovasiyalar yaşıl gələcək naminə (COP29-a doğru)" mövzusunda təqdimatı dinlənilib. Təqdimatda iqlim dəyişikliyi ilə bağlı ümumi mənzərə, iqlim dəyişiklikləri və dünya miqyasında patent fəaliyyəti, Azərbaycanda patent fəaliyyətinin nəticələri haqqında ətraflı məlumat verilib. Vurğulanıb ki, patent sahəsində Əqli Mülkiyyət Agentliyinin əldə etdiyi yekunlar dövlətimizin başçısının təşəbbüsü ilə aparılan islahatların nəticəsidir.

Agentlik sədri "Qlobal İnnovasiya İndeksi 2024" hesabatında Agentliyin bilavasitə sərəncamında olan göstəricilərin artdığını, patentlərlə bağlı Cənubi Qafqazda liderlik əldə edildiyini diqqətə çatdırıb.

Dəyirmi masada Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, mədəniyyət nazirinin müavini Səadət Yusifova, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev çıxış ediblər.

Onlar iqlim dəyişikliyi ilə mübarizədə təkcə siyasi iradənin deyil, qabaqcıl texnologiyaların da rol oynadığını söyləyiblər, bu baxımdan əqli mülkiyyət hüquqlarının qorunmasının mühüm şərt olduğunu vurğulayıblar. Əqli Mülkiyyət Agentliyinin müvafiq istiqamətdə həyata keçirdiyi tədbirlərə yüksək qiymət verilib.

Daha sonra "dəyirmi masa"da "Azərbaycanda ətraf mühitin mühafizəsi və ekoloji problemlər", "Neft qurğularında istifadə olunması üçün ekoloji təmiz örtüklər", "Bərk məişət tullantılarından üzvi mineral gübrənin alınması üsulu", "Daşkəsən kobalt filizinin zənginləşmə tullantılarından kobaltın çıxarılması üsulu" mövzularında çıxışlar olub.

# "Azərenerji" Bakı konfransı zamanı gücləndirilmiş iş rejimində çalışacaq



**"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti noyabrın 11–22-də Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar tədbirin və ümumilikdə, Bakı şəhəri başda olmaqla ölkənin fasiləsiz və dayanıqlı elektrik təchizatının təmin edilməsi üçün gücləndirilmiş iş rejiminə keçir.**

Səhmdar cəmiyyətindən verilən məlumata görə, COP29-la bağlı dövlət səviyyəsində yaradılan Təşkilat Komitəsinin üzvü olan "Azərenerji" üzərinə düşən bütün öhdəlikləri yerinə yetirir. Belə ki, müvafiq dövlət qurumları ilə birgə enerji obyektlərinin fiziki və kiber təhlükəsizliyinin təmin edilməsindən tutmuş, enerji obyektlərində istismar və texniki xidmətlə əlaqədar baş verə biləcək qəza açılmalarının qarşısının alınmasına qədər bütün qabaqlayıcı tədbirlər görülüb. Bunun üçün paytaxt və ətraf ərazilərdə yerləşən 37 qovşaq yarımstansiyası, 129 ötürmə xətti və 6 elektrik stansiyası tam təftiş olunub, istehsal prosesində əlavə ehtiyat güc saxlanılması üçün resurslar müəyyən edilib.

Beynəlxalq iqlim konfransına hazırlıq çərçivəsində yeni gətirilən elektrik avtobuslarının enerji ilə təmin edilməsi üçün 110 kilovotluq Zığ yarımstansiyası tam yenidən qurulub və genişləndirilərək gücləndirilib. Bununla yanaşı, Hava Limanı, Zığ şosesi və 8 Noyabr prospekti ilə kəsişən, eləcə də aeroport yolu boyunca 5,5 kilometr məsafədə 110 kilovoltluq ikidövrəli yüksək gərginlikli hava xətləri sökülərək yeraltı kabel xətləri ilə əvəz edilib.

Tədbirlə əlaqədar xüsusi təyinatlı briqada və səyyar diaqnostika laboratoriya avtomobilləri daim iş başında olacaq. Eyni zamanda, avtomobil və xüsusi təyinatlı dronlar üzərində quraşdırılmış yüksək dəqiqlikli kameralar və teplovizorlarla yarımstansiya və xətlərdə qızma nöqtələrinin müəyyən edilməsi və adi gözlə görünməsi mümkün olmayan qəza risklərinin müəyyənləşdirməsi təmin ediləcək.

Beləliklə, 24 saat fasiləsiz növbətçilik prinsipi ilə fəaliyyət göstərən "Azərenerji" ən müasir innovativ yeniliklər tətbiq etməklə istər enerjinin istehsalı, istər ötürülməsi, istərsə də idarə olunması sahəsində bütün gücünü səfərbər edib.

# COP29 çərçivəsində XV Dünya İqlim Sammiti

**Bakıda noyabrın 17-də COP konfranslarına paralel olaraq biznes və dövlət sektoru üçün ən böyük tədbir olan XV Dünya İqlim Sammiti keçiriləcək. Sammit enerji, nəqliyyat, tikinti, sənaye, maliyyə və təbiət sahələrində dekarbonizasiya səyləri üçün mühüm önəm daşıyan vacib sektorlarda ən yaxşı təcrübələrin mübadiləsi üçün platforma rolunu oynayacaq.**



Hazırkı sammit 2030-cu ilə qədər enerji keçidi hədəflərinə nail olmaq, eləcə də 2050-ci ilə qədər sıfır emissiyalı şərait yaratmaq məqsədilə innovasiyalar və investisiyaların həyata keçirilməsi üçün dövlət–özəl tərəfdaşlığını əhəmiyyətli dərəcədə gücləndirmək məqsədi daşıyır.

Sammitin 90-dan çox ölkədən 2000-dən çox iştirakçını, o cümlədən dövlət başçılarını, ən böyük şirkətlərin rəhbərlərini, ekspertləri və fəalları həm şəxsən, həm də onlayn formatda bir araya gətirəcəyi gözlənilir.

Sammitin əsas mövzusu Paris Sazişinin məqsədlərinə nail olmaq və iqlim dəyişikliyinin fəlakətli nəticələrinin qarşısını almaq üçün fəaliyyətlərin sürətləndirilməsi olacaq.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

COP29 BAKU AZERBAIJAN NOVEMBER 2024

# “Yaşıl dünya” naminə həmrəylik



# Bakı konfransında “Yaşıl artım portalı” təqdim olunacaq

**İqtisadiyyat naziri Mikayıl Cabbarov “X” sosial şəbəkəsindəki hesabında COP29 çərçivəsində “Yaşıl artım portalı” layihəsinin təqdim olunacağını bildirib. Nazir daha sonra ABŞ-nin Harvard Universitetinin “Growth Lab” Mərkəzinin təsisçisi və direktoru Rikardo Hausman ilə videokonfrans formatında keçirdiyi görüşdə iqtisadi inkişaf və artımın dəstəklənməsinə yönələn təşəbbüsləri, “Yaşıl artım portalı” layihəsini, vergi inzibatçılığında aparılmış islahatların əmək bazarına təsiri daxil olmaqla ikitərəfli əməkdaşlığın gündəliyindəki məsələləri də müzakirə etdiyini vurğulayıb.**



İqtisadiyyat Nazirliyinin bununla bağlı yaydığı məlumatda isə deyilir ki, görüşdə ölkəmizin iqtisadi diversifikasiya prioritetləri, iqtisadi artımın dəstəklənməsinə yönələn təşəbbüslər, əmək bazarının leqallaşdırılması istiqamətində vergi inzibatçılığında aparılmış islahatlar barədə məlumat verilib. İslahatların əmək bazarına təsiri müzakirə edilib. “Growth Lab” Mərkəzinin Azərbaycanda çoxşaxəli və dayanıqlı iqtisadiyyatın təşviqinə dəstək göstərməkdə maraqlı olduğu bildirilib.

Mərkəzin irəli sürdüyü və COP29 çərçivəsində təqdim ediləcək “Yaşıl artım portalı” “Growth Lab”ın “İqtisadi mürəkkəblik” metodologiyasına əsasən hər bir ölkəyə “yaşıl” inkişaf imkanlarını müəyyənləşdirməyə şərait yaradacaq, bu təşəbbüsün Azərbaycanın “yaşıl artım” istiqamətində cəhdlərinə töhfə verəcək.

Dövlət Vergi Xidmətinin (DVX) rəisi Orxan Nəzərlinin sözlərinə görə, “yaşıl” enerji növlərinin yaradılması və dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Respublikamızda elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılması nəzərdə tutulur. 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının emissiyasını 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaltmaq da hədəfdə olan vəzifədir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, eləcə də Naxçıvan Muxtar Respublikası da daxil olmaqla sözügedən ərazilər “yaşıl” enerji zonası kimi müəyyənləşdirilib, ölkəmizdə 2024-cü il “Yaşıl” dünya naminə həmrəylik ili” elan edilib. Məqsəd iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsinə töhfələri artırmaq olub.

DVX rəisi diqqətçəkən bir məqama da toxunaraq qeyd edib ki, beynəlxalq təcrübədə geniş tətbiq olunan karbon emissiyasının azaldılması məqsədilə respublikamızda “karbon vergisi” və ya analoji verginin tətbiqi imkanlarının qiymətləndirilməsinin, “karbon vergi”sinin vergitutma obyekti olan karbon emissiyasının ölçülməsi sisteminin yaradılmasının tətbiqi kimi proseslər hazırda hökumətdə həmkar qurumlarla birgə müzakirələrin mühüm istiqamətidir.

Onun sözlərinə görə, bununla bağlı bir sıra beynəlxalq təşkilatlarla, beyin mərkəzləri, təhsil müəssisələri və əlaqəli sənayelərlə əməkdaşlıq əlaqələri mövcuddur. Bu sahədə həm təcrübələr öyrənilir, həm mövcud təcrübələrin yaratdığı çağırışlar birgə müzakirə edilir, həm də ölkəmiz üçün düzgün vergiqoyma siyasəti müəyyənləşdirilir.

“Yaşıl” iqtisadiyyatın stimullaşdırılmasında vergi siyasətinin mühüm rol oynadığını qeyd edən DVX-nin rəisi, həmçinin vurğulayıb ki, bərpaolunan enerji mənbələrinə sərmayə qoyuluşunun, istehsal sektorunda və ixrac olunan məhsullarda “karbon izi”nin azaldılmasına yönələn siyasətin vergi alətləri vasitəsilə dəstəklənməsi milli vergi sisteminin diqqət mərkəzindədir.

Hazırda ətraf mühitin qorunması istiqamətində bir sıra tədbirlər həyata keçirilir və vergi alətləri də bu prosesə müsbət təsir göstərir. Ölkədə dayanıqlı iqtisadi inkişafın, eləcə də iqlim əsaslı “yaşıl” iqtisadiyyata keçidin gerçəkləşdirilməsi yalnız bizneslərin üzərinə əlavə vergiqoyma ilə deyil, həm də bərpaolunan enerji mənbələrindən istifadə və yaxud “yaşıl” texnologiyalardan istifadənin vergilərlə təşviqi hesabına mümkündür.

Yeri gəlmişkən, COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin bildirdiyinə görə, iqlim konfransından danışıqlardan kənar önəmli istiqamətlər olan “İkiillik şəffaflıq hesabatları”, “Müəyyənləşdirilən milli töhfələr”, “Milli adaptasiya planları”nın hazırlanması və təqdim edilməsi məsələlərinə də diqqət yetiriləcəyi gözlənilir. Bu tədbir çərçivəsində Azərbaycanın COP29 Sədrliyi 14 əsas təşəbbüs irəli sürür. Məqsəd yalnız milli deyil, qlobal səviyyədə yeni yanaşmalar və innovativ həll yolları təklif etməkdir. Azərbaycan bu təşəbbüslərlə qlobal səviyyədə “yaşıl” iqtisadiyyata keçidi dəstəkləyir, eyni zamanda, beynəlxalq səviyyədə etibarlı və məsuliyyətli tərəfdaş kimi mövqeyini gücləndirir.

Ölkəmizdə son illərdə “yaşıl” iqtisadiyyata keçid istiqamətində mühüm addımlar atılıb, enerji mənbələrinin genişləndirilməsi, enerji səmərəliliyi və dövri iqtisadiyyatın inkişafı sahələrində ciddi nailiyyətlər qazanılıb. 2030-cu ilə qədər baxışı təmin edən Milli Prioritetlər sənədində dayanıqlı inkişaf və ətraf mühitin qorunması əsas hədəflərdən biri kimi müəyyənləşdirilib. Başqa sözlə, Milli Prioritetlərdə respublikamızın “yaşıl” iqtisadiyyata keçidinin sürətləndirilməsi, təbii sərvətlərin səmərəli idarə olunması, karbon emissiyalarının azaldılması, iqlim dəyişikliyinə uyğunlaşma və enerji səmərəliliyinin artırılması kimi konkret ekoloji məqsədlər yer alıb.

Belə bir yanaşma isə təsadüfi hal sayılmır. Çünki yaşadığımız indiki dövrdə iqtisadi cəhətdən dayanıqlı, təmiz və sağlam gələcəyə keçid ən aktual çağırışlardan biridir, mütərəqqi cəmiyyət quruculuğunda atılan məsuliyyətli addımdır. Ümumiyyətlə, dünyada ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar və artan tələbat fonunda dayanıqlı inkişafa nail olmaq üçün “yaşıl” iqtisadiyyata keçid böyük əhəmiyyət kəsb edir.

Ölkəmizdə aşağı emissiyalı məhsul və sənayeləri təşviq edən qanunvericilik aktları qəbul edilib. Elektrik və hibrid avtomobillərə, elektrik mühərriki ilə işləyən nəqliyyat vasitələrinin enerji doldurucularına elektrik enerjisi ötürülənməsindən əldə edilən gəlirlərə münasibətdə tətbiq olunan təşviqlər bunun bariz ifadəsidir. “Yaşıl” enerjinin istehsalını həyata keçirənlər üçün iqtisadi stimulların verilməsi gündəmin prioritetidir.

# Qlobal iqlim dəyişikliyi və insan sağlamlığı



**ADA Universitetində “Qlobal iqlim dəyişikliyi və insan sağlamlığı: təsirlərin azaldılmasında davamlı həllər və innovativ təşəbbüslər” mövzusunda konfrans keçirilib. Toplantı “Regional İnkişaf” İctimai Birliyi, Elm və Təhsil, Ekologiya və təbii sərvətlər, Kənd kəsərrüfatı nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Sənaye Korporasiyası, “AzerGold” QSC və ADA Universitetinin birgə təşkilatçılığı, eləcə də bir sıra qurumların dəstəyi ilə icra olunan “Qlobal iqlim dəyişikliyinin uşaqların sağlamlığına təsirləri” layihəsi çərçivəsində təşkil olunub.**

Konfransda çıxış edən “Regional İnkişaf” İctimai Birliyinin nümayəndəsi Aysel Həsənova Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2024-cü ilin Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi və noyabr ayında ölkəmizin ev sahibliyi edəcəyi COP29 ilə əlaqədar keçirilən çoxsaylı tədbirlərə dəstək məqsədilə icra olunan layihənin əsas hədəflərini diqqətə çatdırıb. Bildirib ki, məktəbliləri dünya ictimaiyyətini narahat edən qlobal problemlərdən biri kimi iqlim dəyişikliyi və onun təsirləri barədə maarifləndirmək, onları bu problemin həllində fəal iştiraka və sağlam gələcək naminə innovativ ideyalar və həllər irəli sürməyə təşviq etmək layihənin əsas hədəfləridir.

Konfransın rəsmi hissəsində çıxış edənlər COP29 kimi mötəbər beynəlxalq tədbirin Azərbaycanda keçirilməsinin ölkəmizə olan yüksək etimadın göstəricisi olduğunu, dünyanı narahat edən iqlim dəyişikliyinin havanın çirklənməsinə, vektor xəstəliklərinə, suyun və qidanın keyfiyyətinə, su və qida təchizatına, ətraf mühitin deqradasiyasına, həddindən artıq istilərə səbəb olduğunu bildiriblər. Həmçinin qeyd olunan amillərin xüsusilə uşaqlarda müxtəlif xəstəliklərə, psixoloji gərginliyə yol açdığını və sağlam inkişafına mənfi təsir etdiyini, uşaqların erkən yaşlardan iqlim dəyişikliyi və onun təsirləri barədə geniş maarifləndirilməsinin zəruriliyini vurğulayıblar.

Konfransda qlobal iqlim dəyişikliyinin uşaqların sağlamlığına təsirləri mövzusunda məktəblilər arasında keçirilmiş ümumrespublika müsabiqəsinin qalib komandaları mükafatlandırılıb. Müsabiqəyə təqdim edilmiş 53 layihə arasından Təşkilat Komitəsi tərəfindən seçilmiş, problemin həllində daha yaradıcı və innovativ yanaşmalara üstünlük verən ən uğurlu 5 layihə mükafatlandırılıb.

Konfrans öz işini “Dayanıqlı kənd təsərrüfatı və qida təhlükəsizliyinin qorunmasında innovativ həllər”, “Biomüxtəlifliyin və ekosistemin dayanıqlığının təmin edilməsində yeni çağırışlar” mövzularında panel müzakirələri ilə davam etdirib. İclaslarda dəyişən iqlim şəraitində kənd təsərrüfatında innovativ idarəetmə sistemlərinə keçid, qida təhlükəsizliyi, insan kapitalının inkişafı, iqlim dəyişikliyinin insan sağlamlığına təsirləri, karbon və istixana qazlarının emissiyasının azaldılmasında yaşıl texnologiyaların tətbiqi və digər mövzularda müzakirələr aparılıb, mütəxəssislər tərəfindən məktəblilərin sualları cavablandırılıb.

# ABB COP29-un əsas bank tərəfdaşıdır

**Regionun ən böyük maliyyə qurumlarından olan Azərbaycan Beynəlxalq Bankı (ABB) bu il noyabrın 11-22-də ölkəmizdə keçiriləcək COP29 tədbirinin əsas bank tərəfdaşıdır. COP29-un Əməliyyat Şirkətindən bildirilib ki, ABB iqlim konfransında öz pavilyonu ilə iştirak edəcək.**




Burada müxtəlif təqdimatlar, görüşlər təşkil olunacaq. Ziyarətçilərə ABB-nin dayanıqlı inkişaf hədəfləri, ölkəmizin “yaşıl” artımının sürətləndirilməsində maliyyə qurumlarının rolu, “yaşıl” investisiya, ticarətin dayanıqlı şəkildə maliyyələşdirilməsi, bərpaolunan enerjinin artırılmasına bankların dəstəyi, internet bankçılıq, kiçik sahibkarlığın inkişafı üçün “ABB Biz” tətbiqinin yaratdığı imkanlar, “Təzödə” platforması haqqında ətraflı məlumat veriləcək.

Dayanıqlı gələcək üçün bankçılığın rəqəmsallaşdırılması və “yaşıl” texnologiyaların tətbiqi, Azərbaycanda və regionda dayanıqlı maliyyə, iqlim dəyişikliklərinə qarşı mübarizədə “yaşıl” fintex və iqlim texnologiyalarının rolu, karbon izi kalkulyatoru, uşaqlar və dayanıqlı inkişaf, gənc nəsldə innovasiyalara marağın artırılması, qadın liderliyi və s. bu kimi mövzularda da maraqlı təqdimatlar, müzakirələr olacaq.

Tədbir çərçivəsində startap sessiyaları da təşkil ediləcək, ABB İnnovasiya Mərkəzində inkubasiya mərhələsini uğurla keçmiş bir neçə startap investorlara təqdim olunacaq.

İqlim konfransı müddətində ABB-nin bir neçə beynəlxalq tərəfdaşı ilə yeni razılaşma sənədlərinin imzalanması da nəzərdə tutulur. Eyni zamanda, noyabrın 14-də “Maliyyə, İnvestisiya və Ticarət Günü” və noyabrın 16-da “Elm, Texnologiya və İnnovasiya / Rəqəmsallaşma Günü”nün keçirilməsi planlaşdırılır.

# Təmiz enerji memorandumu



**İqlim konfransının keçiriləcəyi Bakı Stadionunun enerji ehtiyacının “yaşıl” enerji mənbələrindən qarşılanması məqsədilə COP29 Azərbaycan Əməliyyat Şirkəti və “AzərEnerji” ASC-nin “Yaşıl” enerji elektrik stansiyası” Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) arasında Anlaşma Memorandumunun imzalanma mərasimi keçirilib.**

Əməliyyat Şirkətinin məlumatına görə, Anlaşma Memorandumu əsasən, prosesdə iştirak edən tərəflər – COP29 Azərbaycan Əməliyyat Şirkəti, “AzərEnerji” və “Azərişıq” açıq səhmdar cəmiyyətləri, “Stadium Operating Company” və “Yaşıl Enerji Elektrik Stansiyası” məhdud məsuliyyətli cəmiyyətləri arasında müvafiq əməkdaşlıq və koordinasiyanın təmin edilməsi məqsədilə bəştərəfli müqavilənin imzalanması nəzərdə tutulur.

Mərasimdə çıxış edən Əməliyyat Şirkətinin Koordinasiya Şurasının üzvü Ayan Nəcəf bildirib: “COP29 idarəçiliyində bir sıra ilklərə imza atılması ilə iqlim konfransının ölkədə dayanıqlı davranışların təşviqi və tətbiqini və ümumilikdə, “yaşıl” keçidə təkanı sürətləndirib. Biz inanırıq ki, Bakı Stadionu nümunəsində bir sıra konfrans infrastrukturları və məkanları enerji qənaətini və “yaşıl” enerji ilə yüksək təchizatı gerçəkləşdirəcək”.

“Yaşıl Enerji Elektrik Stansiyası” MMC-nin direktoru Emil İbadov ölkə başçısının işğaldan azad edilmiş ərazilərin “yaşıl” enerji zonasına çevrilməsinə, regionun hidroenerji potensialından səmərəli istifadə edilməsinə dair tapşırıqları xatırladaraq, hazırda Qarabağda ümumi gücü 270 MVt olan 32 su elektrik stansiyasının “yaşıl” enerji istehsal etməsi ilə iqlim dəyişmələrinə qarşı mübarizədə əhəmiyyətli rol oynadığını vurğulayıb.

Xatırladaq ki, COP29 Azərbaycan Əməliyyat Şirkəti konfransla bağlı karbon emissiyalarının və ətraf mühitə mənfi təsirlərin azaldılması məqsədilə artıq müvafiq addımların atılmasını təmin edib. Belə ki, COP29-un keçiriləcəyi Bakı Stadionunun ətrafında tikilmiş müvəqqəti konstruksiyaların enerji təchizatında istifadə ediləcək generatorlarda dizel əvəzinə hidrogenləşdirilmiş bitki yağının (HVO) istifadəsi, həmçinin stadion və ətraf tikililərdə səmərəli enerji sərfiyyatını təmin edən qurğu və avadanlığın quraşdırılması icra olunub.

“Yaşıl Enerji Elektrik Stansiyası” MMC-nin səlahiyyətli nümayəndəsi Emil İbadov memorandumun imzalanma mərasimində hazırda Qarabağ və Şərqi Zəngəzurda ümumi gücü 270 meqavat olacaq 32 yeni elektrik stansiyasının inşa edildiyini, bu stansiyaların bölgənin “yaşıl” enerji ilə təminatını tamamilə ödəyəcəyini, hətta xaricə ixraca yönəldilməsi imkanının yaranacağını da bildirib.

Qeyd edək ki, statistik göstəricilərə görə, Azərbaycanın bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135 gigavat, Xəzər dənizinin Azərbaycana məxsus hissəsində isə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 gigavat, o cümlədən külək enerjisi üzrə 3 min MVt, günəş enerjisi üzrə 23 min MVt, bioenerji üzrə 380 min MVt təşkil edir. Dağ çaylarının potensialı isə 520 MVT qiymətləndirilir.

Son hesablamalara görə, Qarabağ və Şərqi Zəngəzur ərazisində günəş və külək enerjisinin potensialı 10 qiqavat həcmindədir. Beləliklə, Qubadlı, Zəngilan, Cəbrayıl, Xocavənd və Füzuli rayonları günəş enerjisindən istifadə üçün əlverişli ərazilərə malikdir və onların texniki potensialı 7200 MVT-dən çoxdur. Bundan əlavə, ilkin proqnozlara görə, Laçın və Kəlbəcər rayonlarının dağlıq ərazilərində külək enerjisinin texniki potensialı 2 min MVT qiymətləndirilir.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

**Bakı istiqamətindən Goranboya daxil olandan bir qədər sonra yol kənarında səliqə ilə, əksəriyyəti milli-memarlıq ənənələrinə uyğun inşa olunmuş irili-xırdalı müxtəlif sosial obyektlər, o cümlədən ticarət, ictimai iaşə obyektləri, digər müxtəlif təyinatlı tikililər diqqəti cəlb edir. Hiss olunur ki, müvafiq qurumlar, eləcə də rayonun icra strukturları əvvəlcədən onların həm səliqəli, həm də tikinti normalarına uyğun inşa olunmasına xüsusi nəzarət edirlər.**




# Goranboyun "yaşıl dünyası"




Lakin hər dəfə bu ərazilərdən keçərkən yaşıllıqların nisbətən az olması diqqətimizdən qaçmırdı. Bu dəfə isə tamamilə başqa bir mənzərə ilə qarşılaşdıq. Yüzlərlə goranboylu yol kənarında idi və ciddi-cəhdlə boş sahələrdə ağac əkirdilər. Hətta obyektlərin qarşısı asfaltlandığı üçün səliqə ilə dairəvi çalalar açır, orada da müxtəlif növ ağac basdırırdılar.

Rayon icra hakimiyyəti başçısının birinci müavini Seymur Nazarov qayğılı görünürdü. Gah kommunal təsərrüfatı idarəsinin rəhbərinə, gah yaşıllıq idarəsinə, gah da harasa zəng edib daha çox ağac göndərilməsini tapşırırdı: "Az qala, bütün rayon iməciliyə çıxıb, siz necə rəva bilirsiniz ki, onlar ağac gözləsin?!" Sonra da bizə izah edir ki, "bir gün əvvəl güclü leysan yağdığından ağacların torpaqdan çıxarılıb gətirilməsində bir az fasilə yaranır..."

Bir azdan rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev, hüquq-mühafizə orqanlarının rəhbərləri, ağsaqqallar, ziyalılar da bura gəlir. Bizimlə görüşüb hal-əhval tutduqdan sonra rayon rəhbəri deyir ki, ölkəmizdə tezliklə elə bir dünya səviyyəli tədbir keçiriləcək ki, bununla yalnız fəxr etmək, qürurlanmaq lazımdır. Bu, ölkəmizin qüdrətinin nümunəsidir, Azərbaycanın güçünün, dünyadakı nüfuzunun göstəricisidir, cənab Prezidentimizin qələbəsidir, ona olan hədsiz hörmət və inamın ifadəsidir. Gərək hər birimiz bunun nə qədər şərəfli, həm də çox məsuliyyətli bir tədbir olduğunu dərindən fikirləşək. Bugünkü yaşıl aksiya da göranboyluların beynəlxalq tədbirə bir növ növbəti hədiyyəsidir. Digər tərəfdən, məqsəd Goranboyu başdan-başa yaşıllıqlar, gül-çiçək rayonuna çevirməkdən ibarətdir. Bütün obyektlər, yaşayış evləri, səkilər, hasarlar gözoxşayan, səliqəli və gözəl olmalıdır. Evimizə qonaq gələndə nə edirik? Təbii ki, ev-eşiyi sahmana salır, necə deyərlər, qapı-bacanı süpürür, ən yaxşı nəyimiz varsa qonaqlara göstərir, onların razı getməsinə çalışırıq. Azərbaycanımız da bir ailədir, qonaq qarşılamağa hazırlaşırıq. Artıq neçə illərdir ölkəmiz yaşıllaşdırma işində bir nümunə göstərir. Ölkə Prezidentinin təşəbbüsü ilə on min hektarlarla yaşıllıq zolaqları salınıb. Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva, "Ətraf mühitin mühafizəsi naminə" beynəlxalq dialoq ictimai birliyinin – IDEA-nın təsisçisi və sədri Leyla xanım Əliyeva bu sahədə yorulmadan çalışır. Bakıda və bölgələrdə keçirilən tədbirlərin sayı-hesabı yoxdur. Əsrlər boyu heç vaxt yaşıllığı olmayan çöllər indi tamamilə başqa bir görkəmdədir. Goranboyda da çalışırıq ki, bu qədim məkan başdan-başa yaşıllıqlar diyarına çevirək.




...Rayonun digər ərazilərində də bir canlanma gördük. Olimpiya İdman Komleksinin qarşısında və ətrafında, səkilərin kənarlarında müxtəlif növ ağaclar, gül kolları əkən yüzlərlə rayon sakininə rast gəldik. Maraqlı olan bu idi ki, aksiyada yaşlı adamlarla yanaşı, gənclər, yeniyetmələr, hətta kiçik yaşlı məktəblilər də həvəslə iştirak edirdilər. Əyninə əsgər paltarı geyinmiş, sinəsində orden və medalları olan bir nəfər diqqətimizi daha çox sol əlində əsa, digər əlində ağac tutduğu üçün cəlb elədi. Yaxınlaşıb əl tutduq, tanış olduq. Ruslan Əmrahovun şəhərdəki 3 nömrəli məktəbin informatika müəllimi olduğunu öyrəndik. Vətən Müharibəsinin iştirakçısıdır, qazidir. Rayonda keçirilən ən müxtəlif tədbirlərin fəal iştirakçısıdır.

– O 44 gündə Goranboy düşmənin xain hücumlarının qarşısına mətanətlə çıxdı və istər rayonun müdafiəsində, istərsə də Qarabağ uğrunda gedən döyüşlərdə böyük qəhrəmanlıqlar göstərdi, neçə-neçə şəhid versə də, düşmən onun əzmini qıra bilmədi. Meşələrimiz, yaşıllıqlarımız, digər təbii sərvətlərimiz xain qonşular tərəfindən məhv edilsə də, biz onları yenidən, əvvəlkindən də gözəl vəziyyətə gətiririk. Goranboyun harasında belə bir tədbir, iməcilik, aksiya olan kimi, özümü ora çatdırıram. Nəsə əlimdən gələn bir kömək göstərəndə qəlbim dağa dönür, daxilən yüngülləşirəm. Çünki doğma Goranboyumu çox sevirəm.

Qazinin dediklərində böyük həqiqət var. Goranboy son 35 ildə daim atəş altında yaşayıb, lakin rayonu buna görə bir nəfər də olsun tərk etməyib, əksinə, mübarizlik, düşməndən qisas almaq arzusu bu rayonun bütün sakinlərinə sirayət edib. O ki, qaldı yaşıllıqlara, goranboylu ağac əkməyi, gündə, az qala, yüz dəfə onun başına hərlənməyi, meyvə yetişdirməyi, onu dərməyi, lazım gələndə pay verməyi, təbbii ki, məhsulunu satmağı da çox sevir. Gəncənin, Mingəcevirin, hətta Bakının bazarları daim Goranboy meyvələri ilə dolu olur, dadı-tamı da başqalarından seçilir.



Amma təkcə meyvə ağacları ilə rayonu yaşıllıqlar rayonu etmək mümkün deyil. Buna görə də son illər, o cümlədən bu ilin başlanğıcından rayon ərazisində ən müxtəlif ağaclar, o cümlədən dekorativ ağac və gül kolları əkilir, qulluq göstərilir. Yəni bu rayonda son illər yaşıllıqların genişləndirilməsi prioritet məsələlərdən biridir. Belə ki, 10 il bundan əvvəl Goranboy rayonunun ərazisində 2.121.200 ədəd ağac, 3 hektar sahədə 21 min ədəd gül kolu, gül-çiçək və 225 min hektar sahədə yaşıllıq zolağı (ot) olduğu halda hazırda rayonda ağacların sayı 186 min ədəd artırılaraq 3.234.050 ədəd, gül-çiçək əkini sahələri 2,3 hektar artırılaraq 7,3 hektar və yaşıllıq zolaqları 15,8 hektar artırılaraq 265,8 hektara çatdırılmışdır. Yaşıllıq zolaqlarının becərilməsinə xüsusi nəzarət olunur, ağacların və gül kollarının budanması, yaşıllıq (ot) zolaqlarının biçilməsi və suvarılması optimal müddətdə təmin edilir.

Goranboyun heç vaxt yaşıllığı olmayan Eyvazlılar kəndi yaxınlığında, Gəncə–Bakı, Goranboy–Goran, Goranboy–Qızılhacılı–Xan Qərvənd, Dəliməmmədli–Hazırəhmədli, Dəliməmmədli–Qaradağlı, Goranboy–Suqovuşan avtomobil yollarının kənarlarında, Tap Qaraqoyunlu kəndindən keçən hissəsində on minlərlə müxtəlif növ həmişəyaşıl və meyvə ağacı əkilərək qeyd olunan yol kənarları başdan-ayağa yaşıllaşdırılmışdır. Həmçinin Goranboy şəhərinin daxilində və şəhərdən Goran və Qızılhacılı qəsəbələri, Səfikürd, Rəhimli kəndləri istiqamətində minlərlə alyandr kolları və müxtəlif növ ağac, gül kolları əkilmişdir.

Son vaxtlar rayon ərazisində Xan çinar, evkalipt, Eldar şamı, tuya, göyrüş, Palıd və müxtəlif adda 186 min ədəd ağac, 38 min ədəd gül kolları əkilmişdir.

Rayonun Səfikürd, Şadılı, Qarqucaq, Borsunlu, Nizami, Qırıxlı, Səmədabad, Kəhrizli və digər yaşayış məntəqələrində yaşı 400 ildən artıq olan çinar ağacları mövcuddur. Həmin ağaclar əhali tərəfindən yaşayış məntəqələrinin tarixini əks etdirən canlı abidə kimi qorunur. Hətta ağsaqqalların dediyinə görə Şəfəq (Mollavələdin ) kəndi ərazisində yaşı 250 ildən artıq olan Xan Çinarı var ki, 1812-ci ildə Goranboyda məşhur Gülüstan müqaviləsinin bağlanmasına şahidlik etmişdir. Bu ağacın qorunmasını sakinlər xüsusi nəzarətdə saxlayırlar.





Su olmayan yerdə heç bir yaşıllıqdan söhbət açıla bilməz. Bir vaxtlar ermənilərin Qarabağ istqamətindən gələn və rayonun ərazisindən keçən çayların və kanalların qarşısını kəsib başqa istiqmətlərə yönəltdikləri üçün yaşıllıqlara da ciddi ziyan vurulmuşdur.

Lakin bütün bunlara baxmayaraq, rayonda suvarma işlərinin yaxşılaşdırılması istiqamətində icra strukturları müvafiq qurumlarla birlikdə bu vacib məsələnin həllinə əsasən nail olmuşlar. Doğrudur, Goranboyda su təchizatı bu gün də əsas problem kimi qalmaqdadır. Amma işlər gedir və bu da öz səmərəsini göstərməkdədir. Hazırda əkin sahələrinin, yaşıllıqların suvarılması üçün 965 ədəd subertezian quyusu, 16 ədəd nasos stansiyası və ümumi uzunluğu 2019 kilometr olan suvarma kanalları mövcuddur. İlin 9 aylıq yekunlarına dair hesabatda göstərilir ki, "rayonun kəndlərində suvarma suyuna ciddi tələbat olan ərazilərdə 31 ədəd təzə subartezian quyusunun qazılması nəzərdə tutulmuş, ilk mərhələdə Balakürd, Qazançı, Şahməmmədli, Qaradağlı, Borsunlu, Səfikürd və Xoylu kəndlərində qazılması nəzərdə tutulmuş 10 ədəd subertezian quyusunda işlər başa çatmış, 7-də isə elektrik enerjisi ilə bağlı işlər başa çatdırılmaq üzrədir."

...Bu günlər Goranboyda hara baxırsan qızğın iş gedir. Ən diqqətçəkən məqam budur ki, rayon sakinlərinin özləri bu işlərin önündə gedirlər.Təkcə son aylarda magistral yolların kənarlarında vətəndaşlara məxsus fərdi yaşayış evlərinin 3777 kvadratmetr dam örtüyü, 6276 kvadratmetr hasar hissəsi rənglənmiş, min kvadratmetrlərlə evin divar və hasarları suvanmış, qarışıq suvaq-rəngləmə işləri görülmüşdür. Bakı–Qazax magistral avtomobil yolunun kənarlarında 10 mindən artıq müxtəlif növ həmişəyaşıl ağac və gül kolları əkilmişdir. Bütövlükdə isə Tapqaraqoyunlu–Talış avtomobil yolunu da nəzərə alsaq, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təqdim etdiyi layihələr əsasında 461 sahibkarlıq obyektində müasir memarlıq üslubuna uyğun şəkildə abadlıq və yenidənqurma işləri aparılaraq yekunlaşmışdır. Əslində, turizm marşurutları üzrə ən böyük məsafə Goranboy rayonunun payına düşür və goranboylular ağır bir işin öhdəsindən ləyaqətlə gəlmişlər. Bu mövzuda söhbət düşəndə onlar deyir ki, öz evimizi səliqə-sahmana salırıq. Niyə qonaq-qara yanında xəcalətli olaq?!

Bir məsələni qeyd etmək lazımdır ki, Goranboyda ölkə Prezidenti İlham Əliyevin keçən ilin dekabrın 25-də 2024-cü ili "Yaşıl Dünya naminə həmrəylik ili" elan etməsinin ertəsi günündən bu işlərlə məşğul olmağa başlanılmışdır. Rayon icra hakimiyyətinin müvafiq tədbirlər planına uyğun olaraq Goranboyda abadlıq, yaşıllıq, yenidənqurma işlərindən başqa, idarə, müəssisə və təşkilatlarda bu mövzuda 8 konfrans, 13 dəyirmi masa keçirilmiş, icra hakimiyyəti başçısının səyyar qəbullarında, digər tədbirlərdə izahat-təblğat işləri aparılmışdır. "Yaşıl Dünya naminə həmrəylik ili" ilə bağlı 40 ədəd banner hazırlanmış, 4 ədəd banner ekoloji maarifləndirmə məqsədi ilə inzibati ərazi nümayəndəliklərdə – rayonun Goranboy, Dəliməmmədli şəhər, Qızılhacılı qəsəbə və Səfikürd kəndində əhalinin daim toplaşdığı və sıx hərəkəti olan yol kənarlarına yerləşdirilmişdir.

Ola bilsin quru rəqəmlərlə və faktlarla oxucunu yorduq. Amma bu gün Goranboyun küçə və prospektlərinə, yol kənarlarına çıxıb baxdıqda hər yerdən gül ətri gəlir. Bu, təkcə qızıl gül ətri deyil, görülən işin ətridir, qonaq-qaranı, turisti yaxşı qarşılamaq üçün məsuliyyətin ətridir, goranboyluların doğma diyarlarına olan məhəbbətlərinin ətridir. Bunları deməmək, qeyd etməmək etinasızlıq olardı. Goranboylular isə etinasızlığı sevmirlər. Ona görə də özlərinin yaşıl dünyası var və bu dünya ilə həmişə qürurlanırlar. "Yaşıl dünya naminə həmrəylik ili"ndə olduğu kimi.





*Hm let QASIMOV,*
*XQ-nin bölgə müxbiri,*

**Goranboy**

# Sığorta sektorunda islahatlar və davamlı inkişaf

**Risklərlə əhatələnmiş həyatımızda gözlənilməz xərclərin təminatını gerçəkləşdirən ən səmərəli mexanizm məhz sığortadır. Elə buna görə də dünya sığorta bazarları dəyişən şərtlər fonunda, o cümlədən tələb–təklif məntiqinə əsaslanaraq davamlı inkişaf edir, yeni xidmətlərlə istehlakçı risklərini aradan qaldırır. Bəs, ölkəmizdə sığorta sahəsində hansı addımlar atılır? Azərbaycan Sığortaçılar Assosiasiyasının icraçı direktoru Elmar Mirsalayevlə müsahibədə də bu barədə söhbət açılır.**

**– Sığorta sektorunda böyümənin təmin olunması məqsədilə son illərdə həyata keçirilən islahatlar barədə nə deyə bilərsiniz?**

– Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yaxın günlərdə 2024-cü ilin yanvar–sentyabr aylarını əhatə edən 3-cü rüb üzrə sığorta icmalı açıqlanıb. Əldə olunan nəticə böyümə tendensiyasının davamlılığı baxımından diqqət çəkir. Belə ki, hesabat dövrü ərzində yerli sığorta bazarı üzrə 1 milyard 23 milyon 707 min manat sığorta haqqı təmin olunub. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 9,4 faiz çoxdur. Sevindirici haldır ki, müvafiq böyümə sığorta ödənişlərində də müşahidə olunur. Bu mənada cari ilin yanvar–sentyabr aylarında baş verən sığorta hadisələri üzrə 553 milyon 746 min manat sığorta ödənişi həyata keçirilib ki, bu da 2023-cü ilin analoji dövrü ilə müqayisədə 38,3 faiz çoxdur.



Yığımlardakı böyüməyə sektor üzrə təklif edilən əksər sığorta növlərinin kompleks şəkildə təsiri olub. Sektor böyüməsində fəal rol oynayan sığorta növləri sırasında həyatın yaşam sığortası (71,2 milyon manat böyümə), könüllü avtonəqliyyat sığortası – kasko (6,8 milyon manat böyümə), avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası (4,5 milyon manat böyümə), istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta (4,3 milyon manat böyümə ) və əmlakın yanğından və digər risklərdən sığortası (3,5 milyon manat böyümə) kimi sığorta növlərini misal göstərə bilərik.

Xüsusilə vurğulamaq istəyirəm ki, sektor üzrə qeydə alınan dinamik artım və sistemli böyümə ölkəmizdə sığorta sektoruna nəzarətedici orqan olan Azərbaycan Mərkəzi Bankının həyata keçirdiyi məqsədyönlü tənzimləmə siyasətinin, habelə uğurlu sektor islahatlarının bariz göstəricisidir.

Mərkəzi Bankın nəzarətedici orqan olaraq mövcud şərtlər çərçivəsində irəli sürdüyü tələbləri, o cümlədən Azərbaycan Sığortaçılar Assosiasiyasının və digər sektor iştirakçılarının bilavasitə iştirakı ilə ötən dövr ərzində bu sektorda stimullaşdırıcı tədbirlər, məqsədyönlü islahatlar həyata keçirilib.

Bu sırada ilk olaraq biz son dövrlərin aktual mövzusu olan həyat sığortalarındakı yenilikləri misal göstərə bilərik. Belə ki, Azərbaycan Mərkəzi Bankının qərarı ilə "Fiziki şəxslərə təqdim edilən kredit müqavilələri üzrə borcalanın həyatının ölüm halından və əmək qabiliyyətinin itirilməsi hallarından sığortası Qaydaları"na və "Banklarda kredit risklərinin idarə edilməsi Qaydası"na əlavə və düzəlişlər təsdiq edildi. Müvafiq qaydalar istehlak krediti götürən şəxslərin həyatının sığortası məhsulunun təminat dairəsini genişləndirdi və məhsula olan əlçatanlıq şərtlərini sadələşdirdi. Əminəm ki, artıq istehlakçıların xidmətində olan bu yenilənmiş "Kredit həyat sığortası" məhsulu vətəndaşlarımızın həyat risklərini optimal şərtlərlə təminat altına almaqla yanaşı, ölkəmizdə ümidsiz kredit probleminin tədricən və mərhələli şəkildə aradan qaldırılmasına təkan verəcək.

Ötən 2 ilə nəzər saldıqda isə daşınmaz əmlakların sığortası ilə bağlı uzun müddətdir ki, mövcud olan problemin aradan qaldırılması məqsədilə həyata keçirilmiş islahatı qeyd edə bilərəm. Belə ki, artıq 2023-cü il iyunun 1-dən etibarən həm daşınmaz əmlakın icbari sığortası, həm də daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası növləri üzrə şəhadətnamələrin elektron formada buraxılmasına başlandı. Həmçinin qeyd olunan tarixdən etibarən İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti ilə İcbari Sığorta Bürosu arasında elektron informasiya inteqrasiyası prosesi yekunlaşdı və nəticədə daşınmaz əmlak sığortaları ilə bağlı nəzarət mexanizmi formalaşdırıldı.

Ötən dövr, eyni zamanda, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığortası ilə bağlı bir sıra islahatlarla da yadda qaldı. Belə ki, ölkəmizdə fəaliyyət göstərən və avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası növünün satışı ilə bağlı lisenziyaya malik bütün qeyri–həyat sığorta şirkətlərində adı çəkilən növ üzrə elektron satışlar tam təmin olundu. Həmçinin yenə avto–icbari sığorta növü üzrə Azərbaycanda, bəzi inkişaf etmiş ölkələrin sığorta bazarları üçün hələ də arzu olaraq qalan zərərlərin birbaşa tənzimlənməsi sisteminə keçid edildi ki, bu da müvafiq sığorta növü üzrə hadisələrin çevik tənzimlənməsinə, nəticə etibarilə sığorta istehlakçılarında müştəri məmnuniyyətinin təmin olunmasına təkan verdi. Avto–icbari növ üzrə həyata keçirilən tədbirlərdən biri də bu növə dair baza sığorta haqqı saxlanılmaqla yeni risk əmsallarının tətbiqi oldu. Bu yenilik də öz-özlüyündə sığortada ədalətli yanaşmanın bərqərar olmasını reallaşdırdı.

Təbii ki, islahatlar bununla kifayətlənmir. Azərbaycan Mərkəzi Bankı tərəfindən tərtib edilən və sektorun dayanıqlı inkişafını hədəfləyən "2024–2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası" sənədi yerli sığorta bazarı üçün strateji inkişaf xəritəsi kimi çox əhəmiyyətlidir. Müvafiq strategiyadan irəli gələn və növbəti dövr ərzində həyata keçirilməsi planlaşdırılan məqamların nəticəsi olaraq ölkəmizdə sığorta xidmətlərindən istifadə üzrə penetrasiyanın 3 dəfəyə qədər artması, sığorta yığımlarının ÜDM-dəki payının isə 5 faizə yüksəlməsi bizim başlıca hədəfimiz və məqsədimizdir.

**– İstənilən sahədə maarifləndirmə başlıca istiqamətlərdəndir. Bəs sığorta sektoru maarifləndirmə ilə bağlı işlər görürmü?**

– Maliyyə xidmətlərinin sürətlə inkişaf etdiyi, təkmilləşdiyi əsrimizdə maliyyə savadlılığının, ələlxüsus da sosial-iqtisadi müdafiə mexanizmi olan sığorta ilə bağlı maarifləndirmənin təşkili təkcə bu gün üçün yox, bütün dövrlər üçün aktual mövzudur. Bu istiqamətdə də sığorta sektoru sistemli tədbirlər həyata keçirir. Belə ki, 2020-ci ildə Azərbaycan Mərkəzi Bankı, Azərbaycan Sığortaçılar Assosiasiyası və İcbari Sığorta Bürosu arasında "Sığorta savadlılığının artırılması, maarifləndirmə, təbliğat və qarşısıalınma tədbirlərinin sistemli və ardıcıl həyata keçirilməsinə dair qarşılıqlı anlaşma haqqında" Memorandum imzalanıb. Artıq 4-cü ildir ki, sığorta sektoru əhalidə sığorta savadlılığının artırılması məqsədilə sistemli addımlar atır.

Maarifləndirmə tədbirləri çərçivəsində media vatisələri ilə, habelə ictimai məkanlarda sığortaya təşviq və məlumatlandırma işləri görülür, müxtəlif sektor və seqment iştirakçıları üçün silsilə sığorta seminarları təşkil olunur. Ən əsası isə memorandum çərçivəsində 2 il ərzində ölkədə geniş "Sığorta festivalı" həyata keçirildi ki, bu da əhalinin sığortaya cəlb olunması baxımından ciddi rol oynayıb. Görülən bu tədbirlərin nəticəsi dövri sığorta icmallarında da böyümə dinamikası ilə öz əksini tapıb.

**– Yerli sığorta sektorunun beynəlxalq əlaqələri bu gün hansı səviyyədə inkişaf etdirilir?**

– Beynəlxalq əlaqələr dünya təcrübəsinin öyrənilməsi və qloballaşma baxımından ciddi əhəmiyyətə malikdir. Biz də sığorta sektoru olaraq həm dünya sığorta bazarları ilə qarşılıqlı əlaqələrimizi inkişaf etdirir, o cümlədən sektor üzrə həyata keçirdiyimiz islahatlarda dünya təcrübəsindən yararlanırıq.

Azərbaycan Sığortaçılar Assosiasiyası sektorun beynəlxalq əlaqələrinin formalaşdırılması istiqamətində əsaslı addımlar atır. Belə ki, bu yöndə artıq Türkiyə, Rusiya, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Pakistan, Macarıstan və s. kimi ölkələrlə qarşılıqlı əməkdaşlıq qurmuş, habelə dünya sığortaçılar təşkilatı olan "Global Federation of Insurance Associations" və Avropa sığortaçılar təşkilatı olan "Insurance Europe"ya üzvlüyümüzü təmin etmişik.

Sevinc və qürur hissi ilə bildirmək istəyirəm ki, Türkiyə ilə olan qarşılıqlı əməkdaşlığımız yalnız iki ölkəni yox, bütövlükdə, türk dünyasını əhatə edir. Belə ki, assosiasiyamız ilə Türkiyə Sığorta Birliyinin birgə təşəbbüsü çərçivəsində 2022-ci ilin may ayında Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın sığorta birliklərinin iştirakı ilə dünyada ilk dəfə "Türk Dünyası Sığorta Birliyi" təsis olundu. Sevindirici haldır ki, qurduğumuz bu birlik qısa zamanda Türk Dövlətləri Təşkilatının diqqətini çəkdi və bu gün biz TDT-nin təşəbbüsü və müraciəti əsasında Türk Dünyası Sığorta Birliyinin TDT-nin himayəsinə daxil edilməsi istiqamətində iş aparırıq. Hesab edirik ki, bu Birlik türk dünyası ölkələrinin sığorta bazarları üçün yeni inkişaf imkanları yaradacaq və bu qlobal layihədə Azərbaycanı təmsil edən assosiasiyamız yeni yaradılan qurumda strateji hab rolunu oynayacaq.

Beynəlxalq layihələrdən söz düşmüşkən, ölkəmizdə uzun müddətdən sonra bərpa edərək həyata keçirdiyimiz 10-cu "Azərbaycan Beynəlxalq Sığorta Forumu"nu, o cümlədən yeni sığorta texnologiyalarına həsr olunmuş "InsurTech Zirvəsi"ni misal göstərə bilərəm. Çünki həyata keçirdiyimiz bu kimi beynəlxalq tədbirlər yerli bazar iştirakçılarımız üçün qlobal inkişafa açılan yeni bir pəncərə əhəmiyyəti daşıyır.

**– Müsahibəmizin əvvəlində cari ilin 9 ayına olan sığorta icmalını təhlil etdiniz. Maraqlıdır, 2024-cü ilin sonuna olan proqnozlarınız nə yöndədir?**

– Bu gün əminliklə deyə bilərəm ki, sığorta sektorumuz davamlı və dayanıqlı böyümə xətti üzrə sağlam addımlarla irəliləyir. Bu böyümə tendensiyasını növbəti dövrlərdə də müşahidə edəcəyimizə inanıram. Ölkə iqtisadiyyatının və maliyyə sisteminin əsas böyümə və hədəf indikatorlarını müəyyənləşdirən və ölkə başçısı tərəfindən təsdiqlənmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədlərində sığorta sektoru üçün böyümə hədəfi 10 faiz həcmində müəyyənləşdirilmişdir. Bildirmək istəyirəm ki, sığorta sektoru olaraq artıq ikinci ildir ki, biz bu hədəf minimumunu üstələyirik. Belə ki, 2022-ci ildə bazar böyüməsi 15 faiz, 2023-cü ildə isə 26% faiz həcmində olub.

Əminliklə bildirim ki, cari ilin yekun nəticələrində bu böyümə trendi bir tendensiya kimi davam edəcək. Proqnozlara gəldikdə isə, 2024-cü ilin yekununda sığorta yığımlarının 1 milyard 400 milyon manatı ötəcəyini ehtimal edirik. Bu da ötən ilin nəticələri ilə müqayisədə 10 faizdən çox böyümə deməkdir.

*Müsahibəni apardı:*
*Pünhan ƏFƏNDİYEV*
*XQ*

ELM VƏ TƏBABƏT

# Koronavirus immun səddini necə aşır?



**Yeni koronavirus – SARS-CoV-2 hüceyrənin viruslara qarşı təbii müdafiə mexanizminə qarşı dözümlü bir fermentə malikdir. Bu da fermentin "SARS" və "MERS"-ə səbəb olan əvvəlki viruslardan daha yoluxucu olmasının əsas səbəbidir. Yaponiyanın Kobe Universitetinin virusoloqlarının yeni kəşfi gələcəkdə bu və buna bənzər xəstəliklərə qarşı daha təsirli dərmanların hazırlanmasına yol aça bilər.**

"Scientific Russia" portalı yazır ki, virus hücum edən zaman ona qarşı orqanizmin immun reaksiyası işə düşür. Qeyd edilir ki, insan orqanizmi anadangəlmə və sonradan qazanılmış immunitet kimi 2 əsas müdafiə sistemi daşıyır. Qazanılmış immun sistemi orqanizmin virusa təkrar-təkrar yoluxması, bununla spesifik patogenə qarşı gücləndirilməsi nəticəsində və vaksin vurulmaqla yaranır. Anadangəlmə – təbii immunitet isə əsas səviyyədə genişspektrli patogenlərə qarşı molekulyar mexanizmlər toplusudur.

Kobe Universitetinin virusoloqu Şoji İkuo deyib: "Yeni koronavirus o qədər yoluxucudur ki, virusun anadangəlmə immun sistemindən bu qədər təsirli şəkildə yayınması üçün hansı "ağıllı" mexanizmlərdən istifadə etdiyinə təəccüb edirik."

Şojinin komandası əvvəllər hepatit viruslarına qarşı orqanizmin immun reaksiyasını öyrənib və təbii immun sisteminin virusun struktur elementlərinə bağladığı "ISG15" adlı molekulyar etiketin rolunu araşdırıb. Yeni koronavirusun bu etiketi silməkdə xüsusilə təsirli ferment daşıdığını öyrənən alim həmin etiketin koronavirusa təsirini və virusa qarşı mübarizə mexanizmini öyrənmək üçün komandasının təcrübəsindən istifadə etmək qərarına gəlib.

"Journal of Virology" nəşrində dərc olunan məqalədə Kobe Universitetinin rəhbərlik etdiyi komanda ilk dəfə "ISG15" etiketinin patogenin genetik materialını qablaşdıran virusun nukleokapsid zülalında müəyyən bir yerə yapışdığını açıqlayıb. Bildirilib ki, virusun yığılması üçün nukleokapsid zülalının bir çox nüsxəsi bir-birinə yapışmalıdır. Lakin "ISG15" etiketi bunun qarşısını alır. Çünki etiket antiviral təsir mexanizmidir. Şoji bu məsələni belə izah edir. "Lakin, yeni koronavirusun nukleokapsidindən etiketləri çıxara bilən, yeni virusları toplamaq qabiliyyətini bərpa edən və bununla da anadangəlmə immun reaksiyasını aradan qaldıran bir ferment var".

Yeni koronavirusun eyni ailəyə aid olan "SARS" və "MERS" virusları ilə çox oxşarlığı var. Bu viruslarda "ISG15" etiketini çıxara bilən bir fermentin olduğu təsdiqlənib. Bununla belə, Şojinin komandası müəyyən edib ki, onların versiyaları bu işdə yeni koronavirusda mövcud olandan daha az təsirlidir. Üstəlik, bu yaxınlarda məlum olub ki, əvvəlki viruslardan olan fermentlərin əsas məqsədi daha fərqlidir. Virusoloq deyib: "Bu nəticələr göstərir ki, yeni koronavirus təbii immunitet sisteminin müdafiə mexanizminin bu aspektini hədəfləməkdə daha yaxşıdır və onun niyə bu qədər yoluxucu olduğunu izah edir".

Yeni koronavirusun yoluxuculuğunun bu qədər təsirli olduğunu başa düşmək, yeni müalicə üsullarını inkişaf etdirməyin yolunu da göstərir. Tədqiqatçı Soji İkuo bunu belə izah edib: "Əminliklə deyə bilərik ki,"ISG15" etiketini aradan qaldıran viral fermentin funksiyasına manea törədə bilsək, yeni antiviral dərmanlar yarada bilərik. Gələcək terapevtik strategiyalara indiyədək istifadə edilən preparatlarla yanaşı, birbaşa nukleokapsid zülalını hədəf alan antiviral dərmanlar və ya bu 2 yanaşmanın kombinasiyası da daxil ola bilər".

*Z.BAYRAM*
*XQ*

# Mina problemi müzakirəsi

**Dünən Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi ilə Qarabağ Dirçəliş Fondunun donor və tərəfdaşlarının iştirakı ilə işgüzar görüş keçirilib.**

Böyük Qayıdış planının daha sürətli icra olunması üçün qarşıda duran ən böyük vəzifələrdən biri olan ərazilərin minalardan təmizlənməsi prosesində ANAMA-nın fəaliyyətinə dəstək göstərmək məqsədilə təşkil olunan tədbirdə rəsmi şəxslər, deputatlar, Qarabağ Dirçəliş Fondunun donor və tərəfdaşları və media nümayəndələri iştirak ediblər.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev işğaldan azad edilmiş ərazilərdə ermənilər tərəfindən yerləşdirilən minaların həmin ərazilərdə həyata keçirilən bərpa və quruculuq işlərinə ciddi manea törətdiyini bildirərək, bu problemin həllində hər kəsin həmrəylik nümayiş etdirməsinin vacibliyini vurğulayıb: "Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfər nəticəsində işğaldan azad edilmiş ərazilərimizdə bərpa və yenidənqurma işlərinin təşkili, Qarabağın dirçəlişi bu gün bütün Azərbaycan ictimaiyyəti və dövlət qurumlarının qarşısında duran mühüm vəzifələrdən biridir. Lakin erməni işğalçıları tərəfindən həmin ərazilərdə yerləşdirilən minalar Qarabağda həyata keçirilən bərpa və quruculuq işlərinin daha sürətlə aparılmasına, eyni zamanda, 30 il müddətində doğma yurdlarından didərgin düşmüş məcburi köçkünlərin öz evlərinə və gündəlik həyatlarına geri dönməsinə ciddi manea törədir. Bu məsələnin aktuallığı və miqyasının olduqca böyük olması mina probleminin həlli üçün daha çox resursların səfərbər edilməsini, eləcə də cəmiyyətin bütün üzvlərinin bu işdə həmrəylik nümayiş etdirməsini zəruri edir".

"Azərlotereya" ASC-nin İdarə Heyətinin sədri Osman Karakuş da işğaldan azad edilmiş ərazilərin bərpası, minalardan təmizlənməsi istiqamətində həyata keçirilən işlərə dövlət qurumları ilə yanaşı, şirkətlər tərəfindən də dəstəyin göstərilməsinin vacibliyini vurğulayıb.

ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən minatəmizləmə əməliyyatları ilə bağlı geniş məlumat verib.



Sonra işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsinə və Böyük Qayıdış prosesinin sürətlənməsinə töhfə vermək məqsədilə "Azərlotereya" ASC tərəfindən alınmış üç minaaxtaran it QDF-in vasitəçiliyi ilə ANAMA-ya hədiyyə edilib. ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov bununla bağlı sertifikatları Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev və "Azərlotereya" ASC-nin İdarə Heyətinin sədri Osman Karakuş təqdim ediblər.

Tədbirdə QDF-in fəaliyyətinə verdikləri dəstəyə görə "Azərlotereya" ASC-yə xüsusi "Təşəkkür sertifikatı", "Caspian Event Organisers" və "R Group Holding" şirkətlərinə isə "İanə sertifikatı" təqdim olunub.

Qeyd edək ki, tədbir zamanı QDF tərəfindən icra olunmuş layihələr və təşkil olunmuş tədbirlər, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işləri, keçən il yerli sahibkarlar tərəfindən alınaraq QDF vasitəsilə ANAMA-ya hədiyyə edilən "Revival P" minatəmizləmə maşını və ANAMA-nın fəaliyyətinə həsr olunan videoçarxlar da tədbir iştirakçılarına nümayiş etdirilib.

*XQ*

Təqvim yada salır

# Bəstəkar, pedaqoq, ifaçı

**Bir-birindən gözəl, yaddaqalan musiqi bəstələmək hər sənətkara nəsib olmur. Musiqi incəsənətin ən kövrək və qəlbə yaxın bir sahəsidir və buna görə onu özünün həyat kredosu seçənlər də qəlb adamı olmalıdırlar. Bu mənada, Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti, professor, bəstəkar, "Şöhrət" və "Şərəf" ordenli Siyavuş Kərimini böyük ürək sahibi adlandırmaq olar.**

Varlığına gənclik ruhu hakim kəsilmiş Siyavuş müəllimin artıq ömür təqviminin 7-ci onilliyinə qədəm qoyduğuna adamın heç inanmağı gəlmir. Çünki o, qəlbi işıqlı, qəlbi nəğməli, ruhu hər zaman gənc olan insandır. Görkəmli ziyalının anadan olmasının 70 illik yubileyi ərəfəsində onun həyat yoluna nəzər salmaq, yaradıcı, eləcə də ictimai-siyasi fəaliyyətini vərəqləmək istədim.



Xalqına, millətinə layiqli övlad olmağa çalışan Siyavuş müəllim Tanrı tərəfindən ona həvalə olunmuş bu missiyanı layiqincə icra edir və bundan xüsusi zövq alır. Sadəliyi, zəhmətkeşliyi və xeyirxahlığı ilə xalqının sevgisini qazanıb. Geniş diapazonda fəaliyyəti ilə diqqəti cəlb edən Siyavuş Kərimi parlaq istedad sahiblərindəndir. Həyata, musiqiyə, gözəlliyə aşiq olan sənətkarın yaratdığı irs heyranlıq doğurur. O, rəngarəng yaradıcılıq palitrasına malik olan, müasir musiqinin nailiyyətlərindən uğurla istifadə edərək, musiqimizi milli-mədəni ənənələr əsasında zənginləşdirən şəxsiyyətdir. Onun bütün əsərləri səmimiyyəti, dərinliyi və fərdiliyi ilə seçilir. Bu əsərlər yalnız musiqi dünyasında deyil, həm də böyük mədəniyyət arenasında əhəmiyyətli izlər buraxıb.

Ötən əsrin 70-ci illərindən müstəqil yaradıcılıq yoluna qədəm qoyan Siyavuş Kəriminin professional bəstəkarlıq fəaliyyəti 3 istiqamətdə inkişaf etmişdir: mahni janrında bəstələr və aranjiman, teatr musiqisi və kino musiqisi. Gözəl mahnılar müəllifi olan bəstəkar, ölkənin film sahəsində müstəsna işlər görərək, öz musiqisi ilə görüntülərə əlavə emosional dərinlik qatmışdır. Bu melodiyaların hər biri özünəməxsus üslubu ilə filmləri daha da unudulmaz edir. Siyavuş Kərimi "Sarı gəlin", "Sonuncu döyüş", "Əlvida, cənub şəhərim", "Girov" və s. bədii filmlərə, 9 seriyadan ibarət "Heydər Əliyev" televiziya filminə, 2 animasiya filminə və 10-dan artıq teatr tamaşasına musiqi bəstələmişdir. Akademik Milli Dram Teatrının səhnəsində U.Şekspirin eyniadlı faciəsi əsasında hazırlanmış "Hamlet" tamaşasının musiqisinə görə 2003-cü ildə "Qızıl Dərviş" mükafatına layiq görülmüşdür.

Sənətkarın əməyi dövlət səviyyəsində hər zaman yüksək qiymətləndirilib. O, 2005-ci ildə "Azərbaycan Respublikasının Xalq artisti" fəxri adını alıb, 2014-cü ildə musiqi təhsili sahəsində səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə, 2020-ci ildə isə "Şərəf" ordeni ilə təltif edilib. Dövlət mükafatları onun sənətinə verilən qiymətin göstəricisidir.

Siyavuş Kərimi yalnız musiqi sahəsində tanınmış bir bəstəkar deyil, o, həm də bir pedaqoq kimi məhsuldar fəaliyyət göstərir. Gənc musiqiçilərin yetişməsinə, onların yaradıcılıq potensialının inkişafına və musiqi mədəniyyətinin zənginləşməsinə böyük töhfə verir. Müxtəlif metodik vəsaitlərin müəllifi olan Siyavuş Kərimi 2 cilddən ibarət "Azərbaycan xalq mahnıları" məcmuəsinin, eyni zamanda, "Saz məktəbi" dərsliyinin həmmüəllifi, tərtibçisidir. Bu dərslik saz üzrə musiqi təhsilini daha da inkişaf etdirmək və gənc istedadların yetişməsinə kömək etmək məqsədi daşıyır.

Siyavuş müəllim sənətində və üslubunda mövqeyini səmimiyyətlə və sərbəst ifadə edən bir insandır. Böyük şövqlə yazdığı əsərlər yalnız musiqi deyil, eyni zamanda bir həyat fəlsəfəsidir. Onun sənəti duyğuların, xəyalların və real həyatın harmoniyasını əks etdirir. Bu cür səmimi və sərbəst ifadə tərzi onu müasir sənət aləmində fərqləndirən amillərdəndir. Bəstəkar, sanki, musiqinin hər bir notunda özünü tapır, bu da onun yaradıcılığını daha da dəyərli və özəl edir.

Bəllidir ki, ölkələrarası ortaq layihələrin həyata keçirilməsi Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin inkişafına böyük təsir göstərir. Siyavuş Kərimi çağdaş musiqi tariximizdə beynəlxalq miqyaslı bir çox layihələrin müəllifi kimi də tanınır. Bunlardan bir neçəsi haqqında danışmaq istərdim.

2002-ci ildə əsası qoyulan"Trans Atlantik Non Stop", 2011-ci ildə hazırlanan "Salam-Hola" layihələri Latın Amerikası və Azərbaycan musiqiçilərinin birgə əməkdaşlığına şərait yaratmışdır. Daha sonra Norveçin "Skruk" xoru və azərbaycanlı musiqiçilərin birgə təşkilatçılığı ilə "The land We came from" layihəsi həyata keçirilmişdir. Həmçinin 2007-ci ildə Norveçin "Kirkelis Kulturverskted" şirkəti ilə bağlanmış müqaviləyə əsasən, "Trans Atlantik Non Stop" marka adı altında albom hazırlanmışdır. Bu layihələr mədəniyyətlər arasında körpü quraraq, beynəlxalq əməkdaşlığı gücləndirmiş, fərqli mədəniyyətlərin harmoniyasını nümayiş etdirərək, dinləyicilərə unudulmaz bir təcrübə təqdim etmişdir.

Bu qədər gərgin yaradıcılıq işlərinin arasında Siyavuş Kərimi 2001-ci ildən Azərbaycan Milli Konservatoriyasında rektor kimi uğurlu fəaliyyət göstərərək, çox böyük işlər görür. "Hazırda mənim ən böyük əsərim Milli Konservatoriyadır və bu sənət məbədi ilə yaşayıram" – deyən sənətkar 23 ildir ki, öz vəzifə və vətəndaşlıq borcumu dürüst və vicdanla yerinə yetirir. Bu gün onun rəhbərliyi altında konservatoriyada milli musiqi mədəniyyətinin öyrənilməsinə, tədqiqinə, qorunmasına, inkişafına, eləcə də dünyaya inteqrasiyasına mühüm əhəmiyyət verilir. AMK ilə digər dünya ölkələri arasında təhsil müəssisələrində davamlı tədbirlər, konfrans və müştərək layihələrin keçirilməsi nəzərdə tutulan işlər sırasındadır.

Əlbəttə, böyük bir yaradıcı kollektivə rəhbərlik etmək heç də asan iş deyil, lakin Siyavuş müəllim özünün tələbkarlığı, səmimiyyəti, sadəliyi, zəhmetsevərliyi və xeyirxahlığı ilə kollektivin sevgisini qazanıb. Mən Siyavuş müəllimi bu gözəl kollektivdə işləməyə başlayandan – 2006-cı ildən yaxından tanımışam. İlk baxışdan bir qədər sərt görünsə də, əslində, elə olmadığının uzun illərdir şahidiyəm. Fikrimcə, insani xüsusiyyətlər ən mühüm və dəyərli olan amillərdəndir ki, bu da Siyavuş müəllimdə var. Uşaqla-uşaq, böyüklə-böyük olmağı bacaran insandır Siyavuş müəllim.

Mənalı ömrünü musiqiyə həsr edən Siyavuş Kərimi onillərdir ki, Azərbaycan incəsənəti üçün yorulmadan çalışır. Onun yaradıcılığına nəzər saldıqda bunun gündəlik həyatımızı əhatə edən, aktual problemlərlə səsləşən bir yol olduğunu müşahidə edirik. Bu yol Siyavuş müəllimi sabahın daha uca zirvələrə səsləyir. Bu yol, sözün əsl mənasında, işıqlı və sevda dolu bir yoldur. Yolunuz həmişə belə işıqlı olsun, Siyavuş müəllim. Musiqinizlə, sevginizlə və ilhamınızla bizləri daha çox xoşbəxt etməyə davam edin!

Yibileyiniz mübarək!

***Jalə QULAMOVA,***
***Azərbaycan Milli Konservatoriyasının etnomusiqşünaslıq kafedrasının müdiri, professor***

# Hər kitab bir dünyadır

## Peyğəmbər haqqında toplu

***Azərbaycan Dövlət Tərcümə Mərkəzinin Tərcümə Agentliyi görkəmli rus yazıçısı Vera Panova və oğlu – akademik Yuri Vaxtinin həmmüəllifliyi ilə qələmə alınmış "Məhəmməd Peyğəmbərin həyatı" kitabını nəşr edib.***

Məhəmməd peyğəmbərin həyatı bir çox şair-yazıçıların diqqətini cəlb edib. Müxtəlif zamanlarda peyğəmbərdən bəhs edən maraqlı əsərlər yazılıb. Yeni kitab da bu mövzuda ərsəyə gəlmiş ən yaxşı əsərlərdəndir. Müəlliflər real tarixi hadisələrə




müraciət edib, ağlın-kamalın, mərifətin və mənəvi eşqin bəşəriyyət üçün zəruri əhəmiyyətini göstəriblər. Peyğəmbərin həyatı, şəxsiyyəti, eləcə də bəşəriyyətin sonuncu səmavi dini sayılan İslamın yaranması və yayılması haqqında müfəssəl, təfərrüatlı tarixi bilgilər əsasında ərsəyə gətirilmiş kitaba "Ərəb adası", "Məkkə", "Peyğəmbərin uşaqlıq illəri", "İlk vəhy", "Təqiblər", "Ağır illər", "Hicrət", "Müharibə" kimi 25 adda fəsil daxil edilib. Bunları oxuduqca təsirli məlumatlar fonunda həm dini bilgilər artır, həm də peyğəmbərlərin həyatından ibrət dərsi çıxarmaq imkanı yaranır.

Əsərin rus dilindən tərcümə müəllifi tanınmış alim, filologiya elmləri doktoru, professor Vilayət Quliyev, redaktoru Mahir N.Qarayevdir.

## Şairin yubiley hesabatı




***Musa Ələkbərlinin "Sözün qiyaməti qopan yerdəyəm" adlı şeirlər və poemadan ibarət kitabı işıq üzü görüb ("Elm və Təhsil" nəşriyyatı. 776 səhifə).***

Bundan bir neçə ay öncə Musa Ələkbərlinin publisist Rauf Vəliyevin birlikdə ərsəyə gətirdikləri "Arazı adlayan məktublar" adlı kitabı da nəşr olunmuşdu.

Yeni kitabında isə şairin son 20 ildə qələmə aldığı şeirlərinin mühüm bir hissəsi toplanıb. Yurd sevgisi, vətəndaşlıq yanğısı müxtəlif mövzularda qələmə alınmış bu şeirlərin içindən sarı bir sim kimi keçir. Şair nədən yazırsa-yazsın, sevgi ilə yazır, poetik tapıntılarına ürəyinin odunu-közünü qatır.

Əhatəli və geniş "Ön söz"ü yazıçı İradə Aytelə məxsus olan yeni kitabda Qarabağ dərdi və vətənimizin bütövlüyü uğrunda qəhrəman oğullarımızın milli mücadiləsinə həsr olunmuş şeirlər xüsusi maraq doğurur. Milli Qəhrəmanımız Mübariz İbrahimovdan bəhs edən "Mübarizlik dərsi" poeması Musa Ələkbərli yaradıclığının uğurlu nailiyyəti kimi diqqəti cəlb edir.

Müəllifin 75 illik yubileyi münasibətilə çapdan çıxmış bu kitab onun sayca 16-cı şeirlər kitabıdır.

## "Ağlama, qar yağacaq"

***"Qobustan" jurnalının baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru, yazıçı-dramaturq Pərvin Nurəliyevanın Türkiyədə yeni kitabı çap olunub.***

Qeyd edək ki, kitabın buraxıldığı qardaş ölkənin tanınmış "Ketebe" yayımları nəşriyyatı Türk dünyası ədəbiyyatı nümunələrini silsilələrlə dərc edir. Pərvin Nurəliyevanın bədii əsərlərinə də diqqət




çəkən nəşriyyat onun pyes və hekayələrindən ibarət toplunu "Ağlama, qar yağacaq" adı altında oxucuların ixtiyarına verib. Kitabın tərcüməsi yazıçı, Türk Ədəbiyyatı Jurnalının baş redaktoru İmdat Avşardır.

Buna qədər isə Pərvinin Türkiyədə 5 kitabı – "Hava limanı", "Kadın", "Çağının önündə bir yazar – Anar", "Balerin", "Anarın dünyası" işıq üzü görüb və geniş oxucu kütləsinin marağına səbəb olub. Ayrıca olaraq onun "Mən öləndə ağlama" pyesi də Türkiyə teatrında səhnələşdirilib.

Yeni kitabı Pərvinin özünəməxsus zərif yazı manerası, seçdiyi mövzulara fərdi yanaşma qabiliyyəti olduğunu göstərir. Onun hekayələrində emosional cizgilər, duyğulu variasiyalarla yanaşı, dərin psixoloji qatlar da diqqət çəkir.

***Ə.DOSTƏLİ***
***XQ***

Arif Əmrahoğlu – 70

**Azərbaycan ədəbi cameəsi üçün son dərəcə ağır bir itki olan Arif Əmrahoğlunun (Məmmədov) vəfatından bir ilə yaxın vaxt keçsə də, milli ziyalılığımızın böyük nümunəsi haqqında özümü toparlayıb bir yazı yazmamağımın səbəbini hələ də özüm üçün müəyyənləşdirə bilmirəm. Görünür, böyük itkilərin yerini doldurmaq, onun ağır izlərini qəbul etmək o qədər də asan olmur və mənə elə gəlir ki, ədəbi, elmi cameə hələ də Arif Əmrahoğlu itkisi ilə hesablaşmaq istəmir.**

# Arif sözü–Arif özü

Bilirəm ki, dostlarımızdan bir çoxu bu görkəmli alimin, əvəzedilməz insanın yoxluğu ilə bağlı çox təsirli yazılar yazsa da, mənim kimi borclu qalanları da çoxdur. Bir şey aydındır ki, Arif Əmrahoğlu haqqında yazılan bütün yazılar səmimi olduğu qədər də, onun həyatdakı, cəmiyyətimizdəki və elmi-ədəbi cameəmizdəki yerini və mövqeyini, layiq olduğu qiyməti verməyə yönəlmişdir. Çünki Arifin özü də hər hansı bir məqalə, resenziya yazarkən bu şərtlərə mümkün qədər əməl edirdi; Arif arif adam idi, əsl ziyalı idi, sözü duyur, ona dəyər verirdi. Arif bütün varlığıyla söz adamı idi, Arifin sözü–Arifin özü idi. Kiməsə xeyirxahlığını, dəyərli məsləhətlərini heç zaman əsirgəməzdi...



Ariflə mənim tanışlığım Nizami adına Ədəbiyyat İnstitutunda başlamışdı; mən aspiranturaya daxil olarkən artıq o, institutda işləyirdi, elmi ədəbiyyatşünaslıq mühitinin mərkəzində görkəmli alimlər, tənqidçilərlə birgə çalışırdı. Özünün şəxsi mütaliəsi, nəzəri biliyi ilə hörmət qazanmışdı, necə deyərlər, gənc olmasına rəğmən, hamı tərəfindən tanınır, qəbul edilirdi. Gənclərin çap imkanlarının son dərəcə sınırlı olduğu sovetlər dönəmində ara-sıra onun ədəbi orqanlarda hekayələri, tərcümələri, elmi məcmuələrdə sanballı məqalələri dərc olunurdu. İlk məqalələri və tədqiqatlarında problemin qoyuluşu, eləcə də elmi-nəzəri araşdırmanın səviyyəsi onun gələcəkdə görkəmli bir alim olacağından xəbər verirdi. Ən əsası isə o idi ki, Arif Əmrahoğlu nəzəri savadından, elmi, ədəbi-tənqidi təfəkküründən sui-istifadə etmirdi, çoxları kimi üzdə, yaxud vəzifədə olan yazıçı, şair, jurnal redaktorlarının əsərlərini tərifləyərək asan yolla getməyi özünə yol seçməmişdi. Halbuki o dövrdə bu yolla gedərək ədəbi mühitdə özünə çox sürətlə ədəbi, elmi karyera quranlar az deyildi. Arif isə bu yolu seçmədi; klassik ədəbiyyatşünaslıq yolu ilə gedərək, Azərbaycan nəsrinin bədii axtarışları ilə məşğul oldu. "Klassik Azərbaycan nəsrində təhkiyə məsələləri (XIX əsrin ikinci yarısı)" mövzusunda yazdığı namizədlik dissertasiyası elmi mühitdə razılıqla qarşılandı. Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq "Aldanmış kəvakib" və "Danabaş kəndinin əhvalatları" əsərləri əsasında təhkiyənin strukturu, xarakteri və tipi araşdırılaraq müəyyən nəticələrə gəlinirdi. Bir qədər sonra "Nəsrin poetikası" adı ilə çap olunan (Bakı, Elm, 1990) bu araşdırma tədqiqatçıların ən çox istifadə etdiyi elmi-nəzəri mənbələrdən biri kimi bu gün də əhəmiyyətini qoruyub saxlayır.

80-ci illərin ortalarından başlayaraq, Arif Əmrahoğlunun ədəbi fəaliyyətində və vətəndaşlıq mövqeyində bir aktivlik oldu; zatən bu, belə də olmalı idi. Azərbaycanda gedən ictimai-siyasi proseslərdə milli düşüncə stereotipinin formalaşmasında yaxından iştirak etdi, ən çətin, mürəkkəb bir vaxtda özünün ziyalı mövqeyi ilə cəmiyyətə bir nümunə oldu. Yazılarında sərgilədiyi prinsipiallıq, dürüstlük onun ictimai-siyasi proseslərə, hadisələrə münasibətində də özünü göstərirdi. Yusif Səmədoğlunun "Qətl günü", Mövlud Süleymanlının "Köç" romanları ilə bağlı müzakirələrin mərkəzində olması, yazılarında əsərlərdəki yenilikləri, sənətkarlığı, bədii dəyərləri müdafiə etməsi də onun ədəbiyyatın tərəfində durması ilə yanaşı, həm də vətəndaşlıq mövqeyindən, bədii düşüncədəki prinsipiallığından və ona gərəkən dəstəyi verməsindən irəli gəlirdi.

Arif ədəbi prosesdə tənqidi məqalələri ilə az-az çıxış etməsinə rəğmən (o, əsasən nəsr poetikasının nəzəri məsələləri üzərində işləyirdi), həmişə ədəbi mühitin episentrində olub. Ona görə ki, yazdığı məqalələr ədəbi prosesi məşğul edib, onu düşündürüb və yeni araşdırmalar üçün müəyyən bir stimul verib. "Tənqidin qayğıları və tənqidə qayğılar" məqaləsinin ədəbi prosesdə yaratdığı effekt biz yaşıdlar arasında uzun müddət müzakirə mövzusuna çevrildi. Ədəbiyyatşünas və tənqidçi vicdanı onun hər məqaləsindən, tədqiqat əsərindən boylanırdı.

Arif Əmrahoğlu yaxşı ədəbiyyatşünas, tənqidçi olmaqla yanaşı, həm də bacarıqlı və qabiliyyətli bir funksioner idi; onun dövlətçiliyə bağlılığı, savadı ən çətin və məsuliyyətli işin öhdəsindən gəlməsinə imkan verirdi. Əvvəlcə AMEA Nizami Gəncəvi adına Milli Muzeyinin direktor müavini, daha sonra isə Prezident Aparatında Milli siyasət şöbəsində işləməsi onun mülli və dövlətçilik düşüncəsinin formalaşmasındakı əməyini ortaya qoydu, ən çətin və mürəkkəb bir dövrdə bu işlərin öhdəsindən ləyaqətlə gəldi. Azərbaycan Yazıçılar Birliyinin katibi olandan sonra isə Arifin üzərinə böyük bir missiya düşdü. Onun ömrünün sonunadək çalışdığı Yazıçılar Birliyindəki rəsmi vəzifəsi və işi ilə yanaşı, qeyri-rəsmi görəvi, mənə elə gəlir ki, Azərbaycan Yazıçılar Birliyinin siyasiləşmiş cəmiyyətə adaptasiyasından ibarət oldu. Onadək Azərbaycan Yazıçılar Birliyi ilə cəmiyyət, eləcə də bir çox yazarlar arasındakı "Çin səddi"ni, deyərdim ki, Xalq yazıçısı Anarla bərabər, Arif Əmrahoğlu aradan götürdü. Mən onlarla yazar tanıyıram ki, məhz Arif Əmrahoğluna görə bu birliyə münasibətinə müsbət çalarlar əlavə etmiş, yaxud da bütünlüklə münasibətini dəyişmişdir. Vaxt var idi ki, demək olar, hər gün müxtəlif qəzetlərdə Yazıçılar Birliyinə, yaxud onun rəhbərliyinə qarşı məqalələr yazılırdı. Yazıçılar Birliyi isə bu məqalələrə cavab verməklə məşğul idi. Arif Əmrahoğlunun ora gəlişindən sonra Yazıçılar Birliyinə olan hücumlar da azalmışdır, Yazıçılar Birliyi cəmiyyətdə müsbət imic formalaşdırmışdır.

Arif Əmrahoğlu ilə Nizami adına Ədəbiyyat İnstitutunda işləyərkən daha yaxından tanış oldum. Əgər əvvəllər ara-sıra görüşürdüksə, "XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı" şöbəsində birgə çalışdığımız zaman bir-birimizi daha dərindən tanımaq fürsəti bulduq. Filologiya üzrə elmlər doktoru, professor Şirindil Alışanlının rəhbərlik etdiyi şöbədə hər həftə toplaşaraq ədəbiyyatşünaslığın müxtəlif problemlərini müzakirə edərkən Arif Əmrahoğlunun elmi-nəzəri erudisiyasının, geniş ədəbiyyatşünaslıq təfəkkürünün, bədii ədəbiyyatı hiss etmək, duymaqla yanaşı, onu qiymətləndirmək istedadının şahidi oldum. Müzakirələrdə yaxından iştirak edir, elmi-nəzəri düşüncəsini mümkün qədər paylaşırdı, lakin bunu elə edirdi ki, qarşısındakı onun bilik nümayiş etdirdiyini heç cür hiss etmirdi. Onun "Nəsrin poetikası", "Epik sözün bədii gücü" monoqrafiyaları ədəbiyyatşünaslığımızın ən yaxşı səhifələrini təşkil edir.

Son zamanlar Arif Əmrahoğlu sırf nəzəri məsələ – nəsrin poetikası məsələləri ilə məşğul olurdu. Stereotip davranış və obraz yaradıcılığı ilə bağlı şöbədə etdiyi məruzə ədəbiyyatşünaslığımızda yeni bir səhifə açırdı. Bu istiqamətdə onun milli etnik şüur, müəllif mövqeyi və s. problemlər haqqında söhbətlərinə də qulaq asmışam. Ancaq nə yazıq ki, bütün bunlar onun nəzəri erudisiyası qarşısında çox az idi. O, daha çox yazıb yaratmağa layiq idi. Onu tanıyanların hamısı onu elmlər doktoru görmək istəyirdi, bir tək özündən başqa... Dəfələrlə bu mövzuda söhbətlərimizdə hər şeyin hazır olduğunu, ancaq hələ tamamlamağa vaxtının olmadığını deyirdi. Mənə elə gəlir ki, onun bütün bunlara sadəcə vaxtı çatmırdı, daha gərəkli hesab etdiyi işlərlə məşğul olurdu. Arif Əmrahoğlu ada, şan-şöhrətə o qədər də fikir vermirdi.

Onun yazıları həyatı və varlığı idi, bu yazılarla yaşayırdı, həyatda necə vardısa, yazılarında da elə idi. Arif sözü elə Arifin özü idi...

***Bədirxan ƏHMƏDOV,***
***filologiya elmləri doktoru, professor***

# Xatirələrdə gerçəyin payı...

**İnsanlar bəzən keçmişdə baş verən hadisələri özləri də bilmədən təhrif edərək danışırlar. Məsələn, hansısa hadisənin şahidi olmuş 2 şəxsin hər biri baş verənləri fərqli nəql edir. Yalançı xatirələr yaddaşımıza haradan sızır? Hər bir xatirə gerçək və yalan arasında balanslaşdırılmış vəziyyətdə olur. Xatirələrin əksəriyyəti gerçək olaylardan götürülür, amma yenə də hər dəfə yada düşəndə forma və məzmun etibarilə az da olsa, dəyişikliyə məruz qalır.**



Norveç yazıçısı və araşdırmaçı Hilda Ötsbi "Dəniz atının ardınca suya baş vurmaq" əsərində yazır ki, "bu, ona görə baş verir ki, hər dəfə hansısa xatirəni yada salarkən biz boşluqları gerçəyə yaxın hadisə və təsvirlərlə doldurur, uyğun detalları tapıb hadisəni bəzəyirik".

Dünyanın yalançı xatirələr üzrə ən tanınmış elm adamı, amerikalı professor A.Hopvud bir gün qərara gəlir ki, insanların gündəlik həyatı, onların bu və ya digər dərəcədə dəyişdirdikləri həqiqətlərdən bəhs edən "Yalançı xatirələr arxivi" adlı bir layihə hazırlasın. Az sonra toplanan yalançı xatirələrin sayı görünməmiş həddə çatdı. Bəlkə də çoxları düşünür ki, danışdıqları hər bir hadisənin həqiqiliyinə əmin olduqları üçün xatirələrin həqiqi, doğru olduğuna özlərini inandırıblar. Xatirələr rekonstruktiv və dəyişkən olur.

Əhvalat danışmağın mahir ustası Edqar Allen Po hələ 1884-cü ildə məhz aşırı təsiredici nitq bacarığı ilə amerikalıları inandırmışdı ki, hava şarı ilə Transatlantik uçuş artıq həyata keçirilib. Yazıçı bu fiksiyanı bərbəzəkli təsvirlərlə oxucuya həqiqət kimi təqdim etməyi bacarmışdı. Po əslində, gerçək həyatda baş verə biləcək detallardan yararlanmışdı. O, təsvir bacarığından ustalıqla istifadə etmişdi. Bu, onun üçün gerçəklə yalanın vəhdətindən yoğrulmuş oyun, eyni zamanda, böyük bir həzz qaynağı idi. Hər hansı bir hadisənin vacib, inandırıcı detallarla təqdim edilməsi daha böyük müvəffəqiyyətin qazanılması ehtimalını da yüksəldir. Po qəzet vasitəsilə camaatı aldatmaq üçün məhz bu üsuldan istifadə etmişdi.

XX əsrin 60-cı illərində iki dahi – Çarli Çaplinlə Pablo Pikasso görüşəndə onlar arasında hansı söhbətlər olmuşdu? Çaplin xatırlayır:

"Parisdən Romaya getməmişdən qabaq Lui Araqon mənə zəng edib dedi ki, Jan Pol Sartr və Pikasso mənimlə görüşmək istəyirlər. Onları yanıma, nahara dəvət etdim. Təkcə Araqon ingilis dilində danışırdı. Sartr isə, deyəsən, düşüncələrini bizimlə bölüşmək fikrində deyildi. Sifətdən istehzalı görünən Pikasso isə yumor hissi olan adama bənzəyirdi. Nahar qurtarandan sonra axşam Pikasso bizi emalatxanasına apardı. Tavanın pərdisindəki mismara bənd edilmiş məftildən elektrik lampası asılmışdı, onun işığında biz köhnə, laxlayan çarpayını və uçmuş buxarını gördük".

Lui Araqon isə bu görüşü başqa cür xatırlayır. Düşüncələrini bölüşmək istəməyən yazıçı Jan Pol Sartr, ümumiyyətlə, bu görüşdə olmayıb. Görüşdə Çaplini hələ Amerikadan tanıyan və ingilis dilini gözəl bilən Vladimir Pozner iştirak edib. O axşam isə Pikassonun emalatxanasında nədənsə işıq yanmırmış...Göründüyü kimi, əhvalat bir-birindən köklü şəkildə fərqlənir. Çox mümkündür ki, bu tarixi görüş haqqında Pikasso da öz xatirələrini çap etdirsəydi, o zaman başqa bir variant da əlimizdə olardı. Hər şey onların gözləri qarşısında baş verdiyi halda yazılarında bəzən əslində olmayan lövhələri təsvir edirlər. "Yalançı xatirələr arxivi" bu cür faktlarla zəngindir.

Görkəmli kino tarixçisi Jorj Sadul belə bir faktı nəql edir. Faşistlər hakimiyyət başına gələndən sonra alman dramaturqu Fridrix Volf Almaniyadan SSRİ-yə mühacirət edir. 1934-cü ildə o, əsasında antifaşist film çəkilmiş və böyük müvəffəqiyyət qazanmış "Professor Mamlok" pyesini yazmışdı. 1941-ci ildə Moskva ətrafında döyüşlər zamanı o, hərbi müxbir kimi cəbhə xəttinə gedir. Bir dəfə Volfu sovet patrulu saxlayır. Ön xətdə alman jurnalistinin peyda olması şübhəli görünür. Onun şəxsiyyətini müəyyən etməyə çalışırlar. Volf deyir ki, o, "Professor Mamlok" pyesinin müəllifidir. Pyesin məzmununu danışmağı ondan xahiş edirlər. Müəllifin danışdığı vaxtilə pyesin tamaşaçısı olmuş əsgərlərin xatirələri ilə uyğun gəlmir. Nəhayət, Volf casus olmadığını başqa yolla sübut etmək məcburiyyətində qalır.

Beləcə, təsəvvür və xatirə arasında uçurum yaranır. Həqiqi olmayanlar həqiqət kimi qələmə verilir. Hər hansı bir xatirə həyatımızdakı hansısa hadisənin videoyazısı deyil, beynin keçmiş zamana aid nostalji bir durumudur. Xatırlamaq üçün o hadisə yenidən dirilməlidir. Hadisələr isə fərqlidir, onlar neyronların fərqli konfiqurasiyasını yaradır. Hər bir hadisəni həyatınızın fərqli dönəmlərində fərqli formalarda xatırlayırsınız. Çünki indiki zaman keçmiş zamanın rənglərini dəyişdirir. Xatirələrin forma dəyişdirə bilməsi ilə bağlı ilk informasiyalar ingilis alimi, professor Elizabet Loffusdan gəlir. Loffus xatirələrin nə qədər kövrək ola biləcəyini göstərərək yaddaş araşdırmaları sahəsindəki təsəvvürləri dəyişdirib. O özü də saxta xatirələr ustası idi.

Bir məsələ də var ki, insan mahiyyətcə unutqan varlıqdır. Unutmaq, yaxud yaddaşla bağlı manipulyasiyalar təkcə tarix üçün deyil, insanlıq üçün də ciddi problemlər yaradır.

***Kənan HACI,***
***yazıçı-publisist***

# Şəkidə beynəlxalq oftalmoloji simpozium




**Azərbaycan Oftalmoloqlar Cəmiyyəti və Türk Cümhuriyyətləri Oftalmoloji Dərnəyinin birgə təşkilatçılığı ilə bugünlərdə Şəkidə keçirilən II Beynəlxalq Simpozium başa çatıb.**

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzindən "XQ"-yə verilən məlumatda bildirilir ki, tibbi-elmi məclisin məqsədi oftalmologiya sahəsindəki son yenilikləri və nailiyyətləri müzakirə etmək, beynəlxalq təcrübələri öyrənmək, təkliflər irəli sürmək və regionun, eləcə də xarici ölkələrin oftalmoloqlarının bu yeniliklərdə iştirakını təmin etmək idi. Simpoziumun əsas mövzularından biri oftalmologiyanın beynəlxalq standartlara uyğunlaşdırılması olub.

Toplantıda Azərbaycanın tanınmış alimləri, Bakı və regionlardan gələn həkim heyəti, Türkiyə, Rusiya, Qazaxıstan, Tacikistan və Özbəkistandan gələn oftalmoloqlar məruzələrini təqdim ediblər. Simpozium Türk Cümhuriyyətləri Oftalmoloji Dərnəyinin fəxri sədri Sunay Duman, TCOD-un rəhbəri professor Öner Gelişken, akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin elmi işlər üzrə direktor müavini, tibb elmləri doktoru Hicran Namazova və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədr müavini, tibb elmləri doktoru Yazgül Abdıyevanın nitqləri ilə açılıb. Simpoziumda MOM-nin direktor müavini Ceyhun Nəzərli də iştirak edib.

Bildirilib ki, belə beynəlxalq müzakirələr Azərbaycan oftalmologiyasının inkişafına və ölkələrarası elmi əlaqələrin daha da möhkəmlənməsinə böyük töhfə verir. Çıxışlarda Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin fəaliyyəti, ölkədə oftalmoloji yardımın keyfiyyətinin yüksəldilməsi və optimallaşdırılması istiqamətində görülən işlər, Milli Oftalmologiya Mərkəzinin səyyar klinikalarının fəaliyyəti haqqında geniş məlumat verilib, işğaldan azad olunmuş Laçın, Zəngilan və Füzuli kimi bölgələrdə keçirilən aksiyalar barədə söz açılıb.

Simpoziumda "Qlaukoma zamanı minimal invaziv əməliyyatlar", "Sadədən mürəkkəbə keratoplastikalar", "Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Şəki filialının 5 illik fəaliyyətinin təhlili", "Üzdəki epilyasiyadan sonra lazerin səbəb olduğu ağır makula atrofiyası", "Buynuz qişa perforasiyasının idarə edilməsi" və "Uşaqlarda travmatik kataraktanın cərrahi müalicəsi" kimi mövzular ətrafında geniş müzakirələr aparılıb.

***Z.BƏŞİRQIZI***
***XQ***

# Dərmanlar sığorta ilə veriləcək

**Növbəti ildən ambulator xəstələrə həkim tərəfindən yazılmış əsas müalicə dərmanlarının tibbi sığorta paketinə daxil edilməsi və İctimai Tibbi Sığorta tərəfindən ödənilməsi gözlənilir.**




Bunu İTS Dövlət Agentliyinin İctimaiyyətlə Əlaqələr Şöbəsinin rəhbəri Leyla Lətifova Qəbələ xəstəxanasına mediaturda "Medicina.az" saytının əməkdaşına bildirib. O, jurnalistin "Qərar hansı xəstəlikləri əhatə edəcək?– sualının cavabında deyib:

– Proses mərhələli şəkildə həyata keçiriləcək. Diqqət ediləcək ki, hansı xəstəliklərin müalicəsini ləngitmək daha çox ağırlaşmalar yaradar. Mərhələli qaydada birinci ürək-damar xəstəlikləri, həzm sistemi, daha sonra tənəffüs sistemi xəstəlikləri üzrə dərmanların təmin olunması nəzərdə tutulub.

Azərbaycanda Tibbi Sığorta haqqında qanunda dəyişikliklər qəbul edildikdən sonra, qanun öz təsdiqini taparsa, proseslər sürətlə həyata keçiriləcək. Dərmanların apteklərdə xüsusi qrup üzrə xəstələrə sığorta ilə pulsuz verilməsinə başlanılacaq.

***XQ***

## Beynəlxalq həyat

**ABŞ-də növbəti prezident seçkilərinə düz 5 gün qalır. Belə ki, noyabrın 5-də bu ölkədə qarşıdakı 4 il üçün Ağ evə rəhbərlik edəcək siyasətçinin adı məlum olacaq. Bu, hazırkı vitse-prezident Kamala Harris də, sabiq dövlət başçısı Donald Tramp da ola bilər. Şansların təxminən bərabər olduğu deyilir.**

Hər iki namizəd bu fikri təlqin etməyə çalışır ki, prezident seçilərsə, ölkəsinə daha çox fayda verəcək və dünyada müharibələri dayandıracaq. Bəllidir ki, xanım siyasətçi K.Harris Demokratlar Partiyasını təmsil edir və daha çox az gəlirli və orta sinfin mövqelərindən çıxış edir. Respublikaçı milyarder D.Tramp isə zənginlərin vergi yükünü azaldacağını vəd edir. İddia edir ki, bu yolla ölkədə azad rəqabətin güclənməsinə yardım etmiş olacaq.

# ABŞ: səsverməyə 5 gün qalır





Namizədlərin xarici siyasətə baxışları da kəskin fərqlənir. Tramp özünün birinci ABŞ-nin iri imperialist dairələrinin mənafeyinə uyğun olaraq sərt xarici siyasət kursunu həyata keçirmək niyyətindədir. Harris isə, ilk növbədə, qlobalçıların baxışlarını bölüşür. Bəllidir ki, demokratlar ABŞ-nin liderliyi ilə beynəlxalq ticarətin genişlənməsində maraqlıdırlar.

Ölkə daxilində seçiciləri isə bir çox problemlərin həllini tapmaması narahat edir. Burada 2 həssas məsələ var. Son illər ABŞ-yə Meksika sərhədlərini aşaraq milyonlarla qeyri-qanuni miqrant daxil olub. Bu, amerikalıların böyük əksəriyyətinin narazılığına səbəb olur. Digər bir problem isə istehlak mallarının qiymətlərinin artmasıdır.

Qeyd etmək lazımdır ki, ABŞ-də seçkilər özünəməxsus cəhətləri ilə fərqlənir. Belə ki, bir çox ştatlar ənənəvi olaraq bu və ya digər partiyaya rəğbət göstərirlər. Mövqeləri bəlli olan ştatların sayı 43-dür. Həmin ştatlar üzrə iddiaçıların şansları, demək olar ki, bərabərdir. Qalan 7 ştat isə "tərəddüd edən ştatlar" sayılır və prezidentliyə namizədlər arasında barışmaz mübarizə əsasən məhz bu ştatlarda gedir.

Hazırkı vitse-prezident və prezidentliyə iddiaçı Harris ölkənin altıncı ən böyük şəhəri və "demokratların qalası" olan Filadelfiyada kampaniya aparıb. Axı, Filadelfiya şəhərinin yerləşdiyi Pensilvaniya ştatında ("tərəddüd edən"lərdən biridir-müəllif) səslərin sayını artırmaq lazımdır. Tramp da buralara tez-tez səfər edir.

Beləcə, hər 2 namizəd bu günlərdə burada seçicilərin qəlblərinə yol tapmağa cəhd edirlər. Məsələn, dünən Harris Filadelfiyada səhər kilsə xidmətinə qatılıb, eyni zamanda, bərbər dükanında olub, Puerto-Riko restoranında yemək yeyib və gənclərin basketbol idman zalını ziyarət edib. Yeri qəzetlər yazıb ki, seçicilər onu "sıcaq" qarşılayıblar.

Həmin gün Tramp "doğma" Nyu-Yorkda "dünyanın ən məşhur arenası" adlandırdığı "Madison Square Garden"də böyük mitinq keçirib. O, ötən dəfə burada səsverməni rəqibi Co Baydenə uduzmuşdu. Görünür, milyarder düşünür ki, risk etməsən, uğur qazana bilməzsən

Bu günlərdə ABŞ-də çox sayda rəy sorğuları keçirilir. Trampın cüzi fərqlə üstün olduğu iddia olunur. Əlbəttə, musiqiçilərin təbirincə desək, bu şouda son akkord noyabrın 5-də səslənəcək. Sadəcə bir qədər səbr etməyə ehtiyac var.

Mediada tez-tez məşhurların seçimləri barədə xəbərlər dərc olunur. Məsələn, dünyaca populyar Hollivud aktyorları Robert De Niro və Leonardo Di Kaprio ABŞ prezidenti vəzifəsinə Demokratlar Partiyasından namizəd Kamala Harrisi dəstəkləyiblər.

Məşhurlar Filadelfiyada keçirilən seçki kampaniyasında çıxışlarında seçicilərə müraciət ediblər. Robert De Niro hətta Respublikaçılar Partiyasının namizədi Donald Trampa nifrət etdiyini bildirib və vətəndaşları məsuliyyətlə səs verməyə çağırıb. "Seçim göz qabağındadır və bu seçim vitse-prezident Kamala Harrisdir", – Leonardo Di Kaprio öz növbəsində deyib.

Yeri gəlmişkən, ABŞ-nin hazırkı dövlət başçısı Cozef Bayden Delaver ştatında prezident seçkilərində erkən səs verib. Jurnalistlər belə bir məqama diqqət yetiriblər ki, Bayden seçki məntəqəsinə gələn digər insanlar kimi, səsvermədən əvvəl növbəyə dayanıb.

Məlumat üçün bildirək ki, bu il amerikalı seçicilər, eyni zamanda, Konqresin yeni üzvlərini də seçəcəklər. Nümayəndələr Palatasındakı 435 yerin hamısının, Senatda isə 33 yerin sahibi noyabrın 5-də bəlli olacaq.

Bu gün qlobal siyasətdə yeni dünya düzəni formalaşır. Bu proses dünyanın bir çox regionlarında tektonik "siyasi və hərbi titrəyişlərlə müşayiət olunur". Rusiya–Ukrayna müharibəsinin nəticələri, Yaxın Şərq düyününün açılması yaxın gələcəkdə qüvvələr nisbətinə təsirsiz ötüşməyəcək. "Zəlzələ effektli qarşıdurma" isə titanlar – ABŞ ilə Çin arasında ola bilər.

Bəli, 5 gündən sonra Amerika vətəndaşları seçim etməli olacaqlar. Dünya okeanın o tayında nə baş verəcəyinin fərqindədir. Axı, orada kimin qalib gəlməsindən çox şey asılıdır. Bizə isə yalnız bunu ümid və arzu etmək qalır ki, kaş bəşəriyyət lokal və proksi müharibələrdən qurtulsun və dinc, asudə, rahat yaşamaq imkanı əldə etsin.

***M.HACIXANLI***
***XQ***

# Daşqında ölənlərin sayı 70-i ötdü



**İspaniyadakı daşqınlar nəticəsində ən azı 72 nəfər həyatını itirib. Bu barədə İspaniyanın regional hakimiyyət orqanları məlumat yayıb.**

Bildirib ki, Valensiya şəhərində ən azı 70 nəfər həyatını itirib. Yerli hökumət vətəndaşlara evlərini tərk etməməyi və lazım olmadığı müddətcə səyahət etməməyi tövsiyə edib.

Qeyd edək ki, İspaniyanın şərqindəki Valensiya bölgəsində çərşənbə axşamından başlayan leysan yağışları daşqınlara səbəb olub. Təbii fəlakət nəticəsində avtomobillərə, qatar relslərinə, evlərə və binalara ziyan dəyib.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 240 (30644) 31 oktyabr 2024-cü il, cümə axşamı

## İdman xəbərləri

### Komandamız dünya çempionu olub

**Albaniyanın paytaxtı Tiranada keçirilən dünya çempionatında yunan-Roma güləşi üzrə millimiz uğurla çıxış edərək Azərbaycan güləş tarixində yeni səhifə açıb.**



Üç qızıl medal qazanan yığmamız 85 xalla dünya çempionu olub. Ardıcıl 2-ci dəfə bu uğura imza atan komandamız titulunu qoruyub. Azərbaycan ən yaxın izləyicisi olan İranı 34 xal qabaqlayıb.

Millimiz bu uğurla Azərbaycan güləşində birdən-birə 2 rekordu yeniləyib. İkinci dəfə dünya çempionluğu kubokunu qazanmaqla böyüklər arasında güləş növləri arasında ilkə imza atan yunan-Roma millimiz, həm də Dünya çempionatında 3 qızıl medal qazanan ilk komanda olub.

Xatırladaq ki, Albaniyada Eldəniz Əzizli (55 kq), Nihat Məmmədli (63 kq) və Ülvü Qənizadə (72 kq) dünya çempionu olub. Onların hər biri komandanın hesabına 25 xal yazdırıb. Çempionatda debüt edən Qurban Qurbanov (82 kq) isə 5-ci yeri tutaraq milliyə 10 xal qazandırıb.

### Avropa reytinqində 2-ci

**Avropa Minifutbol Federasiyası milli komandaların yeni reytinq cədvəlini açıqlayıb.**



Azərbaycanın minifutbol yığması 2-ci pillədə qərarlaşıb. Milli komanda yalnız Rumıniya seçməsindən geri qalıb. Son Avropa çempionu Serbiya 3-cü, Qazaxıstan isə 4-cü pilləni tutublar.

İlk onluqda, həmçinin Bolqarıstan, Fransa, Slovakiya, Monteneqro, Macarıstan və Çexiya kollektivləri də yer alıb.

### Gimnaziadada 4 medal

**Azərbaycanın bədii gimnastları Bəhreynin paytaxtı Manama şəhərində keçirilən Gimnaziada İdman Oyunlarında 4 medal qazanıblar.**



Millinin üzvü Sofiya Məmmədova halqalarla hərəkətlərdə 29.450 xal toplayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. S.Məmmədova topla hərəkətlərin icrasında da fərqlənib. Hakimlərdən 28.050 xal alan gimnast bu dəfə gümüş medala yiyələnib.

Yığmamızın digər üzvü Şəms Ağahüseynova isə halqalarla hərəkətlərdə 29.000 xalla bürünc mükafata sahib çıxıb. O, lent proqramında hakimlərdən 27.350 xal alaraq 2-ci yeri tutub.

*Leyla QURBANOVA*
*XQ*

## Maraq dünyamız

# "Boşanmaq hüququ" olmayan ölkə

### *Deyəsən, burada bütün ər-arvadların "xasiyyəti tutur"*

**Çili özünəməxsus coğrafi faktları, maraqlı adət-ənənələri, müəmmalı tarixi və cəzbedici təbiəti ilə diqqət çəkir. Ən başlıcası, dünya xəritəsində şimaldan cənuba doğru 6 min kilometr uzanan yeganə ölkədir. Müqayisə üçün deyək ki, Bakı ilə Moskva arasında olan məsafə hava ilə 2 min kilometr, avtomobillə isə 2200 kilometrdir. Yəni Çili Sakit okean sahilləri boyunca olduqca ensiz, amma çox uzun bir ərazini əhatə edir.**



Bu ölkənin ərazisinin ən dar hissəsinin eni cəmi 15 kilometrdir. Çili 3 qitədə yerləşməsi ilə də diqqət çəkir: Cənubi Amerikanın cənub-qərb hissəsi, Okeaniyadakı Pasxa adası və Antarktidanın bir hissəsi. Elə xarici turistlərin çoxu Antarktidaya getmək üçün məhz bu ölkəyə gəlirlər. Dünya ölkələrinin bir çox elmi mərkəzləri cənub buzlaqlarına ekspedisiyalarını buradan başlayırlar.

Bu ölkənin Ushuaia şəhəri planetimizin ən cənub şəhəri adlanır. Hətta həmin şəhərə gələn əcnəbilərin pasportunda qeyd edilir ki, bu adam "dünya coğrafiyasının sonunu görmüşdür".

Ölkənin ərazisi qeyri-adi dərəcədə uzun olduğuna görə turistlər burada müxtəlif coğrafi fərqliliklərə rast gəlirlər. Məsələn, mənzərəli dərələr, səhralar, arxipelaqlar, adalar, buzlaqlar. Elə ona görə də bəzi səyyahlar Çilini "miniatür planet" və ya "odlar və buzlar ölkəsi" adlandırırlar. Atakama səhrası, And dağlarının yüksək zirvələri, Vilyarrika vulkanı, Mamina isti bulaqları məhz bu ölkənin ərazisindədir.

Bu diyarın flora və faunası da çoxnövlü və çoxsaylıdır. Lakin sevindirici haldır ki, burada həyat üçün təhlükə yaradan həşəratlar olduqca azdır. İlanlar isə ümumiyyətlə, yoxdur. Çili materikinin səthinin demək olar ki, 80 faizini bütün ölkə boyu uzanan 2 dağ sistemi tutur. Şərqdə And dağları, Qərbdə isə sahil boyunca Kordilyer dağları uzanıb gedir.

Bu ölkə buzlaqlardan əmələ gələn göllərin inanılmaz gözəlliyi ilə də məşhurdur. Alimlərin fikrincə, Çilinin Pataqoniya ərazisi planetin ekoloji cəhətdən ən təmiz yeridir. Elqui Vadisi isə yer üzündə ən aydın səmaya malikdir. Belə ki, burada ildə təqribən 240 buludsuz gecə olur. Elə ona görə də planetin Cənub yarımkürəsində ən böyük astronomik rəsədxana burada tikilmişdir.

Bu ölkənin sakinləri İslam dinindən uzaq olsalar da, müsəlman xalqları kimi yerdə oturmağı sevirlər. Ancaq xristianlar kimi yay-qış evə ayaqqabılı girirlər. Ən çox sevdikləri məşğuliyyət futbol azarkeşliyi və şeirə qulaq asmaqdır. Onların tanınmış şairlərinin şəkillərini pullarının üstündə görmək olur.

Ən maraqlı məqam. Bu ölkədə bütün ailələr çoxuşaqlıdır – hamının beş və ya altı uşağı var. Üstəlik, Çilidə boşanmalar qətiyyən qəbul edilmir. Yəni orada evlənəndə yüz ölçüb, bir biçirlər və ona görə də bütün ailələrdə ərlə-arvadın xasiyyəti bir-birinə düz gəlir.

*İttifaq MİRZƏBƏYLİ*

## Fotopəncərə

### Otağıma dolan dünya...



### Abşeronda duman, yağış, bölgələrdə yağmursuz



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, oktyabrın 31-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gecə və səhər bəzi yerlərdə arabir yağış yağacağı, duman olacağı gözlənilir. Şimal-qərb küləyi əsəcək, səhər mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 9-13°, gündüz 15-20° isti olacaq.**

Atmosfer təzyiqi 767 mm civə sütunundan 764 mm civə sütununa enəcək, nisbi rütubət gecə 80-90 , gündüz 70-75 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şərq rayonlarında arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 5-9°, gündüz 17-22° isti, dağlarda gecə 1-6° şaxta, gündüz 5-10° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

# "Hellouin" – qorxulu oyunların şən təəssüratı

**Minillərin süzgəcindən keçmiş el bayramları, xalq oyunları tarixi yaddaşının qorunub saxlanmasında, əsrlər boyu formalaşmış mədəni dəyərlər sisteminin gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır. Dünyanın müxtəlif ölkələrində coşqu ilə qeyd edilən, Azərbaycanda da məşhurlaşan, bugünlərdə ab-havası yenidən hiss edilən "Hellouin" ("Halloween") belə bayramlar sırasındadır.**



"Hellouin" sözü ilk dəfə XVI əsrdə ingilis ifadəsi olan "All-Hallows-Eve" (Bütün müqəddəslərin axşamı) sözündən yaranıb. Uşaqdan-böyüyə, çox adamın maraq göstərdiyi, xüsusən uşaqların sevdiyi bu bayramın meydana gəlməsinin maraqlı tarixçəsi var.

Hər il oktyabrın 31-də qeyd olunan "Halloween" bütpərəstlərin bayramı olan "Samayn"la əlaqəlidir. 2 min il əvvəl, əsasən, indiki İrlandiya, Böyük Britaniya və Fransanın şimalında yaşayan kelt tayfaları yeni ili oktyabrın son günündə qeyd edirdilər. Onlar hesab edirdilər ki, oktyabrın 31-dən noyabrın 1-nə keçən gecə bu dünya ilə axirət arasında sərhəd silinir. Bütpərəst keltlər ölmüş yaxınlarının ruhlarından başqa, digər təhlükəli ruhların dünyamıza keçməsinin qarşısını almaq, onları qorxutmaq üçün tədbirlər görərmişlər. Bayram zamanı müqəddəslərə hörmət əlaməti olaraq heyvan dərilərindən düzəldilmiş kostyumlar geyinən insanlar nəhəng tonqallar ətrafında toplaşaraq müxtəlif məhsulları və ya heyvanları yandırıb tanrılarına qurban verərmişlər. "Hellouin"nin əsas rəmzi olan balqabaqların içini oyub, içərisinə şam qoyarlarmış. Onlar balqabağın içindəki odun insanı pis ruhlardan qoruduğuna inanırmışlar.

Hər il oktyabrın 31-də bu bayramda uşaqlar üçün şirniyyat alınır. Evlərin qabağı, mərasim keçiriləcək yerlər, mağazaların vitrinləri, iş yerlərinin pəncərələri, məktəblərdə sinif otaqları qara qüvvələrin rəmzi sayılan hörümçək toru, qara pişik, skelet, balqabaq təsvirləri ilə bəzədilir. Bayram zamanı uşaqlar qorxulu kostyumlarda qapı-qapı gəzib, bizdə Novruz bayramında olduğu kimi şirniyyat yığırlar. Ev sahibi heç nə verməyəndə isə qorxunc görkəmləri ilə onlara hədə-qorxu gəlirlər.

Tarixən dəyişikliklərə məruz qalan və təkamül nəticəsində müasirləşən bu bayramın mistik ayinləri, eyni zamanda, müqəddəslərə hörmət və pis ruhları qorxutmaq üçün geyinilən qeyri-adi kostyumlar bizim günlərdə əyləncə və şənliyə xidmət edir. Buna görə də, bu bayram ildən-ilə geniş yayılır, rəngarəngliyi ilə daha çox insanı özünə cəlb edir.

*LQ URBANOVA*
*XQ*

## Sağlamlıq

# Xeyrindən çox zərəri varmış

**Yüksək konsentrantlı burun damcıları görməni zədələyir. Bu barədə Rusiyanın tibb elmləri doktoru Vladimir Zaytsev sosial şəbəkə hesabında yazıb.**

Həkim bildirib ki, burnunuz tutulduğunda bu damcılar tez bir zamanda nəfəs almağınızı bərpa edir. Amma heç düşünmüsünüzmü, bu, nəyin bahasına baş verir?!

Zaytsev izah edib ki, əvvəla, bu damcılar insanda həmin dərmanlara qarşı asılılıq yaradır. Vaxt keçdikcə ona tələbat çoxalır və gün gəlir ki, onlarsız nəfəs almaq çətinləşir.

Təcrübəli qulaq-burun-boğaz həkimləri burun damcısına ehtiyac yarananda, hətta, böyüklərə də uşaqlar üçün nəzərdə tutulan preparatların ən zəifini – 0,5 faizlik məhlulunu tövsiyə edirlər. Çünki yüksək konsentratlı burun damcıları selikli qişanı ciddi şəkildə zədələyir. Ani sıxılmadan qan damarlarının spazmı meydana gəlir. Gözlər etmoid labirintinə yaxın yerləşdiyi üçün zədələnmiş hüceyrələr görmədə də problem yaradır.

*Z.HÜSEYNLİ*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin kollektivi qələm yoldaşları, Qarabağ qazisi Şamil Sabiroğluya anası

**MƏLEYKƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4003
SİFARİŞ 2484
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00